# Xalq qəzeti

Xalqın qəzeti!

№ 55 (30749) 13 mart 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Rusiya Ermənistanı bağışlayacaqmı?

*Nankorlar üçün rekviyem əvəzi*

**Ermənistan Rusiya ilə yaxınlaşmaq niyyətindədir. Bunu ölkənin bir sıra dairələri yazmaqdan və dilə gətirməkdən çəkinmirlər. Onlar əsasən iki məqamın – birincisi, AZAL-ın təyyarəsi ilə bağlı insidentə görə Rusiya–Azərbaycan münasibətlərinin müəyyən qədər soyuması, ikincisi isə ABŞ Prezidenti Donald Trampın kollektiv Qərbin anti-Rusiya siyasətinə düzəliş etmək əzmi üzərində dayanırlar.**



Birinci halda rəsmi İrəvan çalışır ki, Bakı ilə Moskva arasındakı soyuqluğu öz xeyrinə çevirsin, avantürizm üçün, belə demək mümkünsə, Şimaldan kömək qazansın. Baş nazir Nikol Paşinyan və tərəfdarları Rusiyada, belə demək mümkünsə, erməni sevdasının hələ səngimədiyinə siyasi sərmayə yatırmaq niyyətindədirlər. İkinci məqam da ciddidir və ona nəzərən Ermənistanın Qərbyönümlü xəttinin yenidən Kremlə doğru dəyişəcəyi önə çəkilir.

Nəzərə alaq ki, indiyədək rasional davranmağa üstünlük verən Rusiya həmişə Ermənistan rəhbərliyinin çıxardığı oyunlara dözüb. İstəməyib ki, durumu daha da gərginləşdirsin. O da məlumdur ki, Paşinyan administrasiyası əlinə düşən hər fürsətdəcə Rusiyanı "sancıb", Cənubi Qafqazda anti-Rusiya cəbhəsinin formalaşmasına çalışıb. Məsələn, Avropa İttifaqının Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan tərəfində fəaliyyət göstərən mülki müşahidə missiyasını götürək. Bu təsisat Moskvanın iradəsinə zidd şəkildə formalaşdırıldı. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov müşahidəçiləri "bölgədə əlavə qıcıqlandırıcılar" adlandırdı. Ancaq məsələ yalnız bu deyil.

*(ardı 4-cü səhifədə)*

# Bu gün Azərbaycan paytaxtında XII Qlobal Bakı Forumu işə başlayır

## Prezident İlham Əliyevin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin heyəti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

Qonaqlar, ilk növbədə, COP29-un Azərbaycanda yüksək səviyyədə təşkil olunması və uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdılar. Onlar iqlim gündəliyi və iqlim maliyyələşdirilməsi ilə əlaqədar çox vacib qərarların məhz Bakıda qəbul olunduğunu vurğuladılar.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvlərinə COP29-da fəal iştirak etdiklərinə görə təşəkkürünü bildirdi. COP29 zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən 16-dan artıq müxtəlif panelin təşkil edildiyini, həmçinin Mərkəzin ayrıca pavilyonunun fəaliyyət göstərdiyini xatırladan dövlətimizin başçısı bütün bunların COP gündəliyinin irəli aparılması işinə töhfə verdiyini dedi.

*(ardı 2-ci səhifədə)*

## USAID proqramlarının dayandırılması Avropada təşviş yaradıb

USAID FROM THE AMERICAN PEOPLE

Səhifə ⇨ 4

## Qərəzli qərar sərt reaksiya doğurur

*Avropa Parlamentinin Azərbaycanı təcavüzkar kimi qələmə vermək cəhdləri uğursuzluğa məhkumdur*

**Avropanın ali qanunverici qurumunun Azərbaycana qarşı bəyanatlar verməsini, qətnamələr qəbul etməsini, eləcə də beynəlxalq hüququn ziddinə, ermənilərin xeyrinə başqa sənədləri qəbul etməsini az görməmişik.**



İndi isə Avropa Parlamentindəki erməni lobbisi ağır cinayətlər, o cümlədən işgəncə, müharibə qanun–qaydalarının pozulması, terrorizm, terrorçuluğun maliyyələşdirilməsi və Azərbaycanın Cinayət Məcəlləsində nəzərdə tutulmuş digər əməllər törətməkdə ittiham olunan Ermənistan vətəndaşları ilə bağlı təhrif olunmuş gündəliyi təbliğ etməyə çalışır.

Dünən Strasburqda AP-nin plenar iclası çərçivəsində Bakıda qondarma "erməni məhbuslar" mövzusunda "Azərbaycan məhkəməsi qarşısına çıxarılmış erməni məhbusları, o cümlədən "Dağlıq Qarabağ"ın keçmiş "siyasi elitası" üzərində qanunsuz həbslər və uydurma məhkəmələr" başlığı altında dinləmələr keçirilib.

Azərbaycan məhkəmə prosesinin ciddi şəkildə milli və beynəlxalq hüquq normalarına riayət edilməsi ilə aparılmasına nəzarət edir. Sadəcə, avroparlamentarilərin diqqətinə onu çatdırmaq istərdik ki, çoxsaylı cinayətlərdə təqsirləndirilən şəxslərin Bakıda keçirilən məhkəmə prosesi Azərbaycanın daxili işidir və kənar müdaxilə cəhdləri qəbuledilməzdir. O da çoxdan məlumdur ki, Avroparlamentdə erməni maraqlarına xidmət "təcrübəsi" yenilik deyil. Azərbaycan belə hallarla ərazilərinin işğalı zamanı da üzləşib. Bu "təcrübə" Bakının AŞPA, AİHM və Avropanın digər siyasi strukturlarında üzləşdiyi ikili standartların bariz nümunəsidir.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan Milli Elmlər Akademiyası: inkişaf mərhələləri və müasir dövr



Səhifə ⇨ 7

## Bakı mühakiməsi erməniləri niyə qorxuya salıb?



Səhifə ⇨ 5

# Hay sərsəmliyi və İsrail amilinin qabardılması

*Rəsmi İrəvanın məqsədi nədir?*

**Qüds (Yerusəlim) Bələdiyyəsi şəhərdəki erməni patriarxlığından milyonlarla dollar vergi tələb edir. Ermənistanda bununla bağlı ajiotaj yaranıb. Bildirilir ki, bu tələb Qüdsdə erməni patriarxlığının tarixi statusunu, o cümlədən erməni icmasının mövcudluğunu və ümumilikdə, xristian irsini təhdid edir.**

Əlbəttə, məsələnin bu cür qoyuluşu hay düşüncə tərzinin zay məhsuludur. Mövcud fonda erməni başbilənlərin qaldırdıqları və dramatik səciyyə daşıyan məsələ isə Azərbaycanın İsrailin köməyi ilə Ermənistanda işğalçılığı reallaşdırmağa çalışmasına dair sərsəm iddiadır.

Məlum olduğu kimi, etibarlı mənbələrə istinadən Ermənistanın apreldə Azərbaycana qarşı müharibəyə başlayacağı ilə əlaqədar xəbər yayılıb. Qarşı tərəf bunun əksini, guya, Azərbaycanın Ermənistana qarşı hücuma keçəcəyini iddia edərək səs-küy qoparmaqdadır.



Haqqında söz açdığımız "İsrailin işğal üçün Azərbaycana dəstəyi" məntiqi bundan irəli gəlir və "dramatizmi" dərinləşdirməyə hesablanıb. İstər rəsmi İrəvanın, istərsə də onun təbliğatçılarının əsl məqsədini isə sonda diqqətə çatdıracağıq.

**(ardı 6-cı səhifədə)**

## Millimiz Avropa zirvəsində




Səhifə ⇨ 15

# Vergi islahatları fəaliyyət mühitini şəffaflaşdırır



Səhifə ⇨ 12

# Prezident İlham Əliyevin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin heyəti ilə görüşü



*(əvvəli 1-ci səhifədə)*

Vayra Vike-Freyberqa və İsmail Serageldin qeyd etdilər ki, Mərkəz böyük Azərbaycan şairi Nizaminin məhz humanizm prinsiplərinə, ideyalarına və fəlsəfəsinə əsaslanaraq, dünya miqyasında humanizmin təşviqinə öz töhfəsini verir.

Dövlətimizin başçısı vurğuladı ki, Mərkəzin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin fəlsəfəsi əsasında dünya miqyasında həyata keçirdiyi fəaliyyəti təqdir olunur. Bu təsisatın beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından aktiv şəkildə fəaliyyət göstərdiyini, onların həlli yollarının tapılmasına töhfəsini verdiyini deyən Prezident İlham Əliyev bu xüsusda XII Qlobal Bakı Forumunun əhəmiyyətini qeyd etdi və bu tədbirin yeni dünya düzəninin formalaşdırılması ilə bağlı vacib mövzulara həsr olunduğunu vurğuladı.

Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadimin iştirak edəcəyini bildirən İsmail Serageldin tədbirdə qlobal aktual problemlərə, bu xüsusda çoxtərəfli diplomatiya və çoxqütblü dünya, BMT-nin gələcək üçün paktı, yeni dünya düzəninin formalaşdırılması, orta güclər və onların yeni dünya düzənində rolu, postmünaqişə dövründə bərpa-quruculuq işləri və bu kimi digər vacib mövzulara həsr edilən panel və müzakirələrin keçiriləcəyini bildirdi.

Prezident İlham Əliyev 2026-cı ildə Azərbaycanın BMT-nin Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini deyərək, bu çərçivədə də ölkəmizlə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və BMT institutları arasında əməkdaşlığın əhəmiyyətinə toxundu.

Dövlətimizin başçısı Mərkəzin İdarə Heyəti üzvlərinin müxtəlif suallarını cavablandırdı.

Görüş müzakirələrlə davam etdi.

# Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.**

Migel Anxel Moratinos, ilk növbədə, BMT-nin Sivilizasiyalar Alyansının fəaliyyətinə göstərdiyi daimi dəstəyə, onun gündəliyində duran məqsəd və məramların beynəlxalq səviyyədə irəli aparılması işinə verdiyi töhfələrə görə dövlətimizin başçısına və Azərbaycan Respublikasına təşəkkürünü bildirdi.

Ölkəmizlə BMT-nin Sivilizasiyalar Alyansı arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaq Azərbaycan Respublikasının Alyans tərəfindən keçirilən tədbirlərdə fəal iştirakına toxundu, ölkəmizin Alyansa könüllü maliyyə töhfələrinin qurumun fəaliyyətinə vacib dəstək olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığını yüksək qiymətləndirdiyini təşkilatın fəaliyyətini bundan sonra da dəstəkləyəcəyini bildirdi.

Alyansın gündəliyində duran məsələlərin Azərbaycan Respublikasının siyasəti ilə tam uyğunluq təşkil etdiyini deyən Prezident İlham Əliyev ölkəmizin dünyada sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu yaxından təşviq etdiyini vurğuladı, bu baxımdan Azərbaycanın və BMT-nin Sivilizasiyalar Alyansının Bakıda keçirdikləri birgə tədbirlərin əhəmiyyətinə toxundu.

Söhbət zamanı islamofobiyanın bu gün dünyanı narahat edən vacib mövzulardan biri olduğu qeyd edilərək, bu xüsusda ölkəmizlə alyans arasında əməkdaşlıq və birgə tədbirlərin keçirilməsi məsələləri ilə bağlı müzakirələr aparıldı.

Görüşdə Azərbaycan ilə BMT, o cümlədən BMT-nin müxtəlif təşkilatları arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu.

# Dövlət başçısı BMT Cenevrə ofisinin baş direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul edib.**

Tatyana Valovaya COP29-un ölkəmizdə uğurlu təşkilinə və iqlim gündəliyi ilə əlaqədar qəbul olunmuş vacib qərarlara görə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev BMT-nin ixtisaslaşmış aidiyyəti təşkilatlarının, o cümlədən Cenevrədəki ofisinin rəhbərliyinin də COP29-da fəal təmsil olunmasını və Azərbaycanla əməkdaşlığını məmnunluqla vurğuladı.

Görüşdə Azərbaycan və BMT, həmçinin BMT-nin müxtəlif təşkilatları arasında əməkdaşlıqdan məmnunluq ifadə edildi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi tədbirlərdə BMT-nin Cenevrədəki ofisinin rəhbərliyinin və ixtisaslaşmış strukturlarının nümayəndələrinin iştirakının vacibliyi qeyd olundu.

Söhbət zamanı BMT-nin müəyyənləşdirdiyi Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycanın bu Məqsədlərin həyata keçirilməsi istiqamətində sosial, iqtisadi və digər sahələrdə yaxşı nəticələr əldə etdiyi vurğulandı. Həmçinin ölkəmizin milli səviyyədə də dayanıqlı inkişaf məqsədini müəyyənləşdirdiyi bildirildi və bunun da nümunəvi xarakter daşıdığı qeyd olundu.

Görüşdə 2026-cı ildə Azərbaycanın UN-Habitat ilə birlikdə Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi vurğulandı, bu xüsusda birgə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin İƏT-in Baş katibi ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu il Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının sammitinə ev sahibliyi edəcəyini deyərək, Əsəd Məcid Xanın ölkəmizə səfərinin Zirvə toplantısına hazırlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd etdi. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvü olduğunu vurğulayan Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz təşkilat çərçivəsində üzv dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsinə və gündəlikdə duran məsələlərin irəli aparılmasına öz töhfəsini verməyə hazırdır.

Əsəd Məcid Xan da öz növbəsində Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvü olduğunu dedi və ölkəmizin təşkilatın alt strukturlarına ev sahibliyi etməsini, gündəlikdə duran məsələlərin həyata keçirilməsi işinə daim dəstək verməsini məmnunluqla vurğuladı. Qonaq təşkilata üzv dövlətlərin tarixi, mədəni və coğrafi yaxınlığı, din və digər sahələrdə ortaq dəyərləri, bənzərlikləri bölüşdüyünü deyərək, təşkilat çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük imkanların və perspektivlərin olduğunu qeyd etdi.

Baş katib Əsəd Məcid Xan ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsi sahəsində zəngin təcrübəyə malik olduğunu, xüsusilə COP29-u uğurla keçirdiyini vurğuladı və İqtisadi Əməkdaşlıq Təşkilatının sammitinin də Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini bildirdi.

Qonaq səfər çərçivəsində XII Qlobal Bakı Forumunda iştirak edəcəyini məmnunluqla vurğuladı və bu forumun dünya miqyasında qlobal məsələlərin müzakirəsi baxımından vacib platformalardan biri olduğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Jelka Tsviyanoviç Azərbaycanda



**Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç Xll Qlobal Bakı Forumunda iştirak etmək məqsədilə martın 12-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrini xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

# Bayram Beqayın ölkəmizə işgüzar səfəri



**Albaniya Respublikasının Prezidenti Bayram Beqay Xll Qlobal Bakı Forumunda iştirak etmək məqsədilə martın 12-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda Albaniya Prezidenti Bayram Beqayı xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

# "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. doqquz ay müddətində:

2.1.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair qaydalarla bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın tərkibi və onun əsasnaməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. hava limanlarının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramlarının on iki ay müddətində hazırlanıb təsdiq edilməsinə nəzarəti təmin etsin.

**4.** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 12 mart 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli 973 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916 (Cild I) 1.1.2-ci, 1.1.3-cü və 1.1.4-cü yarımbəndlərinin birinci abzasları aşağıdakı redaksiyada verilsin:

"1.1.2. əlillik ümumi xəstəliklə, hərbi xidmət dövrü ilə, istehsalat zədəsi ilə, peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla, Çernobıl AES-də qəzanın ləğvi ilə, terror hadisəsi ilə əlaqədar səbəblərdən baş verdikdə əlilliyə görə müavinət:";

"1.1.3. əlillik Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar səbəblərdən baş verdikdə:";

"1.1.4. əlillik Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə və ya hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar səbəblərdən baş verdikdə:".

2. "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 9, maddə 1000, № 12 (II kitab), maddə 1383) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizamnaməsi" üzrə:

2.1.1. 2-ci hissə üzrə:

2.1.1.1. adından "MƏQSƏDİ VƏ" sözləri çıxarılsın;

2.1.1.2. 2.1-ci bənd ləğv edilsin;

2.1.2. 3-cü hissə üzrə:

2.1.2.1. 3.1.2-ci yarımbənddə "Nazirliyin müvafiq qurumlarının" sözləri "Nazirlik sisteminə daxil olan müvafiq qurumların" sözləri ilə, "Nazirliyin müvafiq qurumları" sözləri "Nazirlik sisteminə daxil olan müvafiq qurumlar" sözləri ilə əvəz edilsin;

2.1.2.2. 3.1.9-cu yarımbənddə "Nazirliyin aidiyyəti qurumları" sözləri "Nazirlik sisteminə daxil olan aidiyyəti qurumlar" sözləri ilə əvəz edilsin;

2.1.2.3. 3.1.13-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.13. Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;";

2.1.2.4. 3.2.20-ci yarımbənddə "fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı" sözləri "sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq," sözləri ilə əvəz edilsin;

2.1.2.5. 3.2.21-ci yarımbənddə "Nazirliyin digər qurumlarının" sözləri "Nazirlik sisteminə daxil olan digər qurumların" sözləri ilə əvəz edilsin;

2.1.3. 4-cü hissə üzrə:

2.1.3.1. 4.7.4-cü yarımbənddə "əməkhaqqı" sözü "əməyin ödənişi" sözləri ilə, "əməkhaqlarını" sözü "əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri)" sözləri ilə və "Nazirliyin digər qurumlarından" sözləri "Nazirlik sisteminə daxil olan digər qurumlardan" sözləri ilə əvəz edilsin;

2.1.3.2. 4.7.7-ci yarımbənddən "törəmə" sözü çıxarılsın;

2.1.3.3. 4.8-ci bəndin dördüncü cümləsinə "qərarlar" sözündən sonra "açıq səsvermə yolu ilə" sözləri əlavə edilsin;

2.1.3.4. 4.12-ci bənddə "iclasın" sözü ", habelə İdarə Heyətinin sədrinə və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının" sözləri ilə əvəz edilsin;

2.1.3.5. aşağıdakı məzmunda 4.12-1 – 4.12-3-cü bəndlər əlavə edilsin:

"4.12-1. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İdarə Heyətinin sədrinə göndərir.

4.12-2. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.12-3. Şuranın katibi:

4.12-3.1. Şuranın iclaslarını təşkil edir;

4.12-3.2. bu Nizamnamənin 4.12-ci bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.12-3.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.12-3.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.12-3.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.";

2.1.3.6. 4.13.1-ci yarımbəndə "rəhbərlik edir" sözlərindən sonra ", habelə özünün və İdarə Heyəti üzvlərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir" sözləri əlavə edilsin;

2.1.3.7. aşağıdakı məzmunda 4.13-1-ci bənd əlavə edilsin:

"4.13-1. Şuranın sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə Şura üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.";

2.1.3.8. 4.16-cı bəndin ikinci cümləsində "3" rəqəmi "5 (beş)" sözləri ilə, "iki üzvdən" sözləri "onun 4 (dörd) müavinindən" sözləri ilə əvəz edilsin;

2.1.3.9. 4.17-ci bənddə "üzv" sözü "müavinlərdən biri" sözləri ilə əvəz edilsin;

2.1.3.10. 4.18-ci bəndin birinci cümləsində "iki" sözü "bir" sözü ilə əvəz edilsin;

2.1.3.11. aşağıdakı məzmunda 4.20.1-1-ci yarımbənd əlavə edilsin:

"4.20.1-1. müavinləri və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır;";

2.1.3.12. 4.20.7-ci yarımbənddə "Agentliyin" sözü "özünün və Agentliyin struktur bölmələrinin" sözləri ilə əvəz edilsin;

2.1.3.13. 4.20.11-ci və 4.20.15-ci yarımbəndlərdə "əməkhaqqı" sözü "əməyin ödənişi" sözləri ilə əvəz edilsin;

2.1.4. 5-ci hissə üzrə:

2.1.4.1. adında "MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ" sözləri "MALİYYƏ FƏALİYYƏTİNİN ƏSASLARI" sözləri ilə əvəz edilsin;

2.1.4.2. aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

"5.4-1. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.";

2.1.5. 7.2-ci bənddə "uçot aparır və statistik hesabatları tərtib" sözləri "hesabatları tərtib və təqdim" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı" yeni redaksiyada verilsin (əlavə olunur);

2.3. həmin Fərmanla təsdiq edilmiş "DOST" mərkəzlərində xidmət göstərilməsi Qaydası" üzrə:

2.3.1. 3-cü hissə üzrə:

2.3.1.1. 3.2.6-cı yarımbənddə "Nazirliyin aidiyyəti qurumlarının" sözləri "Nazirlik sisteminə daxil olan aidiyyəti qurumların" sözləri ilə əvəz edilsin;

2.3.1.2. 3.4-cü bənd ləğv edilsin;

2.3.2. 4.1.6-cı yarımbənddə "Nazirliyin aidiyyəti qurumları" sözləri "Nazirlik sisteminə daxil olan aidiyyəti qurumlar" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 12 mart 2025-ci il**



## DİN-in Daxili Qoşunları dövlətçiliyin keşiyində

**Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümünü qeyd edir. Bu münasibətlə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov, Daxili Qoşunların rəhbər heyəti və hərbi qulluqçuları Fəxri xiyabana gedərək ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**





Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

Həmin gün Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində DİN-in Daxili Qoşunlarının təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla diqqətə çatdırıb.

Nazir Daxili Qoşunların qarşıya qoyulan döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməklə Müzəffər Ali Baş Komandanın əmri ilə Vətən müharibəsi zamanı və ötən il keçirilən lokal antiterror tədbirlərində hərbi qulluqçularımızın fədakarlıq göstərdiklərini qeyd edib.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, Prezidentin imzaladığı müvafiq sərəncamları ilə bir qrup hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir Vilayət Eyvazov onu da qeyd edib ki, məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, zəruri olan vasitələrlə təchiz edilib.

İşğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları ilə birgə Daxili Qoşunların hərbi qulluqçularının peşəkar xidmətini vurğulayan nazir Vilayət Eyvazov daxili işlər orqanlarının şəxsi heyətinin vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin keşiyində qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Daxili işlər nazirinin müavini- daxili qoşunlar komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edib.

Tədbirə yekun vuran nazir Vilayət Eyvazov Daxili Qoşunların qarşıda duran başlıca vəzifələrini qeyd edərək tapşırıq və tövsiyələrini verib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunaraq mükafatlar təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

***XQ***

## Milli Məclisdə görüşlər



**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Sahibə Qafarova iki ölkə arasında siyasi əlaqələrin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin xüsusi rol oynadığını diqqətə çatdırıb. O, bu səfərin ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə güclü təkan verəcəyinə inamını ifadə edib.

Söhbət zamanı qeyd olunub ki, bu gün iqtisadiyyat, ticarət, sərmayə, enerji, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə əlaqələri gücləndirmək və əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı perspektivlər mövcuddur.

Bakıda olmaqdan məmnunluğunu bildirən Şimali Makedoniya Prezidenti Azərbaycanı dost və yaxın ölkə adlandırıb. O, ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, ikitərəfli və çoxtərəfli əlaqələrə müsbət və əhəmiyyətli təsir göstərən amillərdən biri parlamentlər arasındakı qarşılıqlı əlaqələrdir. Bu baxımdan qanunverici orqanlar arasında münasibətlərin daha da genişləndirilməsinin, o cümlədən beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd edilib.

Prezident Qordana Silyanovska-Davkova Azərbaycanın zəngin mədəni irsə malik olduğunu söyləyib.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova Çinin Xarici Siyasət üzrə Xalq İnstitutunun nümayəndə heyətinin rəhbəri, Çin hökumətinin Avropa məsələləri üzrə keçmiş xüsusi nümayəndəsi Vu Honqbo ilə də görüşüb.**

Görüşdə paytaxtımızda keçiriləcək XII Qlobal Bakı Forumunun əhəmiyyəti ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemləri həll edən aparıcı beynəlxalq qurumlardan birinə çevrilib. Diqqətə çatdırılıb ki, Mərkəz yarandığı gündən qlobal ictimaiyyəti narahat edən məsələlərin müzakirə olunduğu və bu gün üzləşdiyimiz aktual problemlərin həlli yollarının axtarıldığı bir platformadır.

Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan və Çin bir çox məsələlərdə qarşılıqlı dəstək nümayiş etdirir. Ölkələrimiz arasında yüksək səviyyədə münasibətlərin qurulmasında dövlət başçılarının, qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli siyasi dialoqun xüsusi rolu var. Söhbət zamanı Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamənin önəmi vurğulanıb.

Görüşdə ölkələrimizin qanunverici orqanları arasında da münasibətlərə diqqət yönəldilərək, iki ölkənin parlamentləri arasında səmərəli əməkdaşlığın mövcud olduğu bildirilib.

Vu Honqbo XII Qlobal Bakı Forumunda iştirak etməkdən məmnunluğunu bildirərək, tədbirin yüksək səviyyədə təşkil olunduğunu söyləyib. O, Azərbaycanın ev sahibliyi ilə COP29-un uğurla təşkil olunduğunu bildirərək, Çinin də bu prosesə öz töhfəsini verdiyini qeyd edib.

***XQ***

## Şimali Makedoniya Prezidenti "Atəşgah" və Xalça Muzeyində

**Ölkəmizdə rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 12-də "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olub.**

Məbədlə tanışlıq zamanı ali qonağa bu qədim abidənin tarixi haqqında ətraflı məlumat verildi. Diqqətə çatdırıldı ki, XV-XVII əsrlərdə ticarət karvanları ilə Abşerona gələn atəşpərəst hindular Suraxanını ziyarət ediblər.

Məlumat verildi ki, 2012-ci ilin sentyabrından Heydər Əliyev Fondunun dəstəyi ilə məbədə bitişik ərazilərdə abadlıq işləri aparılıb, yardımçı binalar tikilib.

*

Həmin gün Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.

Muzeyin direktoru Əminə Məlikova ali qonağa xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verib. Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası istifadə olunan materialların, toxuma texnikalarının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Qeyd olunub ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük səyləri sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Ali qonaq, həmçinin muzeydə xalçatoxuma prosesini izləyib və xalçatoxuma təcrübəsində iştirak edib.

Sonda ali qonağa Azərbaycan Milli Xalça Muzeyinin 55 illiyinə həsr olunmuş kitab hədiyyə edilib.

***XQ***

## XİN məlumat verir

**Martın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı olub.**




Telefon danışığı zamanı Azərbaycan–İran ikitərəfli və regional münasibətlərindən irəli gələn məsələlər müzakirə olunub. Ceyhun Bayramov mövcud Azərbaycan–İran əlaqələrinin inkişafında siyasi dialoqun əhəmiyyətini vurğulayıb.

Azərbaycan ilə İran arasında enerji, nəqliyyat və investisiya sahələrində həyata keçirilən birgə layihələrin strateji əhəmiyyət daşıdığı qeyd edilib. İran ərazisindən keçən nəqliyyat dəhlizlərinin, eləcə də Azərbaycanın qərb regionları ilə Naxçıvanı birləşdirəcək infrastruktur layihələrinin region üçün yeni imkanlar yaratdığı diqqətə çatdırılıb.

Tərəflər iki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişafı məqsədilə hökumətlərarası iqtisadi komissiyanın rolunu qeyd ediblər.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

Martın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Şimali Makedoniyanın xarici işlər və xarici ticarət naziri Timko Muçunski ilə görüşüb.

Söhbət zamanı Azərbaycan və Şimali Makedoniya arasında mövcud ikitərəfli əməkdaşlıq gündəliyi, siyasi dialoqun inkişafı, iqtisadi, ticarət, enerji və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan və Şimali Makedoniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayaraq, qarşılıqlı səfərlərin və yüksəksəviyyəli təmasların əməkdaşlığın inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

İkitərəfli əməkdaşlığın inkişafı üçün yeni imkanların müəyyən edilməsinin, ticarət və investisiya sahəsində əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edilib.

Nazirlər iki ölkə arasında enerji sahəsində əməkdaşlığın perspektivlərini müzakirə edərək, Azərbaycanın enerji təchizatçısı və tranzit ölkə kimi Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni qeyd ediblər. Bu çərçivədə bərpaolunan enerji və alternativ enerji mənbələri sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi məsələləri diqqətə çatdırılıb.

Tərəflər, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Şimali Makedoniya arasında əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

Görüşdən sonra Azərbaycan Respublikası Hökuməti ilə Şimali Makedoniya Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında sazişin hər iki nazirin iştirakı ilə imzalanma mərasimi olub.

***XQ***

# Rusiya Ermənistanı bağışlayacaqmı?

*(əvvəli 1-ci səhifədə)*

Ümumən, Ermənistan hakimiyyəti son yeddi ildə Rusiyaya Qarabağ itkisindən tutmuş, onu devirmək planlarınadək qapalı və ya açıq formada ən müxtəlif ittihamlar yağdırmaqdan çəkinmədi. Üstəlik, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna qoşulma məsələsi var. Roma Statutunun ratifikasiyası o demək idi ki, sözügedən məhkəmənin Rusiya məmurları, o cümlədən Prezident Vladimir Putin barədə çıxardığı həbs qərarı Ermənistanda icra oluna bilər. Başqa sözlə desək, Putin İrəvana daxil olacağı təqdirdə həbslə üzləşməlidir. Rus hərbçilərinin paytaxtın Zvarnots hava limanından, İranla sərhəd xəttindən çıxarılması məsələsi isə ayrıca vurğulanmalıdır.

ki, müsbət ab-hava AZAL-ın təyyarəsi ilə bağlı zəruri addımların atılmasına, obyektivliyin, haqq və ədalətin qorunmasına gətirib çıxaracaq.

Bəli, Rusiya Azərbaycan Milli Məclisinin sədrini təltif edir, ancaq Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonun İrəvana səfəri təxirə salınır. Baxmayaraq ki, Ermənistan parlamenti "Avrorefendum" layihəsinin müzakirəsini dayandırıb. Doğrudur, bu dayandırmada iki aylıq müddət var. Ancaq bir çox siyasi ekspertlər bildirirlər ki, Paşinyan dünyanın anti-Rusiya direnişinin zəiflədiyini gördüyündən, Avropa İttifaqına qoşulmaqla bağlı qanun layihəsini gündəmdən salıb. Ancaq, məşhur filmdəki kimi desək, Moskva göz yaşlarına inanmır.



Hələ Gümrüdəki rus hərbi bazasının tamamilə ləğvi də nəzərdə tutulmuşdu. Ermənistan indi bu məsələ üzərinə gəlmir. Bir sözlə, rəsmi İrəvan ötən müddətdə nəinki Rusiya dövlətinə, o cümlədən, rus ictimaiyyətinə nankorluğun anatomiyasını ən dolğun çalarlarla, ən rəngarəng boyalarla anlatdı. Tam əminlikdə söyləmək mümkündür ki, ümumən, son iki yüz ildə Rusiya erməni varlığından özünə qarşı belə nalayiq münasibəti heç zaman görməmişdi. Hesab edirik ki, Kremlin düşüncə mərkəzləri bunun fərqindədirlər...

Haşiyə çıxaq ki, ötən müddətdə məhz Azərbaycan Cənubi Qafqazda Ermənistanın əli ilə oynanılan bütün məkrli planları pozdu. Həmin planların anti-Rusiya məntiqinin mövcudluğunu nəzərə alsaq, Bakının dirənişi, eyni zamanda, Moskvanın regional maraq və mənafelərinin qorunması idi. Əlbəttə, bildirdiyimiz minnət kimi qəbul edilməməlidir. Çünki ölkəmiz hər zaman özünün balanslı kursuna, bərabərtərəfli mehriban qonşuluq siyasətinə sadiqdir. Bəli, məhz bərabərtərəfli. Bu yanaşmada üstünlüyə sahib olan yoxdur, qarşılıqlı maraq doğuran məsələlərə müştərək yanaşma və böyük anlamda Rusiyanın Cənubi Qafqaza bağlılığının qəbul edilməsi amili var. Eləcə də Türkiyənin və İranın.

Ona görə rəsmi Bakı Moskva üçün ən çətin məqamda "3+3" regional məşvərət formatını irəli sürdü. Bu format Qərbin regionda aktivləşmək cəhdlərinə qarşı siyasi sipər funksiyası oldu. Bütün bunların müqabilində təyyarə olayını və mövcud xüsusda Rusiyanın bəzi hakim dairələrinin, habelə aparıcı media orqanlarının, yumşaq desək, tirajladıqları yanlışlıqları gördük.

Lakin, mövzumuz Rusiya–Ermənistan münasibətləri barədədir və güman edirik, çıxdığımız haşiyə ətrafında da Kremldə düşünənlər tapılacaq. Bəlkə tapılır da. Moskvada xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin ucaldılacağına dair xəbəri, eləcə də Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovanın Rusiyanın "Drujba" ordeni ilə təltif edilməsini pozitiv jestlər kimi qiymətləndirə bilərik. Ümid edək

Daha doğrusu, Nikola inanmaq üçün onu sınamaq istəyir. Erməni mediasının yazdığı da elə budur.

Qeyd edək ki, N.Paşinyan Ermənistanın bütün dövlət qurumlarına Rusiyanın müvafiq strukturları ilə münasibətləri istiləşdirmək, tədbirlədə iştirak etmək tapşırığı verib. Erməni ruspərəst medianın (əksəriyyəti ruspərəstdir – red.) bildirdiyinə görə isə Rusiyada Nikolun səmimiliyinə şübhə var və RF Federal Məclisinin Federasiya Şurasının sədri V.Matviyenkonun səfərinin təxirə salınması baş naziri yoxlamaq niyyətindən qaynaqlanır. Əlbəttə, daha vacib nüans rəsmi Moskvanın təmsilçilərinin Ermənistanın hazırkı hakimiyyəti ilə əməkdaşlığı necə davam etdirəcəklərini anlamaq istəmələri ilə bağlıdır.

İrəvan–Moskva ikitərəfli əlaqələrdəki gərginliyi şərtləndirən bir sıra məqamları vurğuladıq. Bu baxımdan vacib məqamlardan biri də Ermənistanın Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə münasibətlərinin perspektividir. Məsələ üzərində xüsusi dayanaraq bildirək ki, Paşinyan iqtidarının üzvləri 2022-ci ildən başlayaraq aktiv anti-KTMT xətti yürüdür və bildirirlər ki, qurum ölkənin təhlükəsizliyini qorumaq baxımından yetərli mexanizmə malik deyil.

Məlum olduğu kimi, 2022-ci ilin sentyabrında Azərbaycan–Ermənistan sərhədində hərbi eskalasiya qeydə alınmışdı. Rəsmi İrəvan hərbçilərimizin əlverişli mövqeləri ələ keçirmələrini işğalçılıq kimi qiymətləndirmişdi. Halbuki, ordumuzun məqsədi təxribat nöqtələrini susdurmaq olmuşdu, qəsbkarlıq yox.

...2022-ci ildə Ermənistan rotasiya qaydasında KTMT-yə sədrliyi həyata keçirərkən, qurumun noyabrda İrəvanda reallaşmış toplantısında Azərbaycanın işğalçı kimi qiymətləndirilməsinə cəhd göstərmiş, lakin məqsədinə çatmamışdı. Həmin vaxtdan Paşinyan və komandasının üzvləri KTMT-yə qarşı aktiv kampaniyaya start vermişdilər. Növbəti iki il ərzində bu kampaniyanın təşkilatın iclaslarını boykotdan tutmuş, qurumdan tamamilə çıxmağadək

olan bir sıra təzahürləri gündəmə gəlmişdi. Ən pisi isə budur ki, Ermənistan rəsmiləri dolayısı ilə Rusiyanın təhlükəsizlik çətirinin heç nəyə yaramadığını bildirmişdilər. Özü də son dərəcə aşağılayıcı tərzdə.

Daha bir məqam Moskvanın müstəsna rol oynadığı və Ermənistanın da üzvü olduğu Avrasiya İqtisadi İttifaqı ilə bağlıdır. Doğrudur, Nikol və tərəfdarları Aİİ-yə KTMT-yə nümayiş etdirdikləri mənfi münasibəti göstərmədilər. Axı pul şirin şeydir. Reallıq budur ki, Qərbyönümlü Ermənistanın iqtisadi inkişaf tempindəki yüksəliş Rusiyanın hesabınadır. Deməli, Moskvanın başlıca mövqe tutduğu iqtisadi platformanı sıradan çıxarmaq düzgün deyil. Həm də ona görə ki, Qərb Paşinyan hakimiyyətinin qorunması üçün əlini cibinə salmayıb. Başqa sözlə desək, ötən müddətdə Ermənistan üçün Qərb yaşam vədi Rusiyanın həyat kapitalından üstün mövqedə dayanmayıb. Bununla belə, Nikol və komandasının üzvləri arada Aİİ-yə münasibətdə də dərinə getmədən saygısız davrandılar, Qərbdəki ağalarına İrəvanın anti-Rusiya xəttinin, guya, hərtərfli, kompleks xarakter daşıdığını göstərməyə çalışdılar.

Güman edirik ki, Rusiya hazırda Ermənistanın ona yaxınlaşmaq cəhdlərini nəzərdən keçirərkən, sadaladığımız məqamları, o cümlədən, keçmişin xoşagəlməz təcrübəsindəki ayrı-ayrı fraqmentləri yetərincə nəzərdən keçirəcək. Hələlik isə bildirək ki, V.Matviyenkonun İrəvana təxirə salınmış səfərinin bu il iyunun 5-6-da gerçəkləşəcəyi bildirilir. Bunadək isə Ermənistan parlamentinin spikeri Alen Simonyanın aprelin 17-18-də Rusiyada səfərdə olacağına dair məlumatlar var. Məqsəd MDB Assambleyasının faşizm üzərində qələbənin 80 illiyinə həsr olunmuş sessiyasında iştirakdır. Eyni zamanda, Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodinin Ermənistana səfəri ilə bağlı da danışıqların aparıldığı, habelə may ayına kimi Qafanda Rusiya konsulluğunun açılacağı vurğulanır. Rəsmi İrəvan üçün ən böyük sınaq isə N.Paşinyanın mayın 9-da Qırmızı meydanda görünməsidir.

Sonda bir məqamın da üzərində dayanaq. Bildirdik ki, Azərbaycan həmişə özünün balanslı siyasətinə sadiqdir. Bunu dünyanın hər yerində, habelə Rusiyada yaxşı dərk edənlər var. Ancaq Ermənistan SSRİ-nin dağılmasından sonra Qarabağ avantürizmi naminə özünü vassal ölkə kimi təqdim edib. Ona münasibət də məhz bu baxışa əsaslanıb. Uzun illər Ermənistan Rusiyanın ona bəslədiyi kölə münasibətin mükafatını da alaraq asılılığını dərinləşdirib.

Ancaq 2018-ci ildə Ermənistanda "kölələrin inqilabı" baş verdi və onlar Rusiyadan üz çevirmək, tamamilə Qərbə yaxınlaşmaq xətti götürdülər. Bu xətt erməni avantürizmi üçün də yeni gündəm formalaşdırdı. Söhbət Moskvanın yaxın buraxılmadığı gündəmdən gedir. Əslində, Paşinyan hakimiyyəti, böyük ölçüdə, bu gün də həmin gündəminə sadiqdir. Götürək elə 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı və ümumən üçtərəfli danışıqlar formatını. Ermənistan rəhbərliyi hər şeyi inkar yolu tutub. Daha böyük inkarçılıq isə 44 günlük müharibə zamanı Rusiyanın Ermənistanı Azərbaycanın əlində qalıb məhvdən qurtarmasını danmaqdır. Sözümüz ondadır ki, hazırda Moskva–İrəvan münasibətlərinin perspektivi ilə əlaqədar çoxsaylı problemlər yığılıb. O problemlər ki, Moskvanın onların hər birini Paşinyanın başına vurması şərtdir. Çünki siyasət həyatın sərt inikasıdır və nankorluğu nəinki sevmir, heç bağışlamır da. Amma ... bu ermənidir, nə desən gözləmək olar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# USAID proqramlarının dayandırılması Avropada ciddi təşviş yaradıb



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

**Prezident Donald Tramp ABŞ-ın xaricə yönəlik xərclərinin araşdırılıb qiymətləndirilməsi üçün sərəncam verib. 2025-ci il yanvarın 24-də qüvvəyə minmiş sərəncama uyğun olaraq, qarşıdakı 90 gün ərzində ABŞ-ın bütün xarici yardım proqramlarının dondurulması məqbul sayılıb. Bu kontekstdə araşdırmalara cəlb edilən əsas subyektlərdən biri də ABŞ Beynəlxalq İnkişaf Agentliyi – USAID-dir. Rəsmi açıqlamalara əsasən, qeyd edilən sərəncam imzalanana qədər agentlik 120-yə yaxın ölkədə minlərlə humanitar yardım proqramı icra edib.**

Martın 9-da təhqiqatların ilkin nəticələri elan edilib. ABŞ Dövlət katibi Marko Rubio özünün "X" hesabında xəbər verib ki, "6 həftəlik araşdırmadan sonra USAID-in icra etdiyi proqramlarda ciddi nöqsanlar aşkar edilib, proqramların 83 faizinin rəsmən ləğv edilməsinə qərar verilib". Onun sözlərinə görə, hazırda ləğv edilən 5200 müqavilə on milyardlarla dollar məbləğində vəsaiti əhatə edir. Rubionun fikrincə, indiyədək icra edilmiş bu proqramlar ABŞ-ın əsas milli maraqlarına xidmət etməyib, bəzi hallarda isə hətta milli maraqlara ziyan vurub.

Dövlət katibi vurğulayıb ki, icrası dayandırılan müqavilələrin kəmiyyəti 83 faizdən 92 faizə qədər yüksəldilə bilər. Hələlik icrası zəruri sayılan digər 1000 proqrama nəzafət isə USAID-dən alınaraq Dövlət Departamentinə verilib.

ABŞ Beynəlxalq İnkişaf Agentliyi təqribən 50 milyard dollar məbləğində büdcəyə malik olmaqla, dünyanın ən böyük yardım təşkilatıdır. Quruluş məramnaməsində qeyd edilir ki, o, xarici ölkələrdə "mülki-humanitar yardımların çatdırılmasını, həmçinin demokratik inkişafı hədəfləyən proqramların icrasını" reallaşdıran təsisatdır. ABŞ Konqresi tərəfindən Xarici Yardım Aktı proqramı çərçivəsində təsdiqlənən layihələr USAID vasitəsilə icra edilir.

Amma təcrübə göstərir ki, USAID fəaliyyət göstərdiyi ölkələrdə mülki-humanitar kampaniyalardan, demokratik inkişafı ehtiva edən proqramlardan daha çox, bu ölkələrdə siyasi proseslərə açıq müdaxilə etməsi, çaxnaşmalar yaratması ilə məşhurdur. O, ABŞ-ın hədəfində olan ölkələrdə ictimai rəyi idarə etmək, "humanitar yardımlar" adı altında cəmiyyətlərin rəğbətini qazanmaq üçün yaradılmış bir mexanizmdir. USAID ABŞ Dövlət Departamentinin və Mərkəzi Kəşfiyyat İdarəsinin kənar cəmiyyətlərdə tapşırıqlarının icraçısı rolunda çıxış edən bir alətdir. Zərurət yarananda "humanitar yardım" proqramlarından kənara çıxır, ayrı-ayrı ölkələrdə siyasi kataklizmlər törədir, hakimiyyət çevrilişlərinə dəstək verir, xaos və dağıntılar törədir. Müasir terminologiya ilə ifadə etsək, USAID ABŞ-ın "yumşaq güc" texnologiyasıdır, onun ekspansiya siyasətini icra edən əsas təsisatdır. Təşkilatın saytında da qeyd edilir ki, o, "Dövlət Departamenti və Mərkəzi Kəşfiyyat İdarəsi ilə koordinasiya edilmiş formada fəaliyyət göstərir".

Maraqlıdır, nə oldu ki, ABŞ Prezidenti bu cür mötəbər bir qurumun bağlanmasına qərar verdi? Dünya mediası yaxın 2 ay müddətində bu suala cavab axtarır. Versiyalar çoxdur. Ötəri ehtimallar üzərində qurulanlar da az deyil. Amma sırada rasional görünənlər də var. Məsələn, qeyd olunur ki, USAID rəhbərliyi bəzi hallarda sayıqlığı itirib, xarici hədəfləri unudaraq, daxili siyasətə girişib. Demokratların Respublikaçılar üzərində qələbəsi üçün çalışıb. Konkret desək, Donald Trampın seçkilərdə məğlub edilməsi üçün vəsait xərcləyib. Belə ki, Nyu-Yorkun meri və prezident D.Trampın kibertəhlükəsizlik üzrə keçmiş müşaviri R.Culianiyə qarşı kompromatın tapılması üçün OCCRP-yə 20 mln dollar qonorar verib.

USAID-nin yanlışları təkcə daxili siyasətə baş qoşub kompromat savaşına girişməsi ilə bitmir. O, xarici siyasət kursunda da ciddi qüsurlara yol verib. Xarici ölkələrdə "humanitar yardım" proqramları icra etmək, bu yolla həmin cəmiyyətlərdə ABŞ-a rəğbət formalaşdırmaq əvəzinə, özünün kobud, yanlış siyasəti və davranışları ilə bəzən dost ölkələri də narazı salıb, rəqibə çevirib. Bu fakt Dövlət katibi Marko Rubionun iki gün öncə verdiyi açıqlamalarda da öz əksini tapıb.

Müşahidə olunur ki, ABŞ Demokratlar Partiyası qlobal səviyyədə ictimai rəyi nəzarətdə saxlamaq, zəruri anda informasiya təxribatları törətmək məqsədilə çoxpilləli struktur formalaşdırıb. Bu struktura ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən, ən müxtəlif istiqamətləri – siyasi prosesləri, sosial araşdırmaları, təhsil, media, insan haqları və digər sahələri əhatə edən QHT, fond, mərkəz, media subyektləri daxildir. Həmin subyektlərin ələ keçirilib Demokrat Partiyasının təsir dairəsinə salınmasında, maliyyələşdirilməsində, şirnikləşdirilib ələ keçirilməsində USAID xüsusi rol oynayıb. Bir sözlə, USAID ABŞ-ın milli maraqlarından daha çox, Demokratlar Partiyasının maraqlarına xidmət edib.

USAID üzərində yoxlamaların aparılması, proqramların dondurulması agentliyin əməkdaşları ilə yanaşı, Avropa instututlarını da rahatsız edib. Açıqlamalardan bəlli olur ki, Avropa təsisatları üzərindən ayrı-ayrı ölkələrdə "müstəqil və tənqidçi" media subyektlərinin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlərin arxasında USAID dayanıb. Avropa jurnalist təşkilatlarının açıqlamalarında qeyd edilir ki, "son yoxlamalar 30-dan çox ölkədə müstəqil və tənqidçi medianın maliyyələşdirilməsi müstəvisində problemlər yaradıb". Xüsusilə, Ukrayna mediasının, o cümlədən, mühacirətdə olan Belarus və rusiyalı jurnalistlərin maliyyələşdirilməsini imkansız edib. Avropa media təsisatlarının Avropa donor instututlarına ünvanladıqları müraciətdə qeyd edilir ki, USAID-in bağlanması ilə yaranmış maliyyə boşluğunu aradan qaldırmaq məqsədilə təcili tətdbirlər görsünlər.

# Qərəzli qərar sərt reaksiya doğurur

*(əvvəli 1-ci səhifədə)*

Korrupsiya qalmaqallarında adı dəfələrlə hallanan Avropa Parlamentinin yenidən hay "eskizləri" ilə işlənib hazırlanmış və erməni diasporu tərəfindən səxavətlə maliyyələşdirilən qərəzli qətnamə qəbul edəcəyi təəccüblü deyil. Bu qurumda "Azərbaycandakı erməni məhbusları" dəstəkləyən təcili qətnamənin qəbulu ilə bağlı müzakirələr keçən aydan başlayıb. Bu mövzu ermənilərə lobbiçilik edən müəyyən qrup deputatlar tərəfindən getdikcə daha çox tirajlanır. Əsas təşəbbüskar AP-nin Kiprdən olan üzvü, ermənipərəst fikirləri ilə tanınan Kostas Mavridisdir. O, "Alpha News"a müsahibəsində parlamentin "Azərbaycandakı erməni məhbusların dərhal azad edilməsini tələb edən" qətnaməyə mart ayında baxılmasını təklif etmişdi. Əvvəllər də bu deputat özünü haypərəst ruhunda dəfələrlə ifadə edib. Hələ 2016-cı ilin aprelində Strasburqda AP-nin plenar iclasındakı çıxışında qondarma "dqr"in "müstəqilliyinin" tanınmasını dəstəkləmiş, sərhəd insidentlərinin araşdırılması mexanizmlərinin işlənib hazırlanması çağırışını etmişdi. O, "erməni tərəfinin bu mexanizmlərlə razılaşdığını, Azərbaycan isə razı olmadığını" iddia edərək, Ermənistanın mövqeyini birtərəfli qaydada dəstəkləmişdi.

Anti–Azərbaycan bəyanatların bir çoxunun arxasında hüquqi prinsiplərin deyil, maliyyə maraqlarının dayandığı şübhəsizdir. Bəzi avroparlamentarilərin erməni oliqarxların pul kisəsinin üstündə "oturduqları" da məlumdur.

Beləliklə, Avropa Parlamentinin Azərbaycanı dünya ictimaiyyətinə mənfi tərəfdən təqdim etmək məqsədilə, həmişə olduğu kimi, ədalətin və hüququn ziyanına, böyük ehtimalla Ermənistanın xeyrinə olan qətnaməyə səs verəcəklər.

Avropa Parlamenti Aİ daxilində öz mövqeyini getdikcə itirir. Bunun əsas səbəbi böyük korrupsiya qalmaqallarıdır. Ən səs-küylü epizodlardan biri 2022-ci ilin dekabrında Belçika hakimiyyətinin Aİ strukturlarında irimiqyaslı rüşvət sxemi ilə bağlı araşdırma çərçivəsində genişmiqyaslı axtarışlar apararaq 1,5 milyon avro nağd pul müsadirə etməsi oldu. Həmin qalmaqalın "episentrində" erməni lobbisinə simpatiyaları ilə tanınan simalar dururdu. Bunlar – Yunanıstan parlamentinin deputatı Yeva Kiley, keçmiş italiyalı deputat Pier Antonio Panzeri, parlament sədrinin köməkçisi Françesko Giorgi və QHT rəhbəri Nikolo Fiqa-Talamanka idi. Onların hamısı Fars körfəzi ölkələrindən birindən Avroparlamentin iqtisadi və siyasi qərarlarına təsir göstərmək müqabilində külli miqdarda rüşvət almaqda ittiham olundular. Bu, Avropa Parlamentinin nüfuzunun nə qədər ləkələndiyini göstərən nümunələrdən biridir.

İndi Brüsseldə haylara qucaq açanlara demək istərdik ki, Azərbaycanın daxili işlərinə qarışmağa cəhd etməzdən əvvəl öz sıralarını təmizləməyə başlasınlar. Bundan əlavə, başqa bir qərəzli və siyasiləşdirilmiş qətnaməyə səs verməzdən əvvəl avroparlamentarilər müttəhimlərin Bakıda verdiyi ifadələrlə tanış olsunlar. Ən azı, təqsirləndirilən şəxs L.Mnatsakanyanın Ermənistanın nizami ordusunun tərkibində Azərbaycana qarşı müharibədə iştirak etdiyi, 2016-cı ilin aprelində separatçılara silahın İrəvandan göndərildiyi barədə etiraflarını eşitsinlər. A.Arutyunyan isə ifadəsində Azərbaycan ərazisinə hücumların təşkili ilə bağlı qərarların İrəvanda verildiyini bildirib. O, qondarma "Qarabağ müdafiə ordusu"nun Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinə tabe olduğunu təsdiqləyib. Bu etiraflar Qarabağdakı separatçı rejimin "müstəqillik" rəvayətini tamamilə təkzib edir və Ermənistanın Azərbaycana birbaşa hərbi təcavüzündən xəbər verir.



Bu faktlar AP-nin məsələ ilə bağlı qəbul edəcəyi istənilən qətnamənin legitimliyini şübhə altına alır. Ekspertlərin "xristian klubu" adlandırdıqları Avropa İttifaqında, onun Avropa Parlamentində postsovet məkanındakı müstəqil respublikalara yuxarıdan-aşağı baxılmasının bir səbəbi yəqin bu amillə bağlıdır. Bakı bu dini ayrı-seçkiliyi Brüsselin haylara xüsusi rəğbətinin nümunəsində çox görüb. Avropa Parlamentinin Azərbaycanı təcavüzkar tərəf kimi qələmə vermək cəhdlərinin heç bir əsası yoxdur və əvvəlcədən uğursuzluğa məhkumdur. Əgər təhrif olunmuş faktlar və siyasi lobbiçilik üzərində qurulmuş daha bir qətnamə qəbul olunarsa, buna Bakının reaksiyası sərt olacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Haysayağı “ruletka”?

## Ermənistanın hərbi eskalasiya meyilləri aşkar hiss olunur

**Hayastanın mövcud siyasi panoramı ondan xəbər verir ki, rəsmi İrəvanın müxtəlif bəhanələrlə sülh müqaviləsinin imzalanmasını gecikdirməsi daşnak-revanşistləri fəallaşmağa, üstəlik, cəmiyyəti Azərbaycanla yeni müharibə çağırışları etməyə “ilhamlandırıb”. Bu cür avantürist meyillərin tirajlanmasına rəvac verənlər Cənubi Qafqazda bayraqlarını sancmaq planlarından əl çəkməyən haypərəst “kollektiv Qərb”, daşnak-revanşistləri yemləyən erməni lobbisi, eləcə də daxildə Paşinyana müxalif düşərgənin təmsilçiləridir. Müharibə ritorikasına kənardan “züy tutanlardan” biri də Ermənistanın sabiq baş diplomatı Vardan Oskanyandır.**





### Oskanyan yenə “meydan sulayır”

Son vaxtlar revanş xəyalı ilə yaşayan bu qüvvələrin Avropanın müxtəlif paytaxtlarından aldıqları təlimatlar əsasında hərəkətə keçdikləri şübhə doğurmur. Rəsmi İrəvan hələlik ona müxalif düşərgənin getdikcə güclənən müharibə ritorikasına reaksiya verməyib. Baş nazir Nikol Paşinyana hərdən “məsləhətlər” verməyə girişən V.Oskanyanın “artsax xalqının əsas hüquqlarının müdafiəsi üzrə komissiyanın” iclası ilə bağlı yaydığı məlumatda bir neçə məqam diqqəti çəkir. Birinci məqam odur ki, 2023-cü ilin sentyabrında Xankəndidəki separatçı rejimin sonuncu “prezidenti” Samvel Şahramanyan qondarma “artsax” və onun oyuncaq strukturlarının ləğvini elan etsə də, onlar “fəaliyyətlərini” davam etdirirlər. Oskanyan qeyd edir ki, “komissiya öz səylərini “artsaxın məcburi köçkün” əhalisinin təhlükəsiz, kollektiv surətdə və ləyaqətlə qayıtmasının təmin edilməsinə, Bakı həbsxanalarında qanunsuz saxlanılan erməni girovlarının azad edilməsinə” yönəldib. Vardan onu da iddia edir ki, guya, ATƏT-in Minsk qrupunun üç həmsədr ölkəsi – ABŞ, Rusiya və Fransa “ermənilərin geri qayıtmaq hüququnu açıq şəkildə dəstəkləyiblər”. Bu açıqlaması ilə, o, əslində, ermənipərəst qüvvələrin Azərbaycana qarşı beynəlxalq miqyasda hazırladıqları təxribat planlarını faş edib. Oskanyanın sözlərinə görə, “bu yaxınlarda İsveçrə Milli Şurası Artsax və Azərbaycan nümayəndələrinin dialoq apara biləcəyi platformanın yaradılması təklifini qəbul edib”. Bu günə qədər əldə edilən nailiyyətlərə əsaslanaraq, komissiyanın işinin həlledici mərhələyə qədəm qoyduğunu deyən eks-nazır yaxın aylarda Vaşinqton, Brüssel, Cenevrə və digər şəhərlərdə təşkil olunan tədbirlərdə iştirak edəcəyini, vasitəçilik prosesi üçün zəruri olan diplomatik atmosferin yaradılmasına yönəlmiş yüksək səviyyəli görüşlər keçirəcəyini də bildirib.

Bir mərkəzdən idarə olunduğu şübhə doğurmayan anti–Azərbaycan hay “çete”sinin məqsədi sülh danışıqlarında Bakını güzəştlərə getməyə məcbur etməkdir. Böyük ehtimalla müharibə ritorikasının güclənməsi də bu məqsədə xidmət edir. Amma Cənubi Qafqazı yenidən “barıt çəlləyi”nə çevirmək istəyənlərin bu istəklərində heç də qeyri-ciddi olduqlarını söyləməyə əsasımız yoxdur.

### “Barıt çəlləyi”nin fitilinə kim yaxınlaşacaq?

Rəsmi İrəvanın revanşist əhval-ruhiyyə ilə dolu ritorikası, intensiv silahlanma ilə bağlı son hərəkətləri onu göstərir ki, bölgədə hayların təhrik etdiyi yeni hərbi qarşıdurma yetişmək üzrədir. Maraqlıdır ki, Ermənistan müharibəyə hazırlaşdığını da gizlətmir. Bunun əyani sübutu kimi ötən həftə hökumətin iclasında aprelin 1-dən iyunun 13-dək ehtiyatda olan hərbçilərin təlimlərə çağırılması barədə qərarın verilməsini göstərə bilərik. Toplanışlar on həftə davam edəcək ki, bu da standart təlim müddətini əhəmiyyətli dərəcədə üstələyir.

Bəli, Ermənistan hakimiyyətinin beynəlxalq ictimaiyyətə Azərbaycanla sülhə hazır olduğu barədə pafoslu bəyanatlarına baxmayaraq, onun fəal şəkildə yeni müharibəyə hazırlaşmasının konturları göz qabağındadır. Yerli nəşrin mötəbər mənbələrə istinadla yaydığı məlumata görə, Ermənistan aprel ayında müharibəyə başlamağı planlaşdırır. Yəni, alınan məlumatlar şərti sərhəddə qəsdən təxribatçı hərəkətlərin törədiləcəyindən xəbər verir. Bu isə yeni hərbi qarşıdurma təhlükəsini reallığa çevirə bilər. Nəşr Ermənistanın şərti sərhəddəki yaşayış məntəqələrinin ildırım sürətilə işğalını nəzərdə tutduğunu da qeyd edib.

Eskalasiya prosesində xüsusi rolu rəsmi olaraq “müşahidə missiyası” kimi təqdim edilən Avropa İttifaqının Ermənistandakı kəşfiyyatçıları oynayır. Kənardan gətirilən bu legionun fəaliyyətinin xarakteri müəyyən qənaətlərə gəlməyimizə zəmin yaradır. Aİ missiyası, faktiki olaraq, mümkün toqquşma zonalarında kəşfiyyat işləri aparır. Avropalı “binokllu diplomatlar” planlı şəkildə şərti sərhəd boyu əraziləri müşahidə edir, vuracaqları “nöqtələri” müəyyənləşdirir, Azərbaycan Ordusunun mövqelərini təhlil edirlər. Faktiki olaraq, monitorinq adı altında Ermənistan hərbi komandanlığına məlumat ötürən missionerlərin son vaxtlar daha da aktivləşməsinin Ermənistanın sürətlə silahlandırılması ilə üst-üstə düşməsi təsadüfi deyil.

**Mövzu ilə bağlı XQ-yə danışan Qafqaz Tarixi Mərkəzinin direktoru, siyasi analitik, hərbi ekspert Rizvan Hüseynov hesab edir ki, İrəvan, həqiqətən də, vəziyyəti təhlükəli həddə çatdırıb:** “Ermənistan istəsə də, istəməsə də, xaricdəki havadarlarının onu Azərbaycana qarşı hərbi təxribata hazırladıqları məlumdur. Bu məsələdə bölgədə maraqları olan, ölkəmizə düşmən kəsilən bəzi güclərin



adını çəkə bilərik. Avropadan Fransanı, Asiyadan Hindistanı və digərlərini göstərə bilərik. Bəli, onlar Azərbaycanı provakasiyaya çəkməyə çalışırlar. İki ölkə arasında hələlik şərti sərhəd mövcuddur və burada kimin hara nəzarət etdiyini, insident baş verərsə, beynəlxalq hüquqa görə hansı tərəfin haqlı olduğunu müəyyənləşdirmək çətindir. Ermənitan tərəfi məhz bu amilə istinad etmək barədə düşünür. İrəvanı buna təhrik edənlər də bundan yararlanaraq, şərti sərhəddə hansısa hərbi əməliyyatı keçirməyə çalışacaqlar.

Əgər belə bir situasiya yaranarsa, Azərbaycan Ordusu Ermənistan qüvvələrini yenə darmadağın edəcək. Yəni, dediyimiz amildən Azərbaycana qarşı hərəkət üçün bir bəhanə kimi istifadə olunacağı istisna deyil.

Erməniperəst qüvvələr bundan Azərbaycana təzyiq mexanizmi kimi istifadəyə ümid edirlər. Əgər bu baş verərsə, kimin birinci hücuma keçdiyini sübut eləmək çətin olacaq. Hayların xaricdəki dəstəkçiləri, “binokllu” missionerlər, siyasi qruplar nəzarətlərində olan KİV vasitələrilə informasiyanı elə yayacaqlar ki, guya, hücum edən tərəf Azərbaycandır. Halbuki, təxribatı Ermənistanın edəcəyinə şübhə qalmayacaq. Ona görə bu məsələyə təkcə hərbi yöndən baxmaq lazım deyil. Yəqin ki, o halda rəsmi Bakı bütün variantları nəzərə alaraq, həm Azərbaycan, həm Türkiyə, eləcə də bizə tərəfdaş ölkələr hər cür hərəkət etməyə hazır olacaqlar”.

### “Barbarossa” planı öz başlarında çatlayacaq

Yerli ekspertlərin qənaətincə, yeni hərbi təxribata hazırlaşan Ermənistan bölgədə mövcud reallığı dəyişdirməyə, sonra bunu baş vermiş fakt kimi təqdim etməyə çalışır. İrəvanın planı ondan ibarətdir ki, şərti sərhəddə vəziyyət qəfil dəyişir, ildırımsürətli əməliyyat Azərbaycanı “fakt” qarşısında qoyur. Yəni, haylar özlərinə məxsus “barbarossa” əməliyyatı hazırlayıblar. Bu zaman Bakı təcavüzə deyil, onun nəticələrinə reaksiya verməyə məcbur olacaq. Amma belə məkrli planı həyata keçirmək üçün ciddi resurslar lazımdır. Doğrudur, son iki ildə Ermənistan Fransa və Hindistandan silah almağa milyardlarla dollar xərcləyib. Bu məsələdə Aİ də öz rolunu oynayır. Xüsusilə Avropa Sülh Fondu vasitəsilə ayrılan maliyyə yardımları birbaşa və ya dolayı yolla Ermənistanın hərbiləşdirilməsinə sərf edilir. Bu, misli görünməmiş silahlanma səviyyəsidir və bunun Ermənistanın “müdafiə strategiyası” ilə heç bir əlaqəsi yoxdur. Görünən odur ki, Ermənistan təcavüzə hazırlaşır. Sadaladığımız faktlar Hayastanın kənardan dəstəyin hesabına vahid strateji plan hazırladığını göstərir. Aydın məsələdir ki, mövcud vəziyyətdə şərti sərhəddə mümkün hərbi əməliyyatların başlanmasının bütün məsuliyyəti Ermənistanın və onun himayədarlarının üzərinə düşəcək. Azərbaycan dəfələrlə sülh dialoquna hazır olduğunu nümayiş etdirib, amma güc tətbiqi ilə bağlı istənilən ssenarini də qətiyyətlə dəf edəcək. Azərbaycan öz ərazi bütövlüyünü, vətəndaşlarının təhlükəsizliyini qorumaq üçün kifayət qədər imkanlara malikdir.

### Ermənistanın hansısa ölkəyə təcavüz niyyəti yoxdurmu?

“Ermənistan özünün müdafiə imkanlarını modernləşdirmək, bütövlükdə müdafiə sistemini yeniləmək niyyətindədir. Burada təkcə Hindistandan deyil, başqa yerlərdən də gətirilən texnika daha yaxşı müdafiə qabiliyyətinə malik orduya malik olmağa yönəlib. Ermənistanın heç bir üçüncü ölkəyə təcavüz etmək niyyəti yoxdur”. “Armenpress”in yaydığı məlumatına görə, bunu Hindistanın “WION” nəşrinə müsahibəsində Hayastanın baş diplomatı Ararat Mirzoyan deyib. Ölkəsinin Hindistanla hərbi sahədə sıx əməkdaşlıq etdiyini gizlətməyən Mirzoyan bu əməkdaşlığın daha da dərinləşəcəyinə inandığını vurğulayıb. “Amma bir daha qeyd etmək istərdim ki, bu əməkdaşlıq və xüsusən də Hindistanda istehsal olunan və Ermənistan tərəfindən alınan müəyyən hərbi avadanlıqlar hansısa ölkəyə qarşı istifadə olunmaq üçün nəzərdə tutulmayıb”, – deyən A.Mirzoyan bu zaman Ermənistanın “sülhsevər gündəliyə” malik olduğunu önə çəkib.

A.Mirzoyanın müsahibəsində ölkəsinin qonşulara təcavüzə hazırlaşmadığını üçüncü dəfə təkrarlaması diqqətdən yayınmayıb: “İrəvan özünün Şərq qonşusu ilə ikitərəfli danışıqları aparır, ümumiyyətlə, bölgədə sülh və sabitliyin bərqərar olmasına, qonşuları ilə münasibətlərin normallaşmasına diqqət yetirir. Bəzi spesifik sahələrdə Hindistanın təcrübəsi, eləcə də orada istehsal olunan hərbi avadanlıqlar bizim üçün maraqlıdır. Amma Ermənistanın bu sistemlərdən heç bir tərəfə qarşı istifadə etmək niyyəti yoxdur”.

Hayların baş diplomatının məntiqindən belə çıxır ki, İrəvan Bakı ilə müharibə partiyasına deyil, “ruletka” oynamağa hazırlaşır. İrəvan isteblişmentinin sözdə bir cür, əməldə ayrı cür davranmasının az şahidi olmamışıq. Bu mənada bizim üçün Mirzoyanın “sülhpərvər” açıqlamasının inandırıcılıq əmsalı sıfıra bərabərdir.

### Geri dönüşün “hüquqi şlaqbaumu”

Rəsmi İrəvanın təşkil etdiyi müharibə ritorikasını səsləndirənlərlə yanaşı, ermənilərin Qarabağa qayıdışı məsələsini də gündəmdə saxlamağa çalışanların bağırtılarını eşitməkdəyik. Hayların “qayıdış hüququ” ilə bağlı qaldırılan hay-küy bir məqsəd daşıyır: bu “tezisi” gündəmdə saxlamaqla “böyük gücləri”, beynəlxalq təşkilatları Azərbaycana təzyiq xarakterli addımlara sövq etmək. İntəhası, beynəlxalq hüquq baxımından bu təşəbbüslərin heç bir perspektivi yoxdur. Ermənilərin Qarabağa “geri qayıdışı” ilə bağlı siyasi şouları intensivləşdirmənin səbəblərindən biri də Bakıda davam edən məlum məhkəmə prosesi ilə bağlıdır. Bu, hayların geri dönüşünün qarşısına endirilən “hüquqi şlaqbaum”-dur. Çünki hazırda Azərbaycanın ədalət məhkəməsi qarşısında dayanan təqsirləndirilən şəxslərin səsləndirdikləri fikirlər, həmçinin bundan sonra dilə gətirəcəkləri etiraflar Ermənistanın sabiq və indiki siyasi rəhbərliyi ilə yanaşı, işğala dəstək verən bütün ölkə və təsisatların rəhbərlərini də narahat edir. Məhkəmə prosesində onların müttəhimlərlə işbirliyində olduqları barədə faktlar açıqlanmaqdadır. Rəsmi Bakının Qərbi azərbaycanlıların öz yurdlarına ləyaqətli qayıdışının təmin olunması tələbi Ermənistanı naqolay vəziyyətə salıb. Bir müddət öncə Asiya Parlament Assambleyasının Bakı Bəyannaməsində Qərbi azərbaycanlıların haqlarının bərpası ilə bağlı müddəanın əksini tapması, Milli Məclisdə keçirilən dinləmələr, eləcə də icmanın digər təşəbbüsləri daşnak-revanşistləri “əks-arqument”lər gətirməyə məcbur edib. Belə avantürist iddiaların heç bir fayda gətirməyəcəyini özləri də yaxşı bilirlər. İndi məhkəmə qarşısında ifadə verən təqsirləndirilən şəxslər – separatçı liderlər Qarabağda cəmi 30 minədək erməninin yaşadığını, onların da əksəriyyətinin öz xoşları ilə bölgəni tərk edərək Rusiyaya, Avropaya köçdüyünü bildirirlər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Bakı mühakiməsi erməniləri niyə qorxuya salıb?

**Ermənistan parlamentinin deputatı Tiqran Abramyan Bakıda keçirilən məhkəmə prosesindən həm Ermənistan ictimaiyyətinə, həm də beynəlxalq auditoriyaya çox təhlükəli təbliğat xarakterli mesajlar ötürüldüyünü bildirib. O deyib ki, “Bakıdan gələn məlumatlara diqqətlə yanaşmaq lazımdır. Çünki bu məlumatlar olduğu kimi Ermənistan informasiya meydanında da dövr edir və sonradan hansı təhlükələrə yol açacağı bütün riskləri ilə dərk olunmur”.**

T.Abramyan qeyd edir ki, vəziyyət bizim üçün son dərəcə təhlükəlidir, xüsusən ona görə ki, Ermənistan rəhbərliyi informasiya təhlükəsizliyinin təmin edilməsi funksiyasını tamamilə iflasa uğradıb. Erməni cəmiyyəti son dərəcə həssas vəziyyətə düşüb.

Qeyd edək ki, yanvarın 17-də Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma “Dağlıq Qarabağ Respublikası” və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana və xalqımıza qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə prosesi başlayıb. Proses Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində aparılır.

Bu proses Ermənistanın işğalçı, təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və digər qanunsuz əməllərinin məhkəmə yolu ilə təsbit olunmasına xidmət edir.

Xatırladaq ki, Ermənistan və onun silahlı qüvvələri, o cümlədən qanunsuz "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər müxtəlif maddələrlə ittiham olunurlar.

Məhkəmə prosesində erməniləri narahat edən nədir? Bakı erməni ictimaiyyətinə hansı "təhlükəli" xəbərləri çatdırır? Prosesin gedişində təqsirləndirilən şəxslər etdikləri əməlləri özləri də etiraf edirlər. Törətdikləri cinayətlərin bir izi Ermənistana rəhbərlik etmiş şəxslərə gedib çıxır. Yəni, Azərbaycan tərəfinin qeyd etdiyi kimi, cinayət işində olan sübutlar tarixi faktlara əsaslanır. Göstərir ki, törədilmiş cinayətlər ayrı-ayrı təsadüfi hadisələr olmayıb, ən yüksək səviyyədə mütəşəkkil qaydada planlaşdırılaraq amansızlıqla törədilib. Bütün bu cinayətlər Ermənistan dövlətinin siyasi, hərbi, maddi və digər dəstəyi, siyasi-hərbi rəhbərliyinin verdiyi göstəriş və təlimatlar nəticəsində törədilib.

Bu həqiqətləri eşitmək T.Abramyan kimi erməni millətçilərini narahat edir. **Mövzu ilə bağlı Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin sədri Xəyal Başirov** XQ-yə açıqlamasında bildirdi ki, erməni deputat Tiqran Abramyanın dediyi o fikirlər cəfəngiyyatdır: “Çünki burada bir erməni yanaşması ortaya qoyulur. Bu nə ilə bağlıdır? Qabaqlamaq və məsələnin əsas mahiyyətini bir kənara qoyub, onun öz dili ilə desək, həm Ermənistan ictimaiyyətini, həm də beynəlxalq ictimaiyyəti aldatmağa



hesablanmış növbəti bir addımdır. Baxın, bu adam proses haqqında danışır. Həmin o proses ədalətin bərqərar olması istiqamətində Azərbaycan tərəfinin atdığı addımdır. Bu prosesin mahiyyətini bir kənara qoyub, mühakimə olunan şəxslərin özlərinin şəxsiyyətlərinin təkcə Azərbaycan cəmiyyəti üçün deyil, eyni zamanda Ermənistan cəmiyyəti, ümumilikdə insanlıq üçün təhlükəli məqamlarını, onların törətdiyi o ağır cinayətləri, Xocalı faciəsi, Daşaltı, Başlıbel, Ballıqaya və digər tükürpədən cinayətləri kənara qoyub, Azərbaycanın atdığı addımları “cəmiyyət üçün təhlükəli” adlandırır. Yəni, bu, səsləndirilən fikirlərin mənasızlığından xəbər verir. Ermənistan cəmiyyəti üçün bu informasiyaların, Azərbaycan tərəfinin yaydığı o məqamların təhlükəli olduğunu bildirir. Bu məlumatlar Ermənistan dövlətinin atdığı addımları, onu idarə edən şəxslərin cinayətlərini ifşa edir. Bəli, həmin şəxslər bunu məhkəmədə etiraflar edirlər. O, etiraflar cinayətlərin izlərinin bir ucunu aparıb çıxarır Ermənistana rəhbərlik edən əvvəlki o şəxslərə – Robert Köçəryana, Serjik Sarkisyana, Seyran Ohanyan və komandada təmsil olunan digərlərinə. Eyni zamanda cinayətin bir izi də indiki hakimiyyətə gedib çıxır. Görünür, Ermənistanın hazırkı milli məclisində təmsil olunan Tiqran Abramyan həmin o cinayətlərin izlərinin gedib çıxdığı şəxslərdən biridir, ya da ona yaxın olanlara aiddir”.

Ekspert hesab edir ki, Azərbaycan dövləti, sadəcə, ədalət mühakiməsi ilə bağlı prosesləri işıqlandırır, prosesdə baş verənləri diqqətə çatdırır: “Əgər biz bunu gizli aparsaydıq, bu məlumatları yaymasaydıq, o halda Tiqran Abramyan və digərləri Azərbaycanın bu məhkəməni pərdə arxasında tezbazar keçirilən məhkəmə prosesi kimi qələmə verərdilər. Bakı prosesdə beynəlxalq ictimai fəalların, jurnalistlərin, hüquq müdafiəçilərinin iştirakını təmin etməyə çalışır. Bütün dünyada mövcud olan müasir təcrübəni tətbiq edir. Təqsirləndirilən şəxslər hansı cinayətlərdə ittiham olunurlar? Sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və Azərbaycan ərazilərinə qanunsuz olaraq daxil olmaq və bir sıra digər cinayətlərə görə. Həmin cinayətlərin törədilməsi təkcə Azərbaycanda deyil, dünyanın istənilən nöqtəsində, o cümlədən Ermənistanın özündə yerli qanunlarla qadağan edilir və cinayət hesab olunur. Biz bu Bakı prosesini işıqlandırmasaq, təbii ki, onun nədən ibarət olması şübhə altına alınar.

Məhkəmə prosesinin şəffaf şəkildə işıqlandırılması, əslində, sosial sifarişdir. Eyni zamanda, hüquqi dövlətlərin, cəmiyyətlərin maraqlarına uyğundur. Deməli, Ermənistan tərəfi bunu bu şəkildə qələmə verməklə bir daha özünün çirkin siyasətini ortaya qoymuş olur. T.Abramyan erməni deputatı olaraq, Azərbaycanın atdığı bu addımları təhlükəli hesab etmək əvəzinə, həmin şəxslərin təhlükəli olduğunu diqqətə çatdırmalıdır. Onlarla birlikdə cinayət törətmiş R.Koçaryan, S.Sarkisyan, S.Ohanyan, eləcə də antiterror əməliyyatı zamanı Azərbaycan ərazisindən qaçmış digər şəxslərin məsuliyyətə cəlb edilməməsini təhlükəli hesab etməlidir. Uzun illər ərzində keçmiş Qarabağ münaqişəsi ilə bağlı informasiya blokadası yaratmışdılar. Bu blokadanı 44 günlük Vətən müharibəsində yardıq. Ondan sonra siyasi və diplomatik informasiya müstəvisində bu addımları atırıq”.

Xatırladaq ki, təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının mülki infrastrukturuna, iqtisadiyyatına, ekologiyasına, müdafiə arsenalına və digər sahələr üzrə ölkəmizə 100 milyard manatdan artıq maddi ziyan vurulub. 1988-2024-cü illər ərzində 3493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb, 4435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

***Azər MUSTAFAYEV***

# XXI əsrin yeni geosiyasi çağırışları və Azərbaycan



IV MƏQALƏ

## *Postmüharibə mərhələsində geosiyasi çağırışlar*

Belə bir təsnifi regional və qlobal səviyyələrin qarşılıqlı əlaqəsində təyin etmək olar. Çünki, sözün həqiqi mənasında, Azəbaycanın II Qarabağ müharibəsində əldə etdiyi qələbə regional və qlobal miqyasda "çox daşları tərpətdi".

Bu tezisin geosiyasi anlamı bəsit deyildir. Söhbət kompleks şəkildə regional miqyasla qlobal miqyasda geosiyasi dinamikanın elə yeniləşməsindən gedir ki, əsrlərdir özlərini güclü hesab edən qüvvələri bir-birinə qarışdırmışdır. Obrazlı desək, onlar bir-birinə baxıb çiyinlərini çəkdilər: "Nə baş verir?".

Bu reaksiya iki məqamı ifadə edirdi. Birincisi, Azərbaycan Respublikası başda Prezident olmaqla, regonda inqilabi geosiyasi dəyişiklik etmişdir.

İkincisi, bu dəyişiklik çoxlarının ənənəvi istismarçı və pozucu şüuruna elə təsir etmişdi ki, istənilən yolla regionu yenidən qan gölünə çevirməyə hazır idilər. Bu da avtomatik olaraq regional miqyasda riskləri, təhdidləri artırır və faktiki olaraq yeni çağırışları ifadə edirdi.

Müasir mərhələdə Cənubi Qafqazda heç zaman belə bir mənzərə yaranmamışdı. Belə ki, keçən əsrin əvvəllərində Cənubi Qafqazda anqlo-saks ölkələri, Rusiya və qismən İran geosiyasi aktivlik göstərirdilər və həmin mənzərədə türk faktoru çox cüzi idi. O dönəmdə güclü oyunçular regionu böyük ölçüdə anti-türk əhval-ruhiyyəsinə sala bildilər. Bu anlamda hər tərəfdən Azərbaycanın müstəqil dövlət ola bilməsinə təhdidlər yağmağa başladı. Nəticəsi məlumdur.

İndi həmin olaylardan 100 ildən bir qədər çox vaxt keçmişdir və regionun dinamik inkişaf edən dövləti Azərbaycan Respublikası "geosiyasi çarxı" ədalət istiqamətində ciddi dəyişmişdir. Bu prizmadan baxanda Cənubi Qafqazda regional çağırışlar əsas olaraq Azərbaycanı hədəf almalı idi.

Deməli, postmüharibə mərhələsində regional geosiyasi çağırışlar əsas olaraq qalib dövlət və qalib liderə qarşı yönəldilmişdir. Bunu indiki mərhələdə Azərbaycan məsələsini təhlil edəndə ciddi surətdə nəzərə almaq gərəkdir. Belə ki, çağırışların məhz qalib dövlətə qarşı istiqamləndirilməsi həm tarixi ədalətsizlik, həm də geosiyasi nonsesdir.

Həm də ona görə ki, qalib dövlət Azərbaycan və onun qalib lideri İlham Əliyev regionda sülh, barış, təhlükəsizlik və əməkdaşlığın memarı rolunu oynayır. Azərbaycan müstəqil dövlət kimi regional və qlobal təhlükəsizlik sisteminin yenilənməsində aktiv iştirak edən ölkədir! Onun fəaliyyəti milli miqyasdan regional səviyyəyə, oradan da regionlararası miqyasa uğurla proyeksiya olunur.

Sağlam düşüncə üçün bu situasiyanın özünü risk altına atmaq cəhdi bütövlükdə dünyaya qarşı haqsızlıqdır. Lakin, təəssüf ki, reallıqdır. Beləliklə, postmüharibə mərhələsində regional geosiyasi çağırışların mahiyyətində paradoksallıq, konkret olaraq tarixi ədalətə qarşı çıxış etmək üstünlük təşkil etməkdədir. Rəsmi Bakı buna tam hazır olmalıdır.

Digər mühüm məqam ondan ibarətdir ki, Qalib dövlət regionun liderliyi ilə dövlət başçısının liderliyini üzvi surətdə birləşdirməyi həmin geosiyasi çağırışlar fonunda həyata keçirməlidir. Bu, ikiqat çətinlik yaradır.

Birincisi, İlham Əliyev qalib lider olmasına rəğmən özünə qarşı bütün təhdidləri neytrallaşdırır. Həm də bununla kifayətlənmir – Azərbaycan lideri regionun sabitliyi, təhlükəsizliyi və əməkdaşlığının memarına çevrilir. Bunlar İlham Əliyevin sürətlə özünü göstərən və tez-tez istiqamətini dəyişən regional geosiyasi çağırışlara lider kimi reaksiyasının əsas məqamlarındandır.

İkincisi, İlham Əliyev həm də regional lider olan dövlətin başçısı kimi yeni çağırışlara cavab veridir. Dövlətin liderliyi təmin olunmasa, şəxsi liderliyin səmərəsi azala bilər. Bu da o deməkdir ki, postmüharibə mərhələsində öncəki mərhələdən fərqli olaraq şəxsi liderliklə dövləti liderliyin sintezi aparıcı rol oynamalıdır.

*

Cənubi Qafqazda postmüharibə mərhələsində şəxsi liderliklə ölkə liderliyinin regional miqyasda ahəngdarlığını necə təmin etmək olar? Bizcə, Azərbaycan üçün yeni tarixi mərhələdə XXI əsrin geosiyasi çağırışlarının regionumuza proyeksiyası şəraitində başlıca sual bundan ibarət olacaqdır.

Azərbaycan 2003-2020-ci illər müddətində iki aspektdə yeni geosiyasi dəyər yaratdı. Onlardan biri İlham Əliyevin timsalında yeni uğurlu liderlik nümunəsi yaratması ilə bağlıdır. Bu proses faktiki olaraq Azərbaycanda milli siyasi liderliyin regional miqyada uğurlu proyeksiyasının baş verməsini ifadə edir. Onun da iki aspekti mövcuddur: Birincisi, İlham Əliyev öz şəxsi liderliyinin yeni parametrlərinin inklüzivliyini real fəaliyyəti ilə qəbul etdirdi, ikincisi, paralel olaraq Azərbaycanın Cənubi Qafqazda regional liderliyini təmin etdi. Bu iki aspekt İlham Əliyevin eksklüziv fəaliyyətinin ümumi mənzərəsidir.

İkinci dəyər Azərbaycanın ərazi bütövlüyünün tam bərpası ilə suverenliyin tam təmini arasında ahəngdarlığın yaradıldığı prosesin geosiyasi və idarəedimısi aspekti ilə əlaqəlidir. Onun siyasi yekunu yuxarıda vurğuladığımız liderliyin sintezi məsələsinin politoloji aktuallaşması oldu.

Burada başqa bir geosiyasi mahiyyətli məsələ ön plana çıxır. Biz, liderliyin yeni məqamlarının sintezinin geosiyasi məkana proyeksiyasını nəzərdə tuturuq. Məlumdur ki, müasir geosiyasi və politoloji təlimlərdə coğrafi məkanın və ərazinin nəzəri obrazının yaradılması və onların müstəqil dövlətçiliyə təsiri çox aktuallaşmışdır. Bu proses faktiki olaraq indiki tarixi mərhələdə dövlətlərin kimliyinin (identikliyinin) formalaşmasında əsas yerlərdən birini tutmağa başlamışdır. Onun konkret təzahürü isə regionlararası geosiyasi məkanda şəxsi liderliklə dövləti liderliyin bir-birini tamamlaması özəlliyinə bağlıdır. Məsələnin məhz bu aspekti XXI əsrin çağırışları fonunda son dərəcə ciddi və əhəmiyyətli məzmun alır. Bunu necə təmin etmək mümkündür? Əsas hərəkətverici və təminedici faktor kimi nəyi seçmək daha doğru olardı?

Çox güman ki, bunu uğurlu reallaşdırmanın başlıca yolu regional təşkilatlarda şəxsi liderliklə dövlətin aparıcı rolunu uyğunlaşdırmaqla sıx əlaqəlidir. Bir neçə il ərzində Azərbaycanın bu istiqamətdə müsbət təcrübəsi toplanmışdır.

*

Azərbaycan Prezidenti Cənubi Qafqazda dövlətin liderliyini iqtisadi, energetik, multikultural dəyərlərin təmini, təhlükəsizlik və siyasi-diplomatik faktorların sinxronlaşması sayəsində reallaşdırdı. Bunun birbaşa əyaniləşməsi isə II Qarabağ müharibəsindən dərhal sonra başladı. Belə ki, İlham Əliyev məğlub etdiyi ölkəyə regional miqyasda əməkdaşlıq, sülh, barış və kommunikasiyaların açılmasını təklif etdi.

Çoxları gözləyirdi ki, Azərbaycan qisas dalınca düşərək, Ermənistanı tamamilə darmadağın edəcək. Ancaq Azərbaycan lideri yaranmış vəziyyətə milli maraqlarla regional maraqların qarşılıqlı təmini kontekstində yanaşdı. İndi bu yanaşma öz bəhrələrini verir. Ermənistan faktiki olaraq tədricən Azərbaycan liderinin formalaşdırdığı təhlükəsizlik və əməkdaşlıq modelinə tərəf gəlir. Onun gec və ya tez Zəngəzur dəhlizinin açılmasına da razılıq verəcəyinə də şübhə yoxdur.

Bu baxımdan müharibədə qələbə Azərbaycan Respublikasının dövlət olaraq regional gücünü hər kəsə nümayiş etdirdisə, postmüharibə mərhələsində İlham Əliyevin yeritdiyi regional siyasət onun şəxsi liderliyini təsdiqlədi. İndi kimsə şübhə etmir ki, Cənubi Qafqazda aparıcı siyasi lider İlham Əliyevdir. Gürcüstan və Ermənistanın liderləri regional miqyasda bu rolu oynaya bilmirlər. Açıq görünür ki, İlham Əliyevin şəxsi liderlik keyfiyyətləri çox üstündür.

Deməli, bu regionda şəxsi liderlik İlham Əliyevə məxsusdur. Dünyanın çox müxtəlif ölkələrindən əsas olaraq Azərbaycana səfərlərin edildiyi bunu təsdiq edən faktorlardan biridir. Həmin liderlərin Azərbaycan Prezidenti ilə Cənubi Qafqazın aktual geosiyasi və təhlükəsizlik məsələlərini müzakirə etdikləri məlumdur.

Bunların fonunda dünyanın böyük güclərinin ilk olaraq məhz Azərbaycan Prezidenti ilə təmasa keçib həyati əhəmiyyətli geosiyasi məsələləri müzakirə etdikləri də sirr deyildir. Məsələn, Rusiya Prezidenti V.Putin ilk olaraq Azərbaycanın dövlət başçısı ilə müzakirələr aparır. Azərbaycanla əməkdaşlığın bütövlükdə regiona fayda verəcəyinə əminliyini ifadə edir. O cümlədən, Moskva Azərbaycanın layihələri olan Zəngəzur dəhlizi və "3+3" formulunu dəstəkləyir.

Amerika dövlət başçıları dəfələrlə Azərbaycan Prezidentinə ünvanladıqları məktublarında İlham Əliyevin liderliyini tam qəbul edərək, əməkdaşlığı daha geniş miqyasda yeni səviyyəyə yüksəltməkdə maraqlı olduqlarını ifadə edirlər.

Avropa İttifaqının rəhbərliyi enerji sahəsində əməkdaşlığın strateji aspektdə davamı məsələsini Prezident İlham Əliyevlə müzakirə edirlər. Real olaraq bununla bağlı əməkdaşlıq sənədi (memorandum) vardır. Bundan başqa, İlham Əliyev böyük şirkətlərlə enerji sahəsində "Əsrin ikinci müqaviləsi"ni imzalamışdır. Strateji aspektdə Azəbaycanla Avopa enerji üzrə tərəfdaşdırlar.

İranla münasibətlərdə İlham Əliyev çox təsirli addımlar atır. Rəsmi Tehran İlham Əliyevin təşəbbüslərinə haqq qazandırmağa başlamışdır.

Türkiyə isə tamamilə başqa faktordur. İki qadaş dövlətin başçıları bir-birinin liderliyini həm gücləndirir, həm də regionun rifahı üçün lazımi addımları birgə atırlar. Aydın görünür ki, R.T.Ərdoğan İlham Əliyevin regional liderliyini nəinki qəbul edir, hətta onun daha da güclənməsi üçün imkanlarını əsirəmir.

Bütün bunlar onu təsdiq edir ki, İlham Əliyev regional miqyasda şəxsi liderliklə dövləti liderliyi uğurla sintez edə bilmişdir. Bu da iki istiqamətdə XXI əsrin çağırışları fonunda məsələləri daha da akuallaşdırır.

Birincisi, Azərbaycanda liderliyin regionlararası konteksti daha aktual nəzəri və praktiki məsələyə çevrilir. İkincisi, prosesin bu cür uğurlu aparılmasında aparıcı faktorun müəyyən edilməsini ön sıraya çıxarır.

Birinci məsələ Azərbaycanın regional təşkilatların üzvü kimi regionlararası miqyasda geosiyasi rolunun müxtəlif cəhətlərinin təhlilini ehtiva edir. Bu səviyyədə Azərbaycan Respublikası liderliyin təminatı məsələsini aktuallaşdırmağı tələb edir.

İkinci məsələ isə milli ideyanın regionlararası miqyasda liderlik aspektində oynaya biləcəyi rolu təhlil etmək zərurətini ortaya qoyur.

Hər iki məsələ ayrıca araşdırılmalıdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Hay sərsəmliyi və İsrail amilinin qabardılması

**(əvvəli 1-ci səhifədə)**

Beləliklə, Ermənistan baş naziri Nikol Paşinyana yaxın ekspert və politoloq cameəsi bildirir ki, Azərbaycan, guya, İsraillə yaxşı münasibətlərindən istifadə edərək, Ermənistana qarşı hərbi hücum həyata keçirmək naminə ABŞ Prezidenti Donald Trampdan icazə almağa çalışır, hətta icazənin alına biləcəyi riski var. Onların qondardıqlarına görə, rəsmi Tel-Əviv Bakı və Vaşinqton arasında üçtərəfli əməkdaşlıq üçün güclü təməl yaratmaq məqsədilə danışıqlar aparır.

Heç şübhəsiz, belə ritorikanın gündəmə gətirilməsi Azərbaycanla Rusiya arasındakı hazırda sönük məcrada olan gərginliyi artırmaq məqsədi də daşıyır. Nəzərə alaq ki, erməni iqtidarı son günlər Moskva ilə yaxınlaşmaq istiqamətində müəyyən addımlar atmaqdadır və heç şübhəsiz, bu addımlarda Azərbaycanı Moskvanın gözündən salmaq amili də var.

Birbaşa mövzuya gəlincə, erməni dairələri israilli siyasilərin ölkəmizə önəm özünü göstərirdi. Yəni, Birləşmiş Ştatların əvvəlki hakimiyyəti ölkənin vaxtilə müşahidə edilmiş klassik ermənipərəstliyinə üstünlük vermişdi. Bu baxımdan Azadlığa Dəstək Aktına 907-ci düzəlişin gündəmə gətirilməsini vurğulamaq mümkündür. Məlum olduğu kimi, sənəd Azərbaycan torpaqlarının işğala məruz qaldığı bir dövrdə qəbul edilmiş və ölkəmizə hərbi yardımın dayandırılmasını nəzərdə tutan sanksiya mahiyyəti daşımışdı.

Lakin sonradan ABŞ Konqresi ölkə Prezidentinə 907-ci düzəlişin qüvvəsini dayandırmaq hüququ vermiş və Birləşmiş Ştatların bəzi dövlət başçıları bu hüquqdan yararlanmışdılar. Bayden isə sənədi qüvvədə saxlamışdı. Deməli, ABŞ-Azərbaycan münasibətlərinin rəvanlığı baxımından 907-ci düzəlişin tamamilə ləğvi və rəsmi Bakının öz növbəsində mövcud istiqamətdə çalışması vacibdir. Ermənistan hakimiyyətinə yaxın siyasi dairələr isə iddia edirlər ki, İsrail məsələdə Azərbaycana kömək edəcək. Onların sözlərinə görə,



verilməsinə dair fikirlərini tirajlayırlar. Məsələn, onlar İsrailin "Şas" partiyasının üzvü Simon Moşiaşvilinin Knessetdə "İsrail və Azərbaycan arasında strateji müttəfiqlik" mövzusundakı müzakirələr zamanı dediklərini yada salırlar. Cənab Moşiaşvili bildirmişdi ki, Azərbaycan İsrailin Qafqazda təhlükəsizlik, ticarət, texnologiya və enerji sahələrində strateji müttəfiqidir. Hesab edirik ki, onun dediklərində fövqəladə nə isə yoxdur. Çünki İsrail dövlətinin ölkəmizə münasibəti hər zaman yüksək səviyyədə olub və bu amil ölkənin siyasi çevrələrinə də sirayət edib və etməkdədir.

Qeyd edək ki, İsrailin Milli missiyalar naziri Orit Strookun İsrail – Azərbaycan münasibətlərinin unikal tərəfdaşlıq, qarşılıqlı maraqlar və uzunmüddətli dostluq üzərində qurulduğunu dilə gətirməsinə də təəccüblənmək lazım deyil. Eləcə də onun "İsrail Azərbaycan və ABŞ ilə əməkdaşlığı gücləndirməyə davam edəcək və bu münasibətləri korlamaq cəhdlərinə qarşı duracaq" şəklində fikir bildirməsinə. Ancaq "təəccüblənənlər" var. Mövcud fonda onu da deyək ki, fikirlərini diqqətə çatdırdığımız cənab Moşiaşvili, həmçinin Cənubi Qafqazda regional təhlükəsizlik arxitekturasının əsas hissəsi olan Azərbaycanın ABŞ-ın sanksiyaları ilə üzləşməsinin yolverilməzliyini vurğulayıb. Bu fikrin erməni siyasilər tərəfindən qabardılmasını təsadüfi saymırıq.

Məsələ ondadır ki, hazırda rəsmi İrəvan bir tərəfdən Rusiya ilə münasibətləri qaydaya salmağa çalışsa da, digər yandan ABŞ-ın yeni rəhbərliyinin özünün avantürasında sipərə çevirmək arzusundadır. Bu məqsədlə erməni diplomatiyası aktiv şəkildə ölkəmizi Vaşinqtonun nəzərindən salmaq xətti götürüb. Bütün bunlar Paşinyan iqtidarının sülh müqaviləsi müstəvisindəki manipulyasiyaları ilə müşayiət olunmaqdadır. Azərbaycan dövləti isə hər zaman ABŞ-la münasibətlərə önəm verib. Ancaq bu önəm, heç bir halda, ölkəmizin balanslı siyasət xəttinə kölgə salmayıb.

Bakının Vaşinqton ilə strateji tərəfdaşlığının arzulandığını dilə gətirən Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Birləşmiş Ştatların əvvəlki administrasiyasının ikitərəfli əlaqələrə vurduğu ziyanı diqqətə çatdırıb. Yəni, dövlətimizin başçısı strateji tərəfdaşlıq məsələsini ABŞ-la münasibətlərin yeni düzəni timsalında vurğulayıb. Erməni politoloqlar isə mövcud məqamı, az qala, Azərbaycanın tamamilə Birləşmiş Ştatlara yaxınlaşmaq cəhdi kimi qiymətləndirməyə çalışır və bu baxımdan qondardıqlar İsrail vasitəçiliyi üzərində dayanırlar. Əlbəttə, necə deyərlər, hər şeyi, öz arşınları ilə ölçürlər. Axı erməni siyasi düşüncə tərzi üçün siyasət anlayışı yarınmaqdan başqa bir şey deyil.

Bəli, Bayden administrasiyası ölkəmizə qarşı qərəz motivlərinə köklənmişdi və bu, onun aşkar ermənipərəstliyində Bayden administrasiyası sözügedən düzəlişi qüvvədə saxlamaqla, Bakının təcavüzkarlığının qarşısını alırdı.

İddia, həqiqətən, çox gülüncdür. Ən azı ona görə ki, Azərbaycan böyük ölçüdə Amerikanın hərbi yardımına ehtiyac duymur, istədiyi ölkədən öz vəsaiti ilə silah ala bilir. İkincisi, Birləşmiş Ştatların hərbi yardımı olsa belə, onun miqyası işğal gerçəkləşdirməyə imkan yaratmır. Azərbaycan üçün 907-ci düzəlişin ləğvi yalnız mənəvi məsələdir. Yəni, rəsmi Bakının hesablaması tarixi ədalətsizliyi aradan qaldırmağa yönəlib ki, dərindən yanaşılsa, bu, Vaşinqtonun özü üçün də vacibdir. Vacib olmayan isə erməni hakim dairələrinə yaxın şəxslərin Baydeni, bir növ, haqq-ədalət mücəssiməsi kimi göstərmələridir. Sən demə, qoca Co hər şeyi öz adı ilə çağırır, Azərbaycanın Ermənistanı "işğalını", bu azmış kimi "Qarabağın işğalını", ermənilərin bölgədən "qovulmalarını" pisləyirmiş.

Birincisi, Bayden administrasiyası erməni düşüncə industriyasının iddia etdiyi kimi, heç də açıq danışmağa üstünlük vermir, öz anti-Azərbaycan fəaliyyətini necə deyərlər, altdan-altdan gerçəkləşdirirdi. Yəni, məlum idi ki, "fəaliyyətin" konturları Ağ evdə hazırlanıb. İkincisi, Baydenin şəninə tariflər yağdırılması fonunda elə təəssürat yaranır ki, Tramp ermənilərə qarşı ədalətsiz mövqe tutur, yaxud tutmağa çalışır. Yəni, belə yanaşmanın özü absurddur. Ən böyük absurdu isə əvvəldə diqqətə çatdırdıq. Söhbət Trampın Ermənistanın işğalına icazə vermək iddiasından gedir.

Sonda əvvəldə dediyimiz kimi, Azərbaycanın Ermənistanı işğalı və bu işdə İsrailin köməyi kimi sərsəm ritorikanın gündəmə gətirilməsinin hansı "məqsədə" hesablanmasından söz açaq. Bəli, Ermənistan hakimiyyətindəkilər çox yaxşı bilirlər ki, hərəkətləri, ümumən tutduqları yol Cənubi Qafqazda sülh mühitinin formalaşmasının qarşısını kəsmək, qlobal siyasi oyunlarda iştirak və beləliklə, Cənubi Qafqaz regionunun inkişafına sədd çəkməkdir. Onlar yanaşmalarının əsəbləri tarıma çəkdiyini gözəl anlayırlar.

Digər yandan isə Paşinyan hakimiyyətinin xaricdəki havadarlarının, xüsusən Fransanın qoyduğu tələblər var. Hazırda erməni iqtidarı həmin tələb və sifarişlərin yerinə yetirilməsinə səy göstərir. Hər halda, Ermənistanın Azərbaycana qarşı apreldə müharibəyə başlayacağına dair məsələ heç də elə-belədən yaranmayıb. Rəsmi İrəvan və ona yaxın çevrələr məhz özlərinin işğalçılıq niyyətlərini ört-basdır etməyə çalışırlar. Bu baxımdan isə İsrail amili üzərində dayanmaq, vay-şivən qoparmaq onlar üçün mühüm vasitədir. Ancaq belə mənasız gedişlər heç nəyə yaramayacaq. Çünki kimlərin hansı niyyətlə ortaya düşdükləri gün kimi aydındır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan Milli Elmlər Akademiyası: inkişaf mərhələləri və müasir dövr

**Azərbaycanda elmin qədim tarixi və böyük ənənələri vardır. Bütün dövrlərdə ölkəmizdə xalqın milli-mənəvi təkamülündə və dövlətçiliyin inkişaf etdirilməsində elm, ədəbiyyat, ziyalı faktoru özünəməxsus rol oynamışdır. Çoxəsrlik tariximizdə Əbu Məhəmməd Həsən əl-Azəri, Əhməd ibn İbrahim Bərdəi, Əbdülhəsən Bəhmənyar Azərbaycani, Xətib Təbrizi, İbrahim Gəncəvi, Kəmaləddin Tiflisi, Əbdulqadir Marağayi, Şihabəddin Sührəvərdi, Məhəmməd Hinduşah Naxçıvani, Hacı Zeynalabdin Şirvani və başqaları kimi adlı-sanlı alimlərin xidmətləri silinməz izlər buraxmışdır. Hələ orta əsrlərin əvvəllərində Təbrizdə yaradılmış Darüş-Şəfa Akademiyası, Nəsirəddin Tusinin Marağa Rəsədxanası, Əbülfəz Naxçıvaninin Gəncə Kitabxanası nəinki Azərbaycanda, bütün Şərqdə tanınmış və böyük nüfuz qazanmışdır.**





**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

Bütün bunlarla bərabər, çoxəsrlik zəngin ənənələrə malik olan Azərbaycan elmi XX əsrdə özünün təşkilatlanma dövrünə qədəm qoymuşdur. Bu mənada 2 noyabr 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması ilə Azərbaycan Elmlər Akademiyasının ilkin təməli atılmışdır. Bundan sonra ölkəmizdə elmi tədqiqat işlərinin təşkili 1929-cu ildən fəaliyyətə başlayan Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu vasitəsilə həyata keçirilmişdir. Bu dövr Azərbaycanda akademik qurumun yaradılması üçün başlanğıc mərhələdir.

1932-ci il dekabrın 29-da SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsinin təsis edilməsi ilə respublikamızda akademik statusda ilk elmi təşkilatın əsası qoyulmuşdur. SSRİ Elmlər Akademiyası Rəyasət Heyətinin 25 oktyabr 1935-ci il tarixli qərarı ilə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi 1935-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına çevrilmiş, bununla müstəqil akademiyanın yaradılmasına doğru, mühüm addım atılmışdır. SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsinə akademik Frans Yuliyeviç Levenson-Lessinq, Ruhulla Axundov, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına isə 1937-1939-cu illərdə akademik İvan Mixayloviç Qubkin, sonra akademik S.S.Namyotkin, ən sonda isə professor Heydər Hüseynov rəhbərlik etmişlər. SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsinin və SSRİ Elmlər Akademiyası Azərbaycan filialının fəaliyyət göstərdiyi illərdə respublikamızda elmi-tədqiqat müəssisələrinin təşkili sahəsində mühüm tədbirlər həyata keçirilmiş, yüksək ixtisaslı elmi dərəcəli kadr potensialı formalaşdırılmışdır. Beləliklə, Azərbaycan Elmlər Akademiyasının təsis edilməsi üçün zəmin yaradılmışdır. Bütün bunlara görə, 1932-1945-ci illər ölkəmizdə "Akademiya quruculuğunun hazırlıq dövrü" adlandırıla bilər.

Azərbaycan SSR Nazirlər Sovetinin 27 mart 1945-ci il tarixli qərarı ilə Azərbaycan Elmlər Akademiyası təsis olunmuşdur. Akademiyanın aşağıdakı tərkibdən ibarət ilk təsisçiləri müəyyən edilmişdir: Mir Əsədulla Mirqasımov, Şamil Əzizbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mirəli Qaşqay, Üzeyir Hacıbəyov, Səməd Vurğun Vəkilov, Ələşrəf Əlizadə, Mustafa bəy Topçubaşov, Mikayıl Hüseynov, Aleksandr Alfonsoviç Qrossheym, İosif Qavriloviç Yesman, Mirzə İbrahimov, İvan İvanoviç Şirokoqorov, Sadıq Dadaşov.

Elmlər Akademiyasının ilk təsisçilərinin iştirakı ilə 1945-ci il martın 31-də keçirilmiş Azərbaycan Elmlər Akademiyasının ilk ümumi yığıncağında akademik Mir Əsədulla Mirqasımov AEA-nın prezidenti, akademiklər Şamil Əzizbəyov və Heydər Hüseynov vitse-prezidentlər, akademik Mirəli Qaşqay akademik – katib seçilmişlər. Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin 5 nəfərdən formalaşdırılmış ilk tərkibi akademiyanın rəhbər vəzifələrinə seçilmiş alimlərdən və akademik Yusif Məmmədəliyevdən ibarət təşkil olunmuşdur. Ümumi yığıncaq, eyni zamanda, Elmlər Akademiyasının elmi bölmələrini yaratmış, onların rəhbərlərini seçmiş və tərkibini müəyyən etmişdir. Azərbaycan SSR Elmlər Akademiyasının ilk Nizamnaməsi qəbul olunmuşdur. Beləliklə, Azərbaycan Elmlər Akademiyasının əsas dövlət elmi təşkilatı kimi fəaliyyətinin yeni mərhələsi başlanmışdır. Akademiyanın sonrakı inkişaf dövrləri üçün möhkəm təməl rolunu həyata keçirən bu dövr 1945-ci ildən 1969-cu ilə qədər davam etmişdir. Fundamental elmin inkişafında mühüm əhəmiyyətə malik olan həmin illər "Elmlər Akademiyasının yaranması, təşkilatlanması və formalaşması dövrü" hesab edilir.





Azərbaycan Elmlər Akademiyası ölkəmizdə təşkilatlanmaq baxımından böyük ənənəsi olan, qəbul edilmiş elmi qurumdur. XX əsrin ortalarında qısa müddət ərzində Elmlər Akademiyasının tərkibində elmi-tədqiqat institutlarının formalaşdırılması, onların maddi-texniki bazasının yaradılması, yüksək ixstisaslı elmi kadrların hazırlanması sahəsində genişmiqyaslı işlər aparılmışdır. Ölkəmizin sosial-iqtisadi inkişafında, cəmiyyət həyatının müxtəlif sahələrinin yenidən qurulmasında və inkişafında Azərbaycan Elmlər Akademiyasında hazırlanmış elmtutumlu proqramların, irəli sürülmüş təşəbbüslərin və ideyaların özünəməxsus yeri və rolu olmuşdur. Ölkəmizdə azərbaycançılıq məfkurəsinin inkişaf etdirilməsində, Azərbaycan dilinin yaşadılması və zənginləşdirilməsində, təbii sərvətlərin aşkara çıxarılması və istifadə edilməsinin təşkilində, intellektual elmi potensialın, yeni elmi nəsillərin formalaşdırılmasında Azərbaycan Elmlər Akademiyası üzərinə düşən məsul vəzifələri yüksək məsuliyyətlə yerinə yetirmişdir.

İkinci Dünya müharibəsində qələbənin qazanılmasında xüsusi əhəmiyyətə malik olan yüksək oktanlı benzinin kəşf edilməsi, dənizdən neft çıxarılması ideyasının meydana gəlməsi və Azərbaycan neftinin əfsanəsi olan Neft Daşlarının salınması Elmlər Akademiyasının adı və fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Azərbaycan alimlərinin tədqiqatları əsasında ölkəmiz yarımkeçiricilər fizikası üzrə əsas elmi mərkəz kimi qəbul edilmişdir. Naftalan neftinin aşkara çıxarılması və bu əsasda ölkəmizdə beynəlxalq statusa malik müalicə-sağlamlıq kompleksinin qurulması da akademiya elminin nailiyyətlərindəndir. Qobustan qayaüstü rəsmlərinin aşkara çıxarılması və tədqiq edilərək xalqımıza və dünyaya təqdim olunması da Azərbaycan Elmlər Akademiyasının xidmətlərindəndir. Azərbaycanın zəngin təbii sərvətlərinə, flora və faunasına, iqtisadi inkişafına və ədəbi-mədəni irsinə həsr edilmiş tədqiqatlarla Elmlər Akademiyası ölkəmizin hərtərəfli şəkildə inkişaf etdirilməsinə xidmət göstərmişdir. Xüsusən, respublikamızda neft-kimya sənayesinin qurulması, yeni neft-qaz yataqlarının kəşfi və istismarı, Xəzər dənizinin ekologiyası və geologiyası sahəsində aparılmış elmi tədqiqatlar respublikamızın inkişafında mühüm dəyişikliklərə səbəb olmuşdur.

Azərbaycan Elmlər Akademiyasının inkişafında xüsusi bir dövr olan 1969-1982-ci illər isə elm tariximizə o zaman respublikamıza rəhbərlik etmiş görkəmli dövlət xadimi "Heydər Əliyevin adı ilə bağlı olan mərhələ" kimi daxil olmuşdur. Məhz bu mərhələdə Azərbaycan Elmlər Akademiyası hərtərəfli şəkildə inkişaf etdirilərək, keçmiş SSRİ məkanında xüsusi nüfuz qazanmış, İttifaq miqyasında və ondan kənarda mühüm elmi mərkəzlərdən biri kimi qəbul olunmuşdur. Azərbaycanda bir çox mühüm istiqamətlər üzrə elmi məktəblərin formalaşması, ölkəmizin iqtisadi-mədəni həyatında elmin rolunun artması, yeni istiqamətlər üzrə elmi-tədqiqat müəssisələrinin yaradılması və inkişaf etdirilməsi bu tarixi mərhələdə qazanılmış əsas nailiyyətlərdir. Bu dövrdə Elmlər Akademiyası əsl Azərbaycanşünaslıq mərkəzi funksiyasını həyata keçirmiş, 1975-ci ildə "Xalqlar dostluğu" ordeninə layiq görülmüşdür.

Məhz bu dövrdə görkəmli dövlət xadimi Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanın elmi elitası formalaşmış, milli ziyalılıq cəmiyyətin aparıcı qüvvəsi səviyyəsinə yüksəlmişdir. Azərbaycan alimlərinin istiqlalçılıq təşəbbüsləri də həmin dövrdə meydana çıxmışdır. Sovet Azərbaycanının rəhbəri Heydər Əliyevin vəsatəti və dəstəyi ilə mühüm elmi xidmətləri olan tanınmış alimlər də daxil olmaqla ölkəmizin yaradıcı şəxsiyyətlərinin keçmiş SSRİ-nin ən yüksək təltifi olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi intibah dövrünün tarixi hadisəsidir. Eyni zamanda, milli istiqlalçılıq baxışlarına görə sovet dövlətinin ideoloji baryerlərini aşan ədəbiyyat və incəsənət xadimlərinin, elm adamlarının mövcud real təhlükələrdən xilas edilməsi də Ulu öndərin həmin dövrdəki əvəzsiz tarixi xidmətlərindəndir. Məhz dövlət – ziyalı münasibətlərindəki bu qeyri-adi dəstək Azərbaycanda müxtəlif elm sahələrində elmi məktəblərin, son nəticədə isə elmi elitanın meydana çıxmasına səbəb olmuşdur. Bütün bunlara görə 1969 – 1982-ci illər Azərbaycan Sovet Respublikasının bütün sahələrində olduğu kimi, elm sahəsində, o cümlədən Elmlər Akademiyasında intibah dövrü olaraq elm tarixinə daxil olmuşdur.




Elmlər Akademiyasının tarixində 1983-1993-cü illər "Tənəzzülə doğru meyil və böhran dövrü" adlandırıla bilər. Belə ki, 1983-1988-ci illərdə Elmlər Akademiyasında əvvəlki mərhələdə əldə edilmiş nailiyyətlərin tədricən aşağı enmə prosesləri yaşanmış, nəhayət, tənəzzül həddinə çatmışdır. Keçmiş Sovetlər İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da 1988-ci ildən etibarən milli azadlıq hərəkatı dalğasının başlanması və 1989-1991-ci illərdə daha da genişlənməsi həmin tarixi mərhələdə cəmiyyət həyatının digər sahələri ilə birlikdə elmi mühitdə də ana fikir ictimai-siyasi proseslərə yönəldiyi üçün təşkilati qurum kimi Elmlər Akademiyasının fəaliyyəti diqqətdən kənarda qalmış və xeyli dərəcədə zəifləmişdir. Bundan sonrakı 1991 – 1993-cü illərdə isə o zamankı iqtidarın nümayəndələri tərəfindən Azərbaycan Elmlər Akademiyasının ləğv edilməsi, bağlanması haqqında bəyanatlar səsləndirilmiş, ölkəmizdən yaxın və uzaq xarici ölkələrə beyin axını genişlənmiş, beləliklə, elmi mühitdə böhran dövrü aşkar şəkildə müşahidə edilmişdir.

Azərbaycan Respublikasında 1993-cü il oktyabrın 3-də keçirilmiş Prezident seçkilərində görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə elm məbədimiz də "Yenidən təşkilatlanma və Milli Elmlər Akademiyası quruculuğu mərhələsinə" qədəm qoymuşdur. Doğrudur, hələ Azərbaycan Respublikası Ali Sovetinin Sədri kimi Heydər Əliyevin 1993-cü il sentyabrın 21-də Elmlər Akademiyasında ölkə ziyalıları ilə görüşündə cəmiyyət həyatının bütün istiqamətlərində, o cümlədən də EA-da baş vermis böhrandan çıxış yollarının müzakirə edilməsi və görkəmli dövlət xadiminin akademiyanın xilas ediləcəyinə dair aşağıdakı qəti bəyanatları səsləndirməsi ilə bu qurumun gələcək taleyinə işıq salmışdır: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını bağlamaq istəyirlər, elm ocağına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir."

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın rəhbər heyəti, akademiyanın həqiqi və müxbir üzvləri, görkəmli alimlərlə keçirdiyi tarixi görüş geniş mənada ölkə elminin, xüsusən də Elmlər Akademiyasının dövlət müstəqilliyi dövrünün tələblərinə uyğun inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ulu öndər həmin tarixi görüşdə elmi ictimaiyyətin diqqətinə çatdırdığı aşağıdakı fikirlər Elmlər Akademiyasının müstəqillik dövrünün prinsipləri əsasında yenidən formalaşdırılmasının yol xəritəsi konsepsiyasıdır: "İndi Azərbaycan müstəqil dövlətdir, Azərbaycan Elmlər Akademiyası dövlət Elmlər Akademiyasıdır. Bizim akademiyamızın gərək strategiyası olsun. Bu strategiyanı da gərək siz respublikamızın həm elmi tədqiqat sahəsindəki imkanları əsasında qurasınız, həm də elmi tədqiqat işlərinin nəticəsinə görə respublikamıza lazım olan sahələri əhatə etməyə çalışasınız.

… Şübhəsiz ki, keçmişdə olan, bu gün üçün dəyərli təcrübədən istifadə etmək lazımdır… Amma keçmiş üsul-idarəni, metodları, qanun-qaydaları əsas götürüb, onları təkrar etmək düzgün deyil. Ona görə də indi Siz elmin inkişafı üçün akademiyanın strategiyasını müəyyən edərkən, gərək işə bax, bu prinsiplər əsasında yanaşasınız".

Müstəqil Azərbaycan Respublikasının akademiya quruculuğu üçün xususi mərhələ təşkil edən bu dövrdə həm yenidən təşkilatlanma və həm də akademik qurumun hüquqi statusunun müəyyən edilməsi baxımından əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. İlk növbədə 20 aprel 1994-cü il tarixdə EA-nın ümumi yığıncağı "Azərbaycan Elmlər Akademiyasının inkişaf konsepsiyası"nı, yeni Nizamnaməsini, "Elmi-tədqiqat institutlarının təşkili və fəaliyyətinin əsas istiqamətləri"ni təsdiq etmişdir. Bundan başqa, akademiyada mövcud sektorların və mərkəzlərin bazaları əsasında Mikrobiologiya İnstitutu, İnsan Hüquqları İnstitutu, Kimya Problemləri İnstitutu, Radiasiya Problemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu yaradılmışdır. AMEA-nın Naxçıvan Elmi Bölməsinin (2002), Gəncə Regional Elmi Mərkəzinin (1995) yaradılması, Şəki Zona Elmi Bazasına Şəki Regional Elmi Mərkəzi statusu verilməsi (1995) də yenidən təşkilatlanma dövrünün nailiyyətidir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 may 2001-ci il tarixli sərəncamı ilə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası statusu verilməsi ilə ölkəmizdə müstəqillik dövrünün dövlət ali elmi təşkilatının formalaşdırılması işi başa çatdırılmışdır. Eyni zamanda, Heydər Əliyevin 4 yanvar 2003-cü ildə Milli Elmlər Akademiyasının yeni Nizamnaməsini təsdiq etməsi ilə müstəqil Azərbaycan Respublikasında akademiya quruculuğunun əsas istiqamətləri müəyyən edilmişdir. Beləliklə, 1993-2003-cü illər EA-nın tarixində "Yenidən təşkilatlanma və Milli Elmlər Akademiyası quruculuğu mərhələsi" kimi xarakterizə olunur.

**(ardı var)**

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı

### 1. Qısa xülasə

Mülki aviasiyada təhlükəsizliyin təmin edilməsi sahəsində beynəlxalq standartların tələblərinin, hava hərəkətinin intensivliyinin və həcminin artması fonunda insan hüquqlarının və əsas azadlıqlarının, xüsusilə hərəkət azadlığının təmin edilməsi üçün prosedurların sadələşdirilməsi, xidmətlərin əlçatan olması bu sahənin daha da təkmilləşdirilməsini zəruri edir. Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi hava gəmisinin, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçt daşımalarının hərəkətinin asanlaşdırılması, gecikmələrin qarşısının alınması, hava əlaqələrinin sürətləndirilməsi məqsədilə prosedurların sadələşdirilməsini, habelə "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı"nda (bundan sonra – Dövlət Proqramı) bu prosedurların sadələşdirilməsi üçün həyata keçiriləcək tədbirlər kompleksini nəzərdə tutur.

Dövlət Proqramı mülki aviasiya sahəsində normativ hüquqi tənzimləmənin təkmilləşdirilməsini, mülki aviasiyanın təhlükəsiz inkişafı ilə bağlı prioritetlər sisteminin formalaşdırılıb həyata keçirilməsini, mülki aviasiyanın təhlükəsizliyinin, səmərəliliyinin və müntəzəmliliyinin təmin edilməsini, sərnişinlərin, yükün, baqajın, poçtun və bort ehtiyatlarının (qidalarının) daşınmasının sadələşdirilməsini, Azərbaycan Respublikasının gömrük, sərhəd, miqrasiya, səhiyyə, mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi, toxumçuluq, damazlıq heyvandarlıq, fitosanitar və baytarlıq normalarına uyğunluğunu və hava daşımaları sahəsində istifadə edilən sənədlərin və təmin edilən xidmətlərin operativ rəsmiləşdirilməsini nəzərdə tutur.

Dövlət Proqramının müddəaları, yalnız bir kateqoriya üzrə uçuş əməliyyatı üçün nəzərdə tutulduğu hallar istisna olmaqla, mülki hava gəmiləri ilə həyata keçirilən bütün kateqoriyalardan olan uçuş əməliyyatlarına, Azərbaycan Respublikasında rəsmiyyətin sadələşdirilməsi üzrə müvafiq tədbirləri həyata keçirən dövlət orqanlarının (qurumlarının), o cümlədən xidmət təminatçılarının fəaliyyətinə şamil edilir.

### 2. Qlobal trendlər

Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı milli proqramların hazırlanması tələbi Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarında öz əksini tapmışdır. Belə ki, "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyanın (bundan sonra – Konvensiya) 9 nömrəli Əlavəsi – "Rəsmiyyətin sadələşdirilməsi" sənədi (bundan sonra – Əlavə) rəsmiyyətin sadələşdirilməsinə dair standartları və tövsiyə olunan təcrübəni özündə ehtiva edir. "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" 1974-cü il 25 sentyabr tarixli Beynəlxalq Konvensiyanın (dəyişdirilmiş redaksiyada 1999-cu il iyunun 26-da Brüssel şəhərində qəbul edilmişdir) "J Xüsusi prosedurlar" adlı Xüsusi Əlavəsinin 8-ci bəndinə əsasən, üzv dövlətlər səyahət edən şəxslərə və onların apardıqları mallara gömrük nəzarətinin sadələşdirilməsi məqsədilə gömrük orqanlarının digər dövlət orqanları (qurumları) və ticarət subyektləri ilə əməkdaşlıq çərçivəsində beynəlxalq standartlara uyğun olaraq, sərnişinlər barədə ilkin məlumatlardan istifadə etməsinin zəruriliyini nəzərə alırlar. Konvensiyanın 22-ci maddəsinin və Əlavənin tələblərinə uyğun olaraq, razılığa gələn hər bir dövlət hava nəqliyyatının sadələşdiriməsi üzrə milli proqram qəbul edir. Əlavənin 8.19-cu bəndinə əsasən, hər bir üzv dövlət hava nəqliyyatının sadələşdirilməsi üzrə milli proqramının məqsədi olaraq lüzumsuz maneələri və gecikmələri aradan qaldırmaqla hava gəmilərinin, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçtun və bort ehtiyatlarının daşınmasını asanlaşdırmaq üçün praktiki tədbirlər görməli olduğu öhdəliyini öz üzərinə götürür.

Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına əsasən, üzv dövlətlər əlilliyi olan şəxslərin səyahətlər zamanı əlçatan xidmətlərdən yararlanması, hava limanının (aeroportun) imkan və xidmətlərinin həmin şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün lazımi addımlar atılması, habelə hava gəmisi qəzasının baş verdiyi dövlət və onunla həmsərhəd dövlətlər tərəfindən aviasiya hadisəsi qurbanlarının ailə üzvlərinin müvəqqəti olaraq öz ərazilərinə daxil olmasını asanlaşdırmaq məqsədilə tədbirlər görülməsini, sərnişin məlumat bazasının yaradılmasını təmin etmək öhdəliyini öz üzərlərinə götürürlər.

### 3. Mövcud vəziyyətin təhlili

Hava daşımalarının sadələşdirilməsi sərhəd nəzarəti ilə bağlı proseslərin səmərəli idarə edilməsində və beynəlxalq hava daşımalarının sürətləndirilməsində mühüm rol oynayır. Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurası 2024-cü ili "Rəsmiyyətin sadələşdirilməsi ili" elan etmişdir. Beynəlxalq Mülki Aviasiya Təşkilatı bununla bağlı miqrasiya, karantin, gömrüklə bağlı qanunvericiliyin həyata keçirilməsində hava gəmilərinin, hava gəmisi heyətinin, sərnişinlərin, eləcə də yükün əsassız gecikmələrinin qarşısının alınması məqsədilə müvafiq tədbirlər görülməsi üçün dövlətlərlə qarşılıqlı əməkdaşlıq edir. Belə ki, Beynəlxalq Mülki Aviasiya Təşkilatının Paris Ofisinin xətti ilə 2023-cü il iyulun 10–11-də Bakıda 12 dövlətin 31 nümayəndəsinin və həmin təşkilatın 4 nümayəndəsinin iştirak etdiyi "Rəsmiyyətin sadələşdirilməsi" ilə bağlı seminar təşkil edilmişdir. Seminarın əsas məqsədi hava limanında (aeroportda) uçuşları təhlükəsiz, müntəzəm və səmərəli təmin etmək üçün rəsmiyyətin sadələşdirilməsi üzrə prioritetlərin formalaşdırılması, müvafiq dövlət orqanlarının (qurumlarının) və xidmət təminatçılarının sadələşdirmə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsi və onların vəzifələrinin müəyyənləşdirilməsi məsələlərinin müzakirəsi olmuşdur.

"Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanının müvafiq müddəalarına əsasən, beynəlxalq norma və prinsiplər, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli yeni Qanunu qəbul edilmişdir. Həmin Qanun pilotsuz uçuş aparatları, rəsmiyyətin sadələşdirilməsi, sərnişin adlarının qeydiyyatı məlumatlarının siyahısı, verilməsi, qəbul edilməsi, saxlanılması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi kimi bir sıra yenilikləri özündə ehtiva edir.

Dövlət Proqramının qəbul edilməsi ilə hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində nəzarət və icra prosedurlarının beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması təmin ediləcək, normativ hüquqi bazanın təkmilləşdirilməsinə və beynəlxalq əməkdaşlığın təşviqinə şərait yaranacaqdır. Beləliklə, sərnişinlərə göstərilən xidmətlərə sərf olunan vaxtın azaldılmasına yönəlmiş tədbirlər daşımaların sürətləndirilməsində effektiv rol oynayacaqdır.

Hava daşımalarında rəsmiyyətin sadələşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi bilavasitə əməliyyatların effektivliyinə, iqtisadi yüksəlişə və Azərbaycan Respublikası dövlət sərhədinin təhlükəsizliyinin daha da gücləndirilməsinə təsir göstərir. Belə ki, həmin tədbirlər:

- əməliyyatlar zamanı yaranan fasilələrin minimuma endirilməsinə və hava gəmisi istismarçılarının reyslərlə bağlı dəqiq proqramlarının olmasına imkan verir;
- ticarəti və turizmi sürətləndirərək, iqtisadiyyatın inkişafına və məşğulluğun artmasına şərait yaradır;
- vahid sərhəd təhlükəsizliyi ilə bağlı normaların formalaşdırılmasına şərait yaradır;
- sərnişinlərin bu sahədəki təcrübəsini genişləndirərək rahatlığını təmin edir;
- insan və infrastruktur potensialının inkişafına diqqət yetirilməklə sahənin inkişafına və gələcəkdə problemlər yaranmasının qarşısının alınmasına xidmət edir.

Hava daşımalarının əsas hədəflərindən biri olan beynəlxalq daşımalarda sərhəd, miqrasiya və gömrük prosedurlarının səmərəli və təhlükəsiz şəkildə yerinə yetirilməsi daha çox səyahət sənədlərinin sürətli və effektiv qiymətləndirilməsindən asılıdır. Bu prosesdə sərnişinlərin və ya hava gəmisi heyətinin hərəkətinin idarə edilməsi ilə məşğul olan şəxslər sənədləri yoxlamalı, onların həqiqiliyinə əmin olmalı, sahibini təsdiq etməli və qaydalara operativ və effektiv şəkildə riayət etməlidirlər. Bu prosesdə hər hansı gecikmə səmərəliliyə mənfi təsir göstərə bilər və aviasiyanın iqtisadi baxımdan effektivliyini və dayanıqlılığını azalda bilər.

Müasir dövrdə həmin prosesin sadələşdirilməsində elektron və rəqəmsal sənədlər vacib rol oynayır. Belə ki, səyahət sənədləri kontaktsız qurğu vasitəsilə dəqiq və operativ oxuna bilər. Məlumatların etibarlı şəkildə tez və asan əldə edilməsi vaxtın azalmasına şərait yaradacaqdır.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ilə yanaşı, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair hazırlanacaq qaydalar bu prosesə cəlb olunan dövlət orqanlarının (qurumlarının) vəzifələrini dəqiq müəyyən etməklə Beynəlxalq Mülki Aviasiya Təşkilatının standartlarının effektiv icrası, səmərəli koordinasiyanın təşkili Azərbaycan Respublikasının bu sahədə üzərinə götürdüyü öhdəliliklərin yerinə yetirilməsinə imkan verəcəkdir.

Azərbaycan Respublikasında hazırda beynəlxalq hava limanı statusuna malik aşağıdakı 8 mülki hava limanı fəaliyyət göstərir ki, bunlardan Füzuli Beynəlxalq Hava Limanının açılışı 2021-ci il oktyabrın 26-da, Zəngilan Beynəlxalq Hava Limanının açılışı isə 2022-ci il oktyabrın 20-də olmuşdur (Laçın Hava Limanının tikintisi üzrə isə işlər davam etdirilir):

- Heydər Əliyev Beynəlxalq Aeroportu (GYD);
- Naxçıvan Beynəlxalq Hava Limanı (NAJ);
- Gəncə Beynəlxalq Hava Limanı (GNJ);
- Lənkəran Beynəlxalq Hava Limanı (LLK);
- Qəbələ Beynəlxalq Hava Limanı (GBB);
- Zaqatala Beynəlxalq Hava Limanı (ZTU);
- Füzuli Beynəlxalq Hava Limanı (FZL);
- Zəngilan Beynəlxalq Hava Limanı (ZZE).

Qeyd edilən hava limanlarından dünyanın 37 ölkəsinin 107 hava limanına uçuşlar təşkil edilir. Bundan əlavə, hazırkı vəziyyətdə istismarda olan sərnişin hava limanlarının bir saat ərzində olan buraxılış qabiliyyəti:

Heydər Əliyev Beynəlxalq Aeroportu üzrə:
Terminal 1-də – 3,500 nəfər;
Terminal 2-də – 1,350 nəfər;
Naxçıvan Beynəlxalq Hava Limanı üzrə – 600 nəfər;
Gəncə Beynəlxalq Hava Limanı üzrə – 300 nəfər;
Qəbələ Beynəlxalq Hava Limanı üzrə – 250 nəfər;
Lənkəran Beynəlxalq Hava Limanı üzrə – 200 nəfər;
Zaqatala Beynəlxalq Hava Limanı üzrə – 100 nəfər;
Füzuli Beynəlxalq Hava Limanı üzrə – 200 nəfər;
Zəngilan Beynəlxalq Hava Limanı üzrə – 200 nəfər təşkil edir.

2023-cü ildə Azərbaycan hava limanları vasitəsilə 52,9 min reys yerinə yetirilmiş və 6,0 milyondan çox sərnişin daşınmışdır. Sərnişinlərin 48,3 faizi Azərbaycan Respublikasına mənsub olan daşıyıcılar, 51,7 faizi isə digər dövlətlərdə qeydiyyatda olan istismarçılar tərəfindən daşınmışdır.

**2020–2023-cü illər ərzində mülki hava nəqliyyatı ilə yerinə yetirilən sərnişin reyslərinin və daşınan sərnişinlərin sayı**

| Göstərici | İllər | | | |
|---|---|---|---|---|
| | 2020 | 2021 | 2022 | 2023 |
| Sərnişin reyslərinin sayı (min reys), o cümlədən: | 10,6 | 18,5 | 38,3 | 52,9 |
| Azərbaycan Respublikasına mənsub olan daşıyıcılar tərəfindən | 5,8 | 9,2 | 18,4 | 26,0 |
| Digər dövlətlərdə qeydiyyatda olan istismarçılar tərəfindən | 4,8 | 9,3 | 19,9 | 26,9 |
| Yerinə yetirilən sərnişin reysləri ilə daşınan sərnişinlərin sayı (min sərnişin), o cümlədən: | 1106,7 | 2378,5 | 4578,8 | 6049,4 |
| Azərbaycan Respublikasına mənsub olan daşıyıcılar tərəfindən | 580,9 | 1,139,0 | 2,253,8 | 2,911,6 |
| Digər dövlətlərdə qeydiyyatda olan istismarçılar tərəfindən | 525,8 | 1,239,5 | 2,325,0 | 3,137,8 |

2020–2023-cü illər üzrə aparılmış müqayisədən də göründüyü kimi, mülki hava nəqliyyatında sərnişinlərin sayı illər üzrə artmışdır. Beynəlxalq təcrübəyə gəldikdə isə, 2022-ci ildə Avropa İttifaqı ölkələrinin hava limanlarında (aeroportlarında) 819,8 milyon sərnişinə xidmət göstərilmişdir. Bunlardan ən böyük paya 199,6 milyon sərnişinə xidmət göstərilmiş İspaniya malikdir. Digər sıralarda isə yer tutan Almaniyada 155,3 milyon, Fransada isə 136,6 milyon sərnişinə xidmət göstərilmişdir. Bundan əlavə, hər gün Çikaqo (ORD) hava limanından 769, Dallas (DFW) Hava Limanından 735, Tokio (HND) Hava Limanından 632, İstanbul (İST) Hava Limanından isə 575 sərnişin təyyarəsi yola düşür.

Statistik məlumatlara görə hava limanlarının (aeroportların) tutumu da nəzərə alınmaqla, mülki hava nəqliyyatında daşımaların ilbəil çoxalması xidmətlər üzrə vaxt sərfiyyatının artmasına və gecikmələrin yaranmasına gətirib çıxara bilər. Ən yaxşı təcrübələrlə tanınan ölkələrin bu sahənin inkişafındakı ortaq cəhətləri davamlı inkişaf və təhlükəsizlik təcrübəsini prioritetləşdirməkdir. Hava limanlarında (aeroportlarda) sərnişinlərə göstərilən xidmətlər üzrə gecikmələrin qarşısının alınması ilə bağlı biometrik texnologiyalar və süni intellekt vasitəsilə rəqəmsallaşdırılmış xidmətlərin formalaşdırılması həyata keçirilməli, hava limanında (aeroportda) fəaliyyət göstərən bütün dövlət orqanlarının əməkdaşlığı təmin edilməlidir. ABŞ, Almaniya, BƏƏ, Niderland və Sinqapur kimi dövlətlər bu sahədə əməliyyat səmərəliliyini artırmaqla bərabər, həm də onların təhlükəsiz olmasına dair sistemlər yaratmaq üçün həllər tətbiq edirlər. Beləliklə, qeyd olunanlar rəsmiyyətlə bağlı proseslərin sadələşdirilməsini, əməkdaşlığın daha effektiv təşkil olunması məqsədilə Dövlət Proqramının qəbulunu zəruri edir.

Dövlət Proqramının yerinə yetirilməsinə əsas cavabdeh olan orqan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi bu fəaliyyətin həyata keçirilməsi zamanı əlaqələndirmədə iştirak edir. Aşağıdakı dövlət orqanları hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi üçün iştirakçı dövlət orqanları hesab edilirlər:

- Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi – istehlakçı hüquqlarının müdafiəsi məsələləri üzrə;
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – elektron viza ilə əlaqədar məsələlər üzrə;
- Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi – xarici işlərə dair məsələlər üzrə;
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi – ictimai qaydanın və ictimai təhlükəsizliyinin təmin edilməsi məsələləri üzrə;
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi – səhiyyə məsələləri üzrə;
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi – təhsil məsələləri üzrə;
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi – kənd təsərrüfatı məsələləri üzrə;
- Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi – ətraf mühitin mühafizəsi məsələləri üzrə;
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – sosial məsələlər üzrə;
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi – gömrük məsələləri üzrə;
- Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti – sərhəd nəzarəti məsələləri üzrə;
- Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti – miqrasiya məsələləri üzrə;
- Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi – turizm məsələləri üzrə;
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi – qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti məsələləri üzrə.

### 4. Hədəf göstəriciləri

4.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində aşağıdakılara nail olunacaqdır:

4.1.1. Əlavə ilə müəyyən edilən beynəlxalq standartların və tövsiyə olunan təcrübənin həyata keçirilməsinin təmin edilməsi;

4.1.2. mülki aviasiyada xidmətin səmərəliliyini və keyfiyyətini artırmaqla yanaşı, hava gəmiləri parkının, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçt və bort ehtiyatlarının hərəkətini sadələşdirmək məqsədilə əsassız maneələri və gecikmələri aradan qaldırmaqla proseslərin və prosedurların təkmilləşdirilməsi;

4.1.3. mülki aviasiyada rəsmiyyətin sadələşdirilməsinə dair məsələləri həll etmək üçün innovativ strategiyaların hazırlanmasına dəstək verilməsi;

4.1.4. sərnişinlərin keyfiyyətli aviasiya xidmətlərinə əlçatanlığının təmin edilməsi;

4.1.5. rəsmiyyətin sadələşdirilməsi sahəsində ixtisaslı kadr potensialının formalaşdırılması;

4.1.6. hava gəmisinin gəlməsi və getməsi zamanı əsassız gecikmələrin qarşısının alınmasını təmin etmək məqsədilə rəsmiyyətin sadələşdirilməsi üzrə tədbirlər görülməsi;

4.1.7. hava limanlarında (aeroportlarda) səmərəliliyin artırılması üçün effektiv informasiya texnologiyalarının inkişaf etdirilməsi;

4.1.8. hava gəmisinin istismarçıları tərəfindən Azərbaycan Respublikasında sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının Beynəlxalq Mülki Aviasiya Təşkilatının, Ümumdünya Gömrük Təşkilatının və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının müəyyən etdiyi standartlara uyğun ötürülməsi üçün bir pəncərə sisteminin inkişaf etdirilməsi;

4.1.9. rəsmiyyətin sadələşdirilməsi sahəsində beynəlxalq standartların yerinə yetirilməsinə nail olmaqla aviasiya daşıyıcısının cəlbediciliyinin artırılması;

4.1.10. Beynəlxalq Mülki Aviasiya Təşkilatının standartlarına uyğunluq faizini artırmaqla, keçirilən audit yoxlaması nəticələrinin yüksəldilməsi.

### 5. Məqsədlər

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi, əməliyyatların səmərəliliyinin artırılması;

5.1.2. ticarətin və turizmin inkişafına töhfə verməklə iqtisadi inkişafın və məşğulluğun artırılması;

5.1.3. dövlət sərhədlərinin təhlükəsizliyinin gücləndirilməsi;

5.1.4. keyfiyyətli aviasiya xidmətlərinə əlçatanlığı təmin etməklə sərnişinlərin səyahət təcrübəsinin yaxşılaşdırılması;

5.1.5. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində kadr hazırlığının və beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

5.1.6. rəsmiyyətin sadələşdirilməsi sahəsində Azərbaycan Respublikası milli qanunvericiliyinin beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması və hava gəmilərinin, hava gəmisi heyəti üzvlərinin və sərnişinlərin hava limanlarında (aeroportlarda) daşınmasının təkmilləşdirilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması;

5.1.7. Dövlət Proqramının həyata keçirilməsinə cəlb edilmiş rəsmiyyətin sadələşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət qurumlarının (orqanlarının), xidmət təminatçılarının və yerüstü xidmət təminatçılarının fəaliyyətinin əlaqələndirilməsi və rəsmiyyətin sadələşdirilməsi üzrə birgə fəaliyyətin təşkili;

5.1.8. sahəvi islahatlar sayəsində rəqabət qabiliyyətinin yüksəldilməsi, daha çox sərnişin və turist cəlb edilməsi;

5.1.9. hava limanlarının (aeroportların) strukturunun təkmilləşdirilməsi və marşrut şəbəkəsinin genişləndirilməsi üçün Azərbaycan Respublikasının beynəlxalq sərnişin daşımalarında Avropa və Asiya arasında tranzit qovşağı kimi perspektivliyinin yüksəldilməsi;

5.1.10. regional hava limanlarının (aeroportların) digər dövlətlərdə qeydiyyatda olan istismarçıların iştirakı ilə istismarının stimullaşdırılması və fəaliyyətlərinin genişləndirilməsi.

### 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Hava daşımaları üzrə **rəsmiyyətin** sadələşdirilməsi sahəsində nəzarət və icra prosedurlarının beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması:

6 Əsaslandırma**:**

6.1.1.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsinin qanunvericilikdə yeni olmasını nəzərə alaraq, müvafiq beynəlxalq standartların və tövsiyə olunan təcrübənin öyrənilməsi, habelə nəzarət və icra prosedurlarının uyğunlaşdırılması prosesinin aparılması zəruridir.

**6.1.2. Görüləcək tədbirlər:**

6.1.2.1. rəsmiyyətin sadələşdirilməsi sahəsində dünya təcrübəsinin araşdırılması;

6.1.2.2. beynəlxalq təcrübə, habelə ölkə üzrə mövcud vəziyyətin monitorinqi və təhlili əsasında hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramın tərtib edilməsi;

6.1.2.3. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinin təmin edilməsi istiqamətində davamlı monitorinqin təşkili;

6.1.2.4. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinin təmin edilməsi üçün müfəttiş yoxlamalarının aparılması;

6.1.2.5. hava limanlarında (aeroportlarda) rəsmiyyətin sadələşdirilməsi ilə bağlı mübadilə və mühafizə edilən məlumatların yayılmasının qarşısının alınması üçün müvafiq texniki vasitələrdən istifadə etməklə tələb olunan tədbirlərin görülməsi;

6.1.2.6. hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair komissiyaların yaradılması;

6.1.2.7. hava limanlarında (aeroportlarda) mövcud şəraitin əlilliyi olan şəxslər üçün universal dizayn prinsipləri əsasında beynəlxalq standartlara uyğunlaşdırılması;

6.1.2.8. hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsində iştirak edən dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması.

6G özlənilən nəticə və nəticə indikatorları:

6.1.3.1. monitorinqin həyata keçirilməsi ilə bağlı prosedur sənədlərinin təsdiqi, ildə bir dəfə monitorinqlərin keçirilməsi təmin ediləcəkdir;

6.1.3.2. illik fəaliyyət planı üzrə müfəttiş yoxlamalarının keçirilməsi təmin ediləcəkdir;

6.1.3.3. hava limanlarında (aeroportlarda) rəsmiyyətin sadələşdirilməsi ilə bağlı mübadilə və mühafizə edilən məlumatların qorunması təmin ediləcəkdir;

6.1.3.4. komissiyaların iclaslarında qəbul edilmiş qərarların icrası təmin ediləcəkdir;

6.1.3.5. hava limanlarında (aeroportlarda) göstərilən xidmətlərə əlilliyi olan şəxslərin təhlükəsiz və əlçatanlığı təmin ediləcəkdir;

6.1.3.6. xidmətlərin rəqəmsallaşması prosesinin yekunlaşdırılması təmin ediləcəkdir.

6G özlənilən risklər və onların **neytrallaşdırılması** tədbirləri:

6.1.4.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı tədbirlərin beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması prosesi zamanı daxili qanunvericilikdə fərqlərin meydana gəlməsi təkmilləşdirməyə zərurət yarada bilər.

6.2. Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində kadr hazırlığı və beynəlxalq əməkdaşlığın genişləndirilməsi:

**6.2.1. Əsaslandırma:**

6.2.1.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində xarici dövlətlərlə təcrübə mübadiləsinin yaranması bu sahədə çalışan əməkdaşların kadr hazırlığının təkmilləşdirilməsinə şərait yaradacaqdır.

**6.2.2. Görüləcək tədbirlər:**

6.2.2.1. mülki aviasiya sahəsində ixtisaslaşmış personalın hazırlanması və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə cəlb edilməsi;

6.2.2.2. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində xarici dövlətlərlə təcrübə mübadiləsi, aviasiya personalının, eləcə də digər dövlət orqanlarının (qurumlarının) aviasiya sahəsində fəaliyyət göstərən əməkdaşlarının əlavə təhsili üçün tədbirlərin həyata keçirilməsi.

**6.2.3. G**özlənilən nəticə və nəticə indikatorları:

6.2.3.1. ixtisaslaşmış texniki personalın hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə cəlb olunması təmin ediləcəkdir;

6.2.3.2. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində ixtisaslaşmış kadrların təmin edilməsi prosesinin yekunlaşdırılması təmin ediləcəkdir.

**6.2.4. G**özlənilən risklər və onların **neytrallaşdırılması** tədbirləri:

6.2.4.1. maddi-texniki bazanın mövcud olmaması müəyyən çətinliklər yaradacaqdır. Əlavə olaraq, işçilərin təlim keçməsini təmin etmək mürəkkəb və vaxt aparan proses ola bilər. Xarici dövlətlərlə təcrübə mübadiləsi zamanı tələb olunacaq maliyyə resurslarının düzgün müəyyən edilməsi zəruridir.

6.3. Normativ hüquqi bazanın təkmilləşdirilməsi:

**6 Əsaslandırma:**

6.3.1.1. beynəlxalq təcrübənin araşdırılması və öyrənilmiş təcrübə əsasında milli qanunvericiliyin təkmilləşdirilməsi zəruridir.

**6.3.2. Görüləcək tədbirlər:**

6.3.2.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması;

6.3.2.2. beynəlxalq standartlar nəzərə alınaraq sərnişinlər və hava gəmisinin heyəti, sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyat məlumatlarının toplanması, saxlanılması, mühafizəsi, təhlili, istifadəsi və mübadiləsini tənzimləyən normativ hüquqi aktların hazırlanması.

6G özlənilən nəticə və nəticə indikatorları:

6.3.3.1. normativ hüquqi akt layihələrinin razılaşdırılmaq və təsdiq üçün aidiyyəti üzrə təqdim olunması təmin ediləcəkdir.

6G özlənilən risklər və onların **neytrallaşdırılması** tədbirləri:

6.3.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Belə ki, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsi bir sıra dövlət orqanlarının (qurumlarının) fəaliyyəti ilə əlaqəli olduğundan koordiasiya təkliflərinin alınması və razılaşdırılma ilə bağlı gecikmələr baş verə bilər. Qeyd edilən məsələlərin həlli məqsədilə həmin dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət müvafiq işçi qrupların yaradılması məqsədəuyğun hesab edilir.

6.4. Dövlət Proqramının həyata keçirilməsinə **cəlb edilmiş rəsmiyyətin** sadələşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) və xidmət təminatçılarının fəaliyyətinin **əlaqələndirilməsi üçün rəsmiyyətin** sadələşdirilməsi üzrə birgə fəaliyyətin təşkili:

**(ardı 9-cu səhifədə)**

# Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı

(əvvəli 8-ci səhifədə)

6 Əsaslandırma**:**

6.4.1.1. rəsmiyyətin sadələşdirilməsi sahəsində beynəlxalq qanunvericiliyin araşdırılması, Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişin və heyət üzvləri barədə məlumatların mübadiləsi, təhlili və qorunması üzrə fəaliyyətin şəffaflaşdırılması, sadələşdirilməsi, bununla da həmin fəaliyyətin operativliyinin, səmərəliliyinin və proqnozlaşdırma keyfiyyətinin artırılması, məlumatların təhlili üçün əlaqəli proseslərin rəqəmsallaşdırılması, məlumatların mübadiləsini və təhlilini həyata keçirən iştirakçılar arasındakı münasibətlərdə tam rəqəmsal mühitin tətbiq edilməsi, o cümlədən onların informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyasının və sənəd (məlumat) mübadiləsinin təmin olunması zəruridir.

**6.4.2. Görüləcək tədbirlər:**

6.4.2.1. Azərbaycan Respublikasında sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının təhlili və emalı üzrə işlərin görülməsi;

6.4.2.2. sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının ötürülməsi zamanı Beynəlxalq Mülki Aviasiya Təşkilatının "Doc 9303, müvafiq texniki vasitə ilə oxuna bilən səyahət sənədləri" ilə müəyyən edilmiş tələblərə

uyğun olan və müvafiq texniki vasitələrlə oxuna bilən məlumatların ötürülməsinin təmin edilməsi.

6 özlənilən nəticə və nəticə indikatorları:

6.4.3.1. sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının emal edilməsi və mühafizəsi üzrə işlərin görülməsi;

6.4.3.2. sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının oxunaqlılığının təmin edilməsi.

6 özlənilən risklər və onların **neytrallaşdırılması** tədbirləri:

6.4.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində, habelə qeydiyyat məlumatlar sisteminin beynəlxalq standartlar əsasında qurulmasında texniki çətinliklər yarana bilər. Çətinliklərin aradan qaldırılması məqsədilə dövlət orqanları (qurumları) arasında məlumatlar sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində qarşılıqlı fəaliyyətin daha çevik təmin edilməsi məqsədilə və məlumatlar sisteminin bir çox sahələri əhatə etdiyini nəzərə alaraq, təhlillər aparılması və həmin təhlillər əsasında razılaşdırılmış normaların müəyyən edilməsi məqsədəuyğun hesab olunur. Bununla əlaqədar müvafiq işçi qruplar yaradıla bilər.

## 7. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında qeyd edilən tədbirlərin icrasının təmini üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, kredit və qrantlar, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

## 8. Dövlət Proqramının həyata keçirilməsinə dair tədbirlər planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində nəzarət və icra prosedurlarının beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması** | | | | | | | |
| 8 1 | Hava limanlarının (aeroportların) fəaliyyətinin təkmilləşdirilməsi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi | RİNN | "AZAL" QSC, aidiyyəti dövlət orqanları (qurumları), hava limanları (aeroportlar) | Mütəmadi | Rəsmiyyətin sadələşdirilməsi sahəsində beynəlxalq təcrübənin araşdırılması, aidiyyəti dövlət orqanlarından (qurumlarından), habelə hava limanlarından (aeroportlardan) təkliflərin alınması və hava limanlarında (aeroportlarda) mövcud vəziyyətin monitorinqi | Toplanılan məlumatların təhlil və müqayisə edilməsi, hava limanlarında (aeroportlarda) aşkar edilən çatışmazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər planlarının, eləcə də hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqram layihələrinin hazırlanması | Hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramların və tədbirlər planlarının təsdiq edilməsi və icrası |
| 8 2 | Hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramların təsdiq edilməsi | | | | | | |
| 8.1.3. | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinin təmin edilməsinin davamlı monitorinqinin təşkili | RİNN | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilmə-sində iştirak edən dövlət orqanları (qurumları) | Mütəmadi | Dövlət Proqramının əlaqələndirici orqanlarının nümayəndələrindən ibarət işçi qrupun formalaşdırılması və əsasnaməsinin hazırlanması | Monitorinqin həyata keçirilməsi ilə bağlı prosedur sənədlərinin hazırlanması | İşçi qrupun əsasnaməsinin və monitorinqin həyata keçirilməsi ilə bağlı prosedur sənədlərinin təsdiqi, ildə bir dəfə monitorinqlərin keçirilməsi və nəticəsi barədə aidiyyəti üzrə təkliflərin verilməsi |
| 8 4 | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinin təmin edilməsi üçün müfəttiş yoxlamalarının keçirilməsi | RİNN | AİBNDA | Mütəmadi | Müfəttiş yoxlamalarının keçirilməsində iştirak edəcək kadrların seçilməsi | Təlimat materiallarının, yoxlama vərəqələrinin, yoxlamanın keçirilməsi üçün müfəttiş proqramı və planının hazırlanması, seçilmiş kadrların təlimlərə cəlb olunmalarının təmin edilməsi | İllik fəaliyyət planı üzrə müfəttiş yoxlamalarının həyata keçirilməsinin təmin edilməsi, toplanmış məlumatların təhlili |
| 8 5 | Hava limanlarında (aeroportlarda) rəsmiyyətin sadələşdirilməsi ilə bağlı mübadilə və mühafizə edilən məlumatların yayılmasının qarşısının alınması | RİNN, DİN, DMX, DSX, "AZAL" QSC | DGK | Mütəmadi | Məlumatların işlənməsində avtomatlaşdırılmış texniki vasitələrdən, məlumatların mülkiyyətçisi tərəfindən yoxlanılmış və təsdiq edilmiş təlimatdan və proqram təminatından istifadə edilməsi | Tətbiq edilən informasiya mühafizə vasitələrindən istifadə qaydasının öyrədilməsi və təkmilləşdirilməsi məqsədilə təlimlər keçirilməsi, eləcə də səlahiyyətli orqanlarla (qurumlarla) əməkdaşlıq qurulması, məlumatların mühafizəsi prosesinin təkmilləşdirilməsi üzrə keçirilmiş monitorinqlərin nəticələrinin təhlili | Hava limanlarında (aeroportlarda) rəsmiyyətin sadələşdirilməsi ilə bağlı mübadilə və mühafizə edilən məlumatların mühafizəsinin normativ hüquqi aktların tələblərinə uyğun olaraq təmin edilməsi |
| 8 6 | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı hava limanlarında (aeroportlarda) komissiyaların yaradılması | RİNN | "AZAL" QSC, AİBNDA, aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2026 | Hər bir hava limanının (aeroportunun) komissiyasının əsasnaməsinin hazırlanması və təsdiq edilməsi | Komissiyaların iclaslarının keçirilməsinin təmin edilməsi | Komissiyaların iclaslarında qəbul edilmiş qərarların icrasının həyata keçirilməsi |
| 8 7 | Hava limanlarında (aeroportlarda) mövcud şəraitin əlilliyi olan şəxslər üçün universal dizayn prinsipləri əsasında beynəlxalq standartlara uyğunlaşdırılması | "AZAL" QSC | ƏƏSMN, SN, DGK, DİN, DMX, DSX | 2025–2030 | Əlilliyi olan şəxslərin hava limanı (aeroport) ərazisində uçuşdan əvvəl və uçuş zamanı hərəkətinin asanlaşdırılması üçün müvafiq avadanlıqların sayının artırılması | Əlilliyi olan şəxslərə xidmət göstərilməsi ilə əlaqədar işçilərə təlim keçilməsinin təmin olunması | Hava limanlarında (aeroportlarda) göstərilən xidmətlərin əlilliyi olan şəxslər tərəfindən təhlükəsiz və rahat yerinə yetirilməsinin təmin edilməsi |
| 8 8 | Hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsində iştirak edən dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırıl-ması | "AZAL" QSC | RİNN, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilmə-sində iştirak edən dövlət orqanları (qurumları) | 2025–2030 | Xidmətlərin rəqəmsallaşdırılması ilə bağlı aidiyyəti dövlət orqanlarından (qurumlarından) təkliflərin toplanılması, daxil olmuş təkliflərin qiymətləndirilməsi, beynəlxalq təcrübənin təhlil edilməsi | Aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması prosesinin təşkili və infrastrukturun qurulması | Xidmətlərin rəqəmsallaşdırılması prosesinin yekunlaşdırılması |
| **8.2. Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində kadr hazırlığının və beynəlxalq əməkdaşlığın genişləndirilməsi** | | | | | | | |
| 8 2 | Mülki aviasiya sahəsində ixtisaslaşmış personalın hazırlanması və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə cəlb edilməsi | RİNN | ETN, "AZAL" QSC | 2025–2030 | Personalın hazırlığı üzrə milli və beynəlxalq qanunvericilik bazasının təhlili | İxtisaslaşmış personalın hazırlanması ilə bağlı təlimlərin müəyyən edilməsi, aidiyyəti şəxslərin həmin təlimlərdə iştirakının təmini, təlimlərin effektivliyinin qiymətləndirilməsi və digər aidiyyəti hazırlıq tədbirlərinin görülməsi | Hazırlanmış ixtisaslaşmış personalın hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə cəlb edilməsi |
| 8 2 | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində xarici dövlətlərlə təcrübə mübadiləsi, aviasiya personalının, eləcə də digər dövlət orqanlarının (qurumlarının) aviasiya sahəsində fəaliyyət göstərən əməkdaşlarının əlavə təhsili üçün tədbirlərin həyata keçirilməsi | RİNN | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsində iştirak edən dövlət orqanları (qurumları), "AZAL" QSC | 2025–2030 | Xarici dövlətlərin mülki aviasiya sahəsində səlahiyyətli orqanları, təşkilatları və tədris-təlim mərkəzləri ilə əlaqə qurulması | Əlavə təhsil alacaq şəxslərin müəyyən olunması, xarici dövlətlərin mülki aviasiya sahəsində səlahiyyətli orqanları, təşkilatları və tədris-təlim mərkəzləri ilə tədris və təcrübə mübadiləsi | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində ixtisaslaşmış kadrların təmin edilməsi prosesinin yekunlaşdırılması |
| **8.3. Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | | | | |
| 8.3.1. | Aviasiya sahəsində, o cümlədən hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində yeni normativ hüquqi aktların hazırlanması və mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | RİNN | "AZAL" QSC, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsində iştirak edən dövlət orqanları (qurumları) | 2025–2028 | Müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi | Beynəlxalq təcrübə nəzərə alınmaqla, normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı layihələrin hazırlanması | Normativ hüquqi akt layihələrinin razılaşdırmaq və təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.3.2 | Beynəlxalq səviyyədə qəbul edilmiş standartları nəzərə alaraq, sərnişinlər və hava gəmisinin heyəti haqqında ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının toplanılmasını, saxlanılmasını, mühafizəsini, təhlilini, istifadəsini və mübadiləsini tənzimləyən zəruri normativ hüquqi aktların hazırlanması | RİNN | Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsində iştirak edən dövlət orqanları (qurumları) | 2025–2028 | Məlumatların toplanılması, ötürülməsi, təhlili, istifadəsi, saxlanılması və qorunması ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | Normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı layihələrin hazırlanması | Normativ hüquqi aktların layihələrinin razılaşdırılması və təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |
| **8.4. Dövlət Proqramının həyata keçirilməsinə cəlb edilmiş rəsmiyyətin sadələşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) və xidmət təminatçılarının fəaliyyətinin əlaqələndirilməsi üçün rəsmiyyətin sadələşdirilməsi üzrə birgə fəaliyyətin təşkili** | | | | | | | |
| 8 4 | Azərbaycan Respublikasında sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının təhlili və emalı üzrə işlərin görülməsi | RİNN, DİN, DGK, DSX, DMX, VXSİDA, "AZAL" QSC | Aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2028 | Sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatları sistemini beynəlxalq standartlar əsasında qurmaq və inkişaf etdirmək | Sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının qüvvədə olan milli qanunvericiliyə və Beynəlxalq Mülki Aviasiya Təşkilatının, Ümumdünya Gömrük Təşkilatının və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının standartlarına və təlimatlarına əsasən ötürülməsinin təmin edilməsi | Sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının emalı və mühafizəsi üzrə işlərin görülməsi |
| 8 4 | Sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının ötürülməsi zamanı Beynəlxalq Mülki Aviasiya Təşkilatının "Doc 9303, müvafiq texniki vasitə ilə oxuna bilən səyahət sənədləri" Təlimatı ilə müəyyən edilmiş tələblərə uyğun olan və müvafiq texniki vasitələrlə oxuna bilən məlumatların ötürülməsinin təmin edilməsi | DİN, DSX, DMX, VXSİDA, "AZAL" QSC | RİNN, DGK | 2025–2028 | Qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | Sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi | Sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyatı məlumatlarının oxunaqlığının təmin edilməsi |

### AKRONİMLƏR

**RİNN – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi**
**DİN – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi**
**SN – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi**
**ETN – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi**
**ƏƏSMN – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**DGK – Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi**
**DMX – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti**
**DSX – Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti**
**AİBNDA – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi**
**VXSİDA – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi**
**"AZAL" QSC – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 58** **Bakı şəhəri, 5 mart 2025-ci il**

**“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 248 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 248 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində xaricdə təhsil alacaq gənclərin seçilməsi meyarları və prosedurları üzrə Qayda”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 1 iyun tarixli 217 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 659 (Cild I); 2024, № 3, maddə 307, № 5 (II kitab), maddə 611) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, preambulada və ikinci abzasda “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində xaricdə təhsil alacaq gənclərin seçilməsi meyarları və prosedurları üzrə Qayda” üzrə:

1.2.1. adında “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə əvəz edilsin;

1.2.2. 1.1-ci bənddə “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə, “və magistratura” sözləri “, magistratura və ya doktorantura” sözləri ilə əvəz edilsin;

1.2.3. 2-ci hissə üzrə:

1.2.3.1. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. Proqram iştirakçılarının doktorantura səviyyəsi üzrə seçimi aşağıdakı meyarlar üzrə aparılır:

2.2-1.1. namizədin cari tədris ilində magistratura səviyyəsi üzrə ali təhsil müəssisələrinin sonuncu tədris ilində təhsil alması və ya magistr ali elmi-ixtisas dərəcəsinə malik olması (xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınması);

2.2-1.2. xarici ali təhsil müəssisəsinə təhsil haqqı ilə bağlı depozitin ödənilməsi, namizəd tərəfindən transkriptin və ya əvvəlki təhsil səviyyəsi üzrə diplomun təqdim edilməsi istisna olmaqla, namizədin xarici ali təhsil müəssisəsinə şərtsiz qəbul olunması;

2.2-1.3. namizədin xarici ali təhsil müəssisəsində doktorantura səviyyəsi üzrə təhsil almaq istədiyi və ya təhsil aldığı ixtisasın Nazirlik tərəfindən müəyyən olunan prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının siyahısında göstərilən ixtisasa uyğun olması;

2.2-1.4. namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini dillər üzrə ümumavropa çərçivə sənədinə (The Common European Framework of Reference for Languages - CEFR) uyğun olaraq ən azı C1 səviyyəsində bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMER) malik olması;

2.2-1.5. namizədin Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisəsində təhsilini başa çatdırdıqdan dərhal sonra Azərbaycan Respublikasının ali təhsil müəssisəsində əsas iş yeri olmaqla ən azı 5 (beş) il müddətinə əmək fəaliyyətinə cəlb edilməsi üçün əmək müqaviləsi bağlamağa razılığının olması;

2.2-1.6. Azərbaycan Respublikası ali təhsil müəssisəsinin namizədin xarici ali təhsil müəssisəsində təhsili başa çatdıqdan dərhal sonra əmək fəaliyyətinə cəlb edilməsi üçün onunla əmək müqaviləsi bağlamağa razılığının olması;

2.2-1.7. namizədin elmi tədqiqat işlərini aparmaq bacarıqları;

2.2-1.8. namizədin məntiqi mühakimə yeritmək bacarıqları;

2.2-1.9. namizədin kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyəti.”;

1.2.3.2. 2.3.1-ci yarımbənddə “və 2.2.1–2.2.5-ci” sözləri “, 2.2.1–2.2.5-ci və 2.2-1.1–2.2-1.6-cı sözləri ilə əvəz edilsin;

1.2.3.3. 2.3.4-cü yarımbənddə “2.1.6-cı, 2.1.7-ci, 2.1.8-ci və 2.2.6-cı, 2.2.7-ci, 2.2.8-ci” sözləri “2.1.6–2.1.8-ci, 2.2.6–2.2.8-ci və 2.2-1.7–2.2-1.9-cu” sözləri ilə əvəz edilsin;

1.2.3.4. 2.3.6-cı yarımbəndə “2.2.5–2.2.8-ci” sözlərindən sonra “və 2.2-1.7–2.2-1.9-cu” sözləri, “2.2.1–2.2.4-cü” sözlərindən sonra “və 2.2-1.1–2.2-1.6-cı” sözləri əlavə edilsin;

1.2.3.5. 2.3.7-ci yarımbənddə “Respublikasının ali təhsil müəssisələrində bakalavriat və ya magistratura” sözləri “Respublikasında ali təhsil pilləsinin bakalavriat, magistratura və ya doktorantura” sözləri ilə, “və ya magistratura səviyyəsi” sözləri “magistratura və ya doktorantura səviyyələri” sözləri əvəz edilsin;

1.2.4. 3-cü hissə üzrə:

1.2.4.1. 3.1-ci bənddən “hər semestrinin” sözləri çıxarılsın;

1.2.4.2. 3.2-ci bəndin birinci cümləsində “və ya magistratura” sözləri “, magistratura və ya doktorantura” sözləri ilə əvəz edilsin;

1.2.4.3. 3.2.2.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.2.3-cü yarımbənd əlavə edilsin:

“3.2.3. doktorantura səviyyəsi üzrə təhsil almaq məqsədilə:

3.2.3.1. namizədin cari tədris ilində magistratura səviyyəsi üzrə ali təhsil müəssisəsinin sonuncu tədris ilində təhsil almasını təsdiq edən arayış və ya magistr ali elmi-ixtisas dərəcəsi haqqında dövlət sənədinin (xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınmasına dair şəhadətnamənin) surəti;

3.2.3.2. namizədin xarici ali təhsil müəssisəsinə qəbul edildiyini və ya namizədin xarici ali təhsil müəssisəsində təhsil aldığını təsdiq edən sənədin (ingilis, rus və türk dillərindən başqa digər dillərdə olan sənədlərin notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi) surəti;

3.2.3.3. magistratura səviyyəsi üzrə xarici ali təhsilə aid kvalifikasiyanın tanınmasına dair şəhadətnamənin (xaricdə ali təhsil aldıqda) surəti;

3.2.3.4. namizədin xarici ali təhsil müəssisəsində təhsil alma bacarıqları barədə rəyi özündə ehtiva edən ali təhsil müəssisəsi və ya elmi müəssisə və təşkilatda çalışan professor-müəllim heyətinin ən azı 2 (iki) üzvü tərəfindən verilmiş tövsiyə məktubunun (namizəd əmək fəaliyyəti ilə məşğul olduğu halda, məktublardan biri onun işəgötürəni tərəfindən təqdim edilə bilər) surəti;

3.2.3.5. namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatının surəti;

3.2.3.6. namizədin Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisəsində təhsilini başa çatdırdıqdan dərhal sonra Azərbaycan Respublikasının ali təhsil müəssisəsində əsas iş yeri olmaqla ən azı 5 (beş) il müddətinə əmək fəaliyyətinə cəlb edilməsi üçün əmək müqaviləsi bağlamağa razılığının olması barədə notariat qaydasında təsdiq edilmiş ərizəsi;

3.2.3.7. Azərbaycan Respublikası ali təhsil müəssisəsinin namizədin xarici ali təhsil müəssisəsində təhsili başa çatdıqdan dərhal sonra əsas iş yeri olmaqla əmək fəaliyyətinə cəlb edilməsi üçün onunla ən azı 5 (beş) il müddətinə əmək müqaviləsi bağlamağa razılıq məktubu;

3.2.3.8. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyun tarixli 1354 nömrəli Sərəncamı ilə təsis edilmiş “Yüksəliş” müsabiqəsinin qalibi olduğunu təsdiq edən sənədin surəti;

3.2.3.9. namizədin sağlamlığı haqqında arayışın surəti;”;

1.2.4.4. 3.7.1-ci yarımbənddə “və 3.2.2-ci” sözləri “, 3.2.2-ci və 3.2.3-cü” sözləri ilə əvəz edilsin;

1.2.5. 4-cü hissə üzrə:

1.2.5.1. 4.4.4-cü yarımbənddə, 4.15-ci, 4.17-ci və 4.19-cu bəndlərdə “2.1.6-cı, 2.1.7-ci, 2.1.8-ci və 2.2.6-cı, 2.2.7-ci, 2.2.8-ci” sözləri “2.1.6–2.1.8-ci, 2.2.6–2.2.8-ci və 2.2-1.7–2.2-1.9-cu” sözləri ilə əvəz edilsin;

1.2.5.2. 4.5.4-cü yarımbəndə “3.2.2.1–3.2.2.8-ci” sözlərindən sonra “və 3.2.3.1–3.2.3.9-cu” sözləri əlavə edilsin;

1.2.5.3. 4.16.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“4.16.1. bakalavriat və ya magistratura təhsil səviyyələri üzrə təhsil almaq istədiyi ixtisas üzrə namizədin bilik və bacarıqları, doktorantura səviyyəsi üzrə təhsil almaq istədiyi ixtisas üzrə namizədin elmi tədqiqat işlərini aparmaq bacarıqları – 20 bal;”.

**2** “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində xarici ali təhsil müəssisələrində təhsilin maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 1 iyun tarixli 218 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 660 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında, preambulada və ikinci abzasda “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində xarici ali təhsil müəssisələrində təhsilin maliyyələşdirilməsi Qaydası” üzrə:

2.2.1. adında “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə əvəz edilsin;

2.2.2. 1.1-ci bənddə “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə, “və magistratura” sözləri “, magistratura və ya doktorantura” sözləri ilə əvəz edilsin;

2.2.3. 1.2-ci bənddə “və magistratura” sözləri “, magistratura və ya doktorantura” sözləri ilə əvəz edilsin;

2.2.4. 1.3-cü bənddə “və magistratura səviyyəsi” sözləri “, magistratura və ya doktorantura səviyyələri” sözləri ilə əvəz edilsin;

2.2.5. 4.1-ci və 4.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“4.1. Bakalavriat və ya magistratura səviyyələri üzrə təhsil alan proqram iştirakçısı hər semestr və ya tədris ili başa çatdıqdan sonra 1 (bir) aydan gec olmayaraq tədris planında nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi barədə təhsil aldığı xarici ali təhsil müəssisəsinin arayışını, transkripti, doktorantura səviyyəsi üzrə təhsil alan proqram iştirakçısı isə hər tədris ili ərzində iş planının yerinə yetirilməsi barədə elmi rəhbərinin rəyini İdarəetmə Qrupuna təqdim edir.

4.2. Bakalavriat və ya magistratura səviyyələri üzrə təhsil alan proqram iştirakçısının təqdim etdiyi tədris planında nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi barədə müvafiq arayışa və transkriptə əsasən akademik borcu olduğu müəyyən edildikdə, doktorantura səviyyəsi üzrə təhsil alan proqram iştirakçısının tədris ili ərzində iş planının yerinə yetirilməsi barədə elmi rəhbərinin rəyinin mənfi olduğu müəyyən edildikdə təhsilin maliyyələşdirilməsi həmin hallar aradan qaldırılanadək İdarəetmə Qrupu tərəfindən dayandırılır. Qeyd edilən halların aradan qaldırıldığı tarixdən (akademik borcun ödənilməsi, elmi rəhbər tərəfindən müsbət rəyin əldə olunması) onun maliyyələşdirilməsi bərpa edilir.”;

2.3. həmin Qaydaya əlavə - “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində xarici ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələri üzrə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının yaşayış xərcləri ilə bağlı aylıq xərc normaları”nın adında “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə, “və magistratura” sözləri “, magistratura və ya doktorantura” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 62** **Bakı şəhəri, 6 mart 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci iI 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nın 3-cü hissəsinə aşağıdakı məzmunda əlli beşinci abzas əlavə edilsin:

“3-54/ Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 63** **Bakı şəhəri, 10 mart 2025-ci il**

**“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar, fəaliyyət sahələri və məhsullar”ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar, fəaliyyət sahələri və məhsullar” təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 64** **Bakı şəhəri, 10 mart 2025-ci il**

**“Sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olması və ya ola bilməsinə dair meyarlar”ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olması və ya ola bilməsinə dair meyarlar” təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 65** **Bakı şəhəri, 10 mart 2025-ci il**

**“Sazişlərin Azərbaycan Respublikası Rəqabət Məcəlləsində qeyd olunan şərtlərə cavab verməsinə, həmçinin texnologiyanın transferti, bazarın tədqiqi və inkişafı ilə əlaqəli sazişlərin istisna edilməsinə dair meyarlar”ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Sazişlərin Azərbaycan Respublikası Rəqabət Məcəlləsində qeyd olunan şərtlərə cavab verməsinə, həmçinin texnologiyanın transferti, bazarın tədqiqi və inkişafı ilə əlaqəli sazişlərin istisna edilməsinə dair meyarlar” təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 66** **Bakı şəhəri, 10 mart 2025-ci il**

**“Müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 67** **Bakı şəhəri, 10 mart 2025-ci il**

**“Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə uyğun olaraq maliyyə sanksiyalarının hesablanması və tətbiqi meyarları və Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə uyğun olaraq maliyyə sanksiyalarının hesablanması və tətbiqi meyarları və Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Vergi islahatları fəaliyyət mühitini şəffaflaşdırır

**Ölkəmizdə iqtisadiyyatın şəffaflaşması, sahibkarlığın güclənməsi və dayanıqlı gəlirlər sisteminin formalaşması ilə iqtisadiyyatın davamlı böyüməsi amilinə son illərdə daha çox önəm verilib. Aparılan vergi siyasəti də iqtisadi tənzimləmənin başlıca vasitələrindən biri olaraq iqtisadiyyatda müsbət dəyişikliklərə, "kölgə iqtisadiyyatı"nın "ağardılmasına" yönəldilib. Nəticədə mikro sahibkarlığın kiçik biznesə, kiçik sahibkarlığın isə orta biznesə çevrilməsi ilə iqtisadiyyatda keyfiyyət dəyişikliyi daha da sürətlənib.**



İqtisadiyyat Nazirliyinin bununla bağlı məlumatında bildirilir ki, dövriyyələrin şəffaflaşdırılması istiqamətində müvafiq tədbirlər görülməsi, gəlirlərin bəyanetmə səviyyəsinin yüksəlməsi, könüllü bəyanetmənin əhəmiyyətli dərəcədə artması, eləcə də vergi inzibatçılığında islahatların həyata keçirilməsi, iqtisadiyyatın ayrı-ayrı sektorlarında artım tempinin müşahidə edilməsi həm tədiyənin, həm də qeyri-neft sektorunda vergi daxilolmalarının artımına əlverişli şərait yaradır.

İqtisadiyyatda şəffaflaşma prosesinin davamlı olmasını təsdiqləyən göstəricilərdən biri də ƏDV-yə cəlb olunan dövriyyələrdə, eləcə də qeyri-neft sektorunun dövriyyələrində artım templərinin, habelə elektron qaimə-fakturalarla rəsmiləşən dövriyyələrin artım dinamikasının sürətlənməsi və bunun ümumi dövriyyədə xüsusi çəkisinin yüksəlməsidir.

Son 5 il ərzində reallaşdırılan islahatların nəticəsi kimi qeydə alınan davamlı artım iqtisadiyyatın dayanıqlığına, mürəkkəb iqtisadi şəraitdə dinamik göstəricilərin sabitliyinə və kənar təsirlərə qarşı davamlığına imkan verir. İqtisadi artım şəffaf biznes fəaliyyətinin təmin olunduğu şəraitdə formalaşır. Belə bir tendensiyanın davamlığı büdcə daxilolmalarının mütəmadi artması deməkdir. Bu isə cəmiyyətin rifahının, yüksək səviyyəli sosial xidmətlərin və firavan gələcəyin təminatıdır.

Reallaşdırılan layihələr sırasında qanunsuz sahibkarlığın qarşısının alınması, leqal fəaliyyətin vergi stimullaşdırılması mexanizmlərinin tətbiqi şəraitində biznesin şəffaflaşma çağırışlarına müsbət reaksiya verərək adaptasiya prosesinin diqqətdə saxlanılması kimi təşəbbüslər xüsusi yer tutub. Nəticədə, "kölgə iqtisadiyyatı"nın "ağarması" prosesi getdikcə sürətlənib. Bu, bəyan edilən dövriyyələrin, daxili istehsalın və ticarətin göstəricilərində, ticarət əməliyyatlarında sənədləşmənin səviyyəsində, elektron qaimələrin dövriyyədəki payında, bağlanmış əmək müqavilələrinin sayında özünü qabarıq büruzə verib. Bununla bağlı dövlətimizin başçısı çıxışlarının birində "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılmasının vergi daxilolmalarının artmasına əsaslı təsir göstərdiyini diqqətə çatdırıb: "Əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımların da böyük rolu olub".

Həyata keçirilən layihələrin nəticəsində son 6 ildə əmək müqavilələrinin sayında 82 faiz artım qeydə alınıb. Bu dövr ərzində özəl sektorda əməkhaqqı fondu 2,7 dəfə çoxalıb. Vergi sistemində islahatların həyata keçirilməsində əsas məqsəd isə həm şəffalaşmanı təmin etmək, qeyri-leqal əmək münasibətlərini leqal müstəviyə daşımaq, həm də yeni iş yerləri yaratmaq, eyni zamanda, dövlət büdcəsindən transportların həcmini azaltmaq olub.

İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, ölkədə bağlanmış əmək müqavilələrinin sayı cari il fevral ayının 1-nə 1 milyon 860 min 25 (2019-cu ilin əvvəli ilə müqayisədə 458 min 110 vahid çox) olub. Qeyri-neft sektorunun özəl bölməsində isə həmin göstərici 430 min 225 vahid artaraq 970 min 147-yə yüksəlib.

Vergi ödəyicilərinin fəallığı mühüm şəffaflaşma indikatorudur. Son 5 ildə fəal vergi ödəyiciləri və fəal obyektlərin artımı davam edib. Fəal vergi ödəyicilərinin sayı 1 yanvar 2025-ci il tarixinə 807 minə, fəal ƏDV ödəyicilərinin sayı 53 minə, fəal təsərrüfat subyektlərinin (obyektlərinin) sayı isə 217 minə çatıb. Vergi islahatlarının başlandığı 1 yanvar 2019-cu ildən indiyədək təkcə fəal vergi ödəyicilərinin sayında 1,8 dəfə artım baş verib. İlin nəticələrinə görə, dövlət büdcəsinin gəlirlərində qeyri-neft gəlirləri 51,6 faiz təşkil etməklə artıq neft-qaz gəlirlərini üstələyib.

Bağlanmış əmək müqavilələrinin sayında artım iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərlə bağlıdır. Cari ilin yanvar-fevral ayında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 3 milyard 122,9 milyon manatdan çox vergi daxil olub. Dövlət Vergi Xidmətindən verilən məlumata görə, qeyri-neft-qaz sektorundan daxilolmalar 2 milyard 114,1 milyon manat təşkil edib.

2025-ci ildə Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 15,5 milyard manat vəsaitin daxil olması proqnozlaşdırılır ki, bunun da 75,3 faizinin və yaxud 11,67 milyard manatının qeyri-neft-qaz, 24,7 faizinin və yaxud 3,83 milyard manatının isə neft-qaz sektorunun payına düşəcəyi gözlənilir. Bu il qeyri-neft-qaz sektoru üzrə vergi gəlirlərinin qeyri-neft ÜDM-nə nisbəti 12,7 faiz həddində proqnozlaşdırılır.

Beləliklə, sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması və "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması istiqamətində reallaşdırılan tədbirlər bir çox sahələrdə fəaliyyəti leqallaşdırmağa və fəal ödəyicilər kateqoriyasını artırmağa imkan verib. 2024-cü il iyun ayının 1-nə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayında 6,9 faiz, o cümlədən fiziki şəxslərin sayında 6,5 faiz, hüquqi şəxslərin sayında isə 9,7 faiz artım qeydə alınıb.




Vergi sisteminin indiki inkişaf dinamikasına heç də asanlıqla nail olunmayıb. Belə ki, son illərdə ölkəmizdə vergi siyasəti iqtisadiyyatın indiki tələblərinə uyğun şəkildə daim təkmilləşdirilib, sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə qanunvericilikdə bir sıra əsaslı dəyişikliklər edilib. Bütün bunlarla yanaşı, yuxarıda vurğulandığı kimi, "kölgə iqtisadiyyatı"na qarşı mübarizə metodları təkmilləşdirilib, şəffaflaşma prosesləri genişləndirilib, dövlət-biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub. Şəffalaşma sahəsində əsas indikator kimi aparılan islahatların nəticəsi olaraq qeyri-neft sektorunun özəl bölməsindəki məşğulluq səviyyəsi yüksəlib.

Qeyd edək ki, Azərbaycanda "kölgə iqtisadiyatı"nın miqyasının azaldılması sahəsində son illər əhəmiyyətli nəticələr əldə edilib. Dövlət başçısı tərəfindən müəyyənləşdirilən hədəflərə uyğun şəkildə vergi sistemində ciddi dəyişikliklər və yeni yanaşmalar tətbiq olunub, iqtisadiyyatda şəffaflaşma prosesləri genişləndirilib. Şəffaf münasibətlərin qurulması kontekstində atılan addımlarla dövlət – biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub. Yumşaq vergi nəzarəti, həmçinin yeni vergi güzəştləri mexanizmlərinin tətbiqi ilə biznesin "kölgə"dən çıxmasına nail olunub.

Azərbaycanda "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması sahəsində son illər əhəmiyyətli nəticələr əldə edilib. Dövlət başçısı tərəfindən müəyyənləşdirilən hədəflərə uyğun şəkildə vergi sistemində ciddi dəyişikliklər və yeni yanaşmalar tətbiq olunub, iqtisadiyyatda şəffaflaşma prosesləri genişləndirilib. Şəffaf münasibətlərin qurulması kontekstində atılan addımlarla dövlət – biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub. Yumşaq vergi nəzarəti, həmçinin yeni vergi güzəştləri mexanizmlərinin tətbiqi ilə biznesin "kölgə"dən çıxmasına nail olunub.

Yeri gəlmişkən, hazırda qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, maliyyə sanksiyaları yalnız hesabat dövrü üzrə vergi tutulan və ya vergidən azad edilən əməliyyatlar aparan, habelə vergi hesabatları vermək öhdəliyi olan vergi ödəyicisi tərəfindən vergi hesabatının əsas olmadan müəyyənləşdirilən müddətdə təqdim edilməməsinə görə tətbiq olunur. Hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatının olmaması barədə arayış verməyən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilmir.

Azərbaycanın vergi sistemində 2019-cu ildə başlanan və əmək bazarında təşviq mexanizminə əsaslanan islahatların nəticələri Harvard Universitetinin ekspertləri tərəfindən yüksək dəyərləndirilib. Universitetin "Growth Lab" Mərkəzində Azərbaycan iqtisadiyyatı üzrə diaqnostik qiymətləndirmə layihəsi çərçivəsində əmək bazarında həyata keçirilən islahatların nəticələrini təhlil edilib və bu məsələdə respublikamızın uğur hekayəsi müsbət nümunə kimi göstərilib. Ekspertlərin fikrincə, əmək bazarında təşviq siyasətinə əsaslanan islahatlar nəticəsində Azərbaycanda əmək münasibətlərinin leqallaşdırılması istiqamətində ciddi irəliləyişə nail olunub.

---

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "Facebook" hesabında ölkəmizdə səfərdə olan İspaniyanın Ticarət məsələləri üzrə dövlət katibi Mariya Amparo Lopes Senovilya ilə görüşdüyünü, iki ölkə arasında rəqəmsallaşma və nəqliyyat, o cümlədən Orta Dəhliz üzrə əməkdaşlıq məsələlərini müzakirə etdiyini bildirib.**

# İspaniya da Orta Dəhlizi dəstəkləyir



Paylaşımda, eyni zamanda, həftəlik uçuş tezliyinin artırılması, eyni zamanda, dəmir yolu və metro nəqliyyatı sahəsində İspaniya şirkətləri ilə əməkdaşlığa dair fikir mübadiləsi aparılması barədə məlumat verilib.

Xatırladaq ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov da İspaniyanın Ticarət məsələləri üzrə dövlət katibi Amparo Lopez Senoviya ilə görüşüb. Nazirlikdən bildirilib ki, görüşdə Azərbaycan – İspaniya biznes forumunun iqtisadi-ticarət əlaqələrinin, o cümlədən işgüzar dairələr arasında tərəfdaşlığın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Ölkəmizin İspaniya ilə əməkdaşlığın inkişafına önəm verdiyi, keçirilən görüşlərin və aparılan müzakirələrin bu baxımdan vacibliyi diqqətə çatdırılıb. Tərəflər Azərbaycan və İspaniya arasında Strateji İqtisadi Dialoqun 1-ci iclasının sahibkarlıq subyektlərinin fəaliyyətinin təşviqində əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

---

# İpoteka kreditinə dövlət zəmanəti

**Azərbaycanda dövlət xətti ilə ipoteka krediti götürənlərin sayı getdikcə artır. Təkcə onu qeyd etmək kifayətdir ki, İpoteka və Kredit Zəmanət Fondu tərəfindən indiyədək 53 min 14 borcalana 3 milyard 362 milyon 336 min manat kredit verib.**



Fondun məlumatına görə, ötən müddətdə 549 milyon 443 min manat məbləğində biznes kreditlərinə zəmanət verilib. Bunun da hesabına 6 min 720 mənzil kirayəyə verilib.

Xatırladaq ki, İpoteka və Kredit Zəmanət Fondu 2017-ci ilin sonunda "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu" açıq səhmdar cəmiyyətlərinin birləşdirilməsi ilə yaradılıb. Həmin qurumların hüquqi varisi olan fond milli maliyyə təsisatlarına uzunmüddətli subsidiyalaşdırılmış ipoteka kreditlərinin ayrılması və ucuz maliyyə resurslarına çıxışın təmin edilməsi ilə bağlı likvidlik dəstəyini verən dövlət agenti kimi fəaliyyət göstərir.

---

# ƏDV ödəyiciləri çoxalır

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, cari il martın 1-nə fəal vergi ödəyicilərinin sayı 0,2 faiz artaraq 808,4 min təşkil edib.**

Qeyd edək ki, həmin dövrdə fəal ƏDV ödəyicilərinin sayı isə 2,4 faiz artaraq 54,1 min olub. Həmin tarixə fəal təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 1,3 faiz artaraq 220,2-yə yüksəlib.




---

**İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki Pirallahı Sənaye Parkında indiyə qədər 61 milyon manatlıq məhsul istehsal edilib. Agentliyin məlumatında daha sonra qeyd edilir ki, parkda layihələrinin investisiya dəyəri 121 milyon manatdan çox olan 7 sahibkarlıq subyektinə rezidentlik verilib, 43 milyon manatdan çox investisiya yatırılıb, 160-dan çox daimi iş yeri yaradılıb.**

# Pirallahı Sənaye Parkının uğurları



Prezident İlham Əliyevin 14 sentyabr 2016-cı il tarixli sərəncamı ilə yaradılan və 30 hektar ərazini əhatə edən parkın fəaliyyəti əczaçılıq sənayesinin inkişafına, əhalinin dərman vasitələrinə olan tələbatının ödənilməsinə, yerli istehsalın və məşğulluğun təşviqinə əhəmiyyətli töhfələr verir.

Xatırladaq ki, sənaye zonalarına daxil olan sənaye parkları və məhəllələri, eləcə də aqroparklar kimi səmərəli mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, innovativ və rəqabətqabiliyyətli sənayenin inkişafına, istehsal sahəsində iş yerlərinin artırılmasına yeni imkanlar açır. Ölkədə sənaye parkı – Sumqayıt Kimya, Balaxanı, Qaradağ, Pirallahı, Hacıqabul, Mingəçevir, Naxçıvan, Ağdam və "Araz Vadisi İqtisadi zonası" sənaye parkları, 4 sənaye məhəlləsi – Neftçala, Masallı, Sabirabad və Şərur sənaye məhəllələri, həmçinin qeydiyyata alınmış 24 aqropark mövcuddur.

---

# Güzəştli yatırımların inkişafa töhfəsi artır

## *Ötən müddətdə bu imkandan 52 mindən çox sahibkar faydalanıb*



**İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit mexanizmlərindən indiyədək ölkə üzrə 52 mindən çox sahibkar faydalanıb. Bu fikri fondun İdarə Heyəti sədrinin müavini Eldar Həmidov Bakıda keçirilən 1-ci Milli Maliyyə Əlçatanlığı Forumunda səsləndirib. O deyib ki, ötən müddətdə iqtisadiyyatın müxtəlif sahələrində və fərqli iqtisadi rayonlarda fəaliyyət göstərən sahibkarlara 3,3 milyard manatdan çox güzəştli kredit verilib. "Biz hər il daha çox sahibkarın dövlət güzəştli kreditlərindən yararlanması üçün çalışırıq. Təsadüfi deyil ki, 2024-cü ildə fond tərəfindən güzəştli kredit alan sahibkarlıq subyektlərinin sayı 2023-cü illə müqayisədə 74,7 faiz artaraq 7 min 222-yə çatıb. Verilmiş kreditlərin məbləği isə 28 faiz artaraq 248 milyon manat olub", – deyə o əlavə edib.**

Qeyd olunub ki, 2024-cü ilin fevral ayından etibarən fond zəmanət subsidiya mexanizminin icrasına başlayıb. Bu mexanizm çərçivəsində işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəallığın bərpası və investisiya qoyuluşlarının sürətləndirilməsinə dəstək məqsədilə həmin ərazilərdə investisiya layihəsi həyata keçirən sahibkarların, bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərə zəmanət və subsidiyalar təmin olunur. E.Həmidov deyib ki, işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərən sahibkarlar tərəfindən indiyədək zəmanət, subsidiya mexanizmi üzrə 22 layihə ilə bağlı fonda müraciət daxil olub. Həmin layihələr üzrə sahibkarlara 32,3 milyon manat güzəştli kredit ayrılıb. Fond tərəfindən bu mexanizmlə maliyyələşdirilən layihələr sənaye, xidmət, turizm və kənd təsərrüfatı sahələrini əhatə edib. Şuşa, Xankəndi, Ağdam, Cəbrayıl və Xocalıda həyata keçirilmiş bu layihələrin ölkə iqtisadiyyatına töhfəsi getdikcə artır.

Hər il fondun müşahidə şurası tərəfindən prioritet istiqamətlərin müəyyənləşdirildiyini diqqətə çatdıran E.Həmidovun sözlərinə görə, 2025-ci il üçün təsdiqlənmiş prioritet istiqamətlərə sənaye məhsulları istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, logistik xidmətlər, anbar komplekslərinin yaradılması, balıqçılıq, rəqəmsal inkişaf və innovasiyaya yönümlü layihələr, eləcə də "yaşıl" layihələr, kütləvi informasiya vasitələrinin inkişafı yönümlü layihələr, turizm, təhsil, tibb sahəsi daxildir. O deyib ki, bu ildən xidmət, mədəniyyət və yaradıcı sahələr də fondun güzəştli kreditlərindən faydalana biləcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# “Gallup” yenə hərəkətə keçdi

## *Şirkətin İrəvan nümayəndəliyi konstitusiya dəyişikliyi məsələsində manipulyasiya edir*




**Ermənistan konstitusiyasında dəyişiklik edilməsi məsələsi bu ölkənin gündəmində olan məsələlərdəndir. Ölkədə ictimai-siyasi fəaliyyətlə məşğul olan şəxslər, deputatlar tez-tez bu istiqamətdə fikirlərini açıqlayırlar. Həmçinin, vaxtaşırı bununla bağlı sorğular keçirilir.**

Belə sorğulardan birinin nəticəsi dünən – martın 12-də açıqlanıb. “Gallup” Beynəlxalq Assosiasiyasının Ermənistan nümayəndəliyinin keçirdiyi sorğunun nəticələrini təqdim edən qurumun rəhbəri Aram Navasardyan bildirib ki, telefon sorğusu fevralın 27-dən martın 6-dək 1100 respondent arasında keçirilib. İddia edib ki, Ermənistan vətəndaşlarının əksəriyyəti konstitusiyanın dəyişdirilməsinin əleyhinədir. Onun sözlərinə görə, respondentlərdən buna zərurət olub-olmadığı soruşulub. Rəyi soruşulanların 18,4 faizi konstitusiyanın bəzi müddəalarının dəyişdirilməsinin vacibliyinə inandığını bildirib. 7,5 faizi tamamilə yeni konstitusiyaya ehtiyac olduğunu deyib. Eyni zamanda, respondentlərin 59,6 faizi qeyd edib ki, konstitusiya dəyişməz qalmalıdır, 14,5 faizi isə cavab verməkdə çətinlik çəkib.

Navasardyan xatırladıb ki, 2024-cü ilin yanvarında – baş nazir Nikol Paşinyan bu məsələni ilk dəfə açıqlayıb gündəmə gətirəndə rəqəmlər fərqli idi. Həmin vaxt 14 faiz bəzi müddəaların dəyişdirilməsinin zəruriliyindən, 13 faiz yeni konstitusiyanın qəbulundan danışıb, 34,2 faiz isə dəyişikliklərin əleyhinə olub. Digər 38 faiz isə cavab verməkdə çətinlik çəkib: “2024-cü ilin iyul ayında keçirilən sorğu zamanı mənzərə xeyli fərqli idi. O vaxt cəmi 11 faiz qismən dəyişiklik, 3 faiz isə yeni konstitusiyanın tərəfdarı idi. Hazırda vəziyyət aydınlaşıb və biz birmənalı şəkildə deyə bilərik ki, vətəndaşların əksəriyyəti konstitusiyanın dəyişdirilməsinin əleyhinədir”.

Qeyd edək ki, bu istiqamətdə Ermənistanda aparılan müzakirələr Azərbaycanda da diqqətlə izlənilir. Bu da səbəbsiz deyil. Məsələ ondadır ki, Ermənistanın 1995-ci il iyulun 5-də referendum yolu ilə qəbul olunmuş əsas qanununun preambula hissəsində 1990-cı il avqustun 23-də qəbul olunmuş Müstəqillik bəyannaməsinə istinad yer alır. Müstəqillik bəyannaməsi isə ölkəmizə qarşı ərazi iddialarını bilavasitə stimullaşdırır, ona rəvac verir. Bəyannamədə Ermənistan SSR və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ali sovetlərinin 1989-cu il 1 dekabr tarixli “Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında” birgə qərarına istinad olunur.

Sənədin mətnində 1915-ci ildə Osmanlı imperiyasında ermənilərin, guya, soyqırımına məruz qalmasından da bəhs edilir. Həmçinin 1915-ci il hadisələrinin beynəlxalq aləmdə “soyqırımı” kimi tanınmasına çağırış ünvanlanır. Beləliklə, aydın görünür ki, bəyannamədə nəinki Azərbaycana, eləcə də qardaş Türkiyəyə qarşı da birbaşa ərazi iddiası öz əksini tapıb. Bu baxımdan rəsmi Bakı hazırda İrəvandan Azərbaycana qarşı məlum iddiaları qanunvericilik müstəvisindən yığışdırmağı tələb edir. Zənnimizcə, bu da haqlı tələbdir. Çünki konstitusiya ölkənin əsas qanunudur. Bütün ölkələrdə konstitusiyadan irəli gələn addımların atılması hökumətlərin başlıca vəzifəsidir. Əgər biz əsas qanunda Müstəqillik bəyannaməsinə istinad aradan qaldırılmadan İrəvanla sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair sazişi imzalayacağıqsa, bunun gələcəyini də düşünməliyik. Gələcəkdə Ermənistanda radikal baxışlara malik, revanşist hisslərlə alışıb-yanan hansısa siyasi qüvvə hakimiyyətə gələ, imzalanmış və ratifikasiya edilmiş sazişi çox asanlıqla öz maraqlarına cavab verməyən sənəd kimi qəbul edə bilər. İddia edə bilər ki, konstitusiyanın preambulasında belə bir maddə, yəni Müstəqillik bəyannaməsinə istinad var.

Azərbaycan tərəfi bunu nəzərə alaraq, siyasi uzaqgörənlik nümayiş etdirir. Burada əsas məsələ bundan ibarətdir. Bu, rəsmi Bakı tərəfindən olduqca sadə, konkret, rasional yanaşmadır. Azərbaycanın 44 günlük Vətən müharibəsində zəfər çaldığını da nəzərə alaraq deməliyik ki, heç bir qalib dövlət ona qarşı işğalçı müharibə aparmış, soyqırımları törətmiş, ölkənin cəbhə xəttindən yüz kilometr uzaqlıqda yerləşən ikinci böyük şəhərini ağır silahlarla atəşə tutmuş, mülki insanları qətlə yetirmiş təcavüzkar ölkənin əsas qanununda məlum müddəaların qalması şərti ilə onunla sülh sazişinə imza atmaz.

Onu da bildirək ki, bu, əslində, yeni tələb deyil. Məsələ hər zaman Azərbaycan xarici siyasətinin gündəmində olub. Prezident İlham Əliyev hələ 2021-ci il sentyabrın 28-də “Anadolu” agentliyinə müsahibəsində demişdir: “Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq. Bir də siz də yaxşı bilirsiniz ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası var, ondan əl çəkməlidir. Öz konstitusiyasını yenidən işləyib qəbul etməlidir. Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir. Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər...”

Dövlətimizin başçısı bu məsələyə dair öz fikirlərini sonuncu dəfə 2024-cü il dekabrın 17-də “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsi zamanı açıqlayıb. Qeyd edib ki, erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var. Birincisi, öz konstitusiyasını dəyişməkdir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı Müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə obyektiv şərtdir. Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir.

Prezident qeyd etmişdi ki, prinsipcə bunlar hamısıdır, əgər bunlar həll edilsə, daha sülh sazişinin imzalanmasına heç bir maneə olmayacaq.

Rəsmi İrəvanın mövqeyinə gəldikdə isə N.Paşinyan 2024-cü il yanvarın 18-də ədliyyə nazirliyində keçirdiyi müşavirədə bəyan etmişdi ki, ölkənin hazırkı parlament idarəetmə formasını saxlamaqla “mövcud geosiyasi şəraitdə ölkənin həyat qabiliyyətini təmin edəcək” yeni konstitusiyaya ehtiyacı var. O, yeni konstitusiyanın qəbul edilməsinin zəruriliyini dünyada, regionda və Hayastanda baş verən dəyişikliklərlə əsaslandırmış və əlavə etmişdi ki, Ermənistan Respublikasının xalq tərəfindən səs verilmiş konstitusiyası olmalıdır. Yeni qanun heç bir şübhəyə yer qoymamalıdır. Bu, onun legitimliyini təsdiqləyən mühüm addım olardı. Paşinyanın sözlərinə görə, yeni konstitusiya xalq səsverməsinə çıxarılmalıdır ki, onun nüfuzuna heç bir şübhə yeri qalmasın.

2024-cü il sentyabrın 27-də BMT Baş Assambleyasının iclasında isə Paşinyan Azərbaycanla sülh müqaviləsi bağlamaq üçün ölkə konstitusiyasına dəyişiklik edilməsinin mümkünlüyünü açıqlamışdı.

N.Paşinyan sonuncu dəfə bu il fevralın 19-da xalqa müraciətində ölkənin yeni konstitusiyaya ehtiyacının olduğundan danışıb. Deyib ki, konstitusiyaya yanaşma kökündən dəyişməlidir. Yeni əsas qanunun qəbulunun strateji məqsədi də “dövləti olmayan millətin natamam davranışından xalqın dövlətçilik düşüncəsinə keçid”dir. Yəni, yeni konstitusiyanın təməlində öz dövləti olduğunu qəbul edən xalq anlayışı dayanmalı, özünü dövlətsiz sayan xalq anlayışından imtina edilməlidir. Paşinyanın sözlərinə görə, yeni konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi vacibdir, çünki əvvəlki bütün konstitusiya referendumları, ən azı ictimai rəydə ciddi legitimlik çatışmazlığından əziyyət çəkib. Nikolun elə həmin müraciəti zamanı Ermənistan hakimiyyətinin əvvəllər irəli sürdüyü 14 bənddən ibarət “Real Ermənistan” adlı ideologiya layihəsini təqdim etməsi də diqqəti cəlb edir.

Beləliklə, Ermənistan iqtidarından yeni konstitusiya ilə bağlı müsbət siqnalların verildiyi dövrdə “Gallup” Beynəlxalq Assosiasiyasının yerli nümayəndəliyinin keçirdiyi sorğu birmənalı qarşılana bilməz. Nəzərə almaq lazımdır ki, nümayəndəlik ölkənin sabiq prezidenti, 1990-cı illərin əvvəllərində Azərbaycana qarşı hərbi əməliyyatların bilavasitə iştirakçısı Robert Koçaryanın oğlu, parlamentin deputatı Levona yaxınlığı ilə seçilir. Buna görə də bu düşərgənin “Gallup”un adı ilə ictimai rəyi manipulyasiya etməyə çalışdıqlarını ehtimal etmək mümkündür. Ümumiyyətlə, bu şirkət hər zaman keçirdiyi sorğularda Paşinyanın reytinqini aşağı göstərməsi ilə də diqqəti cəlb edir. Hiss olunur ki, onlar bunda maraqlıdırlar. Elə budəfəki sorğuda da rəyi soruşulanların 46,5 faizinin baş nazirin işini mənfi, 19,1 faizinin isə olduqca mənfi kimi qiymətləndirməsi, cəmi 9 faiz respondentin Paşinyanın işindən razı qaldığının iddia olunması çox mətləblərdən xəbər verir.

**Bu istiqamətdə fikirlərini XQ ilə bölüşən politoloq Zaur Məmmədov** bildirdi ki, hazırda Ermənistanda əsas məsələlərdən biri konstitusiya dəyişikliyi və ya yenisinin qəbul edilməsinin nə zamana təsadüf edəcəyi ilə bağlıdır. Onun sözlərinə görə, artıq bu istiqamətdə Ermənistan iqtidarı ilə cəmiyyət arasında dialoq başlanıb: “Paşinyan bununla bağlı xalqa müraciətində Azərbaycana da mühüm ismarıclar vermiş oldu. Erməni müxalifəti yeni konstitusiyanın qəbul edilməsindən ciddi şəkildə narahatdır. Onlar, ümumiyyətlə, referendumun keçirilməsini istəmirlər. Amma erməni cəmiyyəti bilir ki, referendum istənilən halda keçiriləcək və yeni konstitusiyada Azərbaycana ərazi iddiaları, yəni Ermənistanın Müstəqillik bəyannaməsinə istinad olmayacaq. Belə olan təqdirdə cəmiyyətin məsələləri sakitcə seyr etməsi göstərir ki, Ermənistanda cəmiyyət hakim partiyanın, Paşinyan komandasının proqramını qəbul edir”.



Z.Məmmədov qeyd etdi ki, Ermənistanın İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətə düçar olması xalqın böyük əksəriyyətinin revanşist niyyətlərdən əl çəkməsinə gətirib çıxardı. Məhz buna görə də müharibəni uduzmuş Paşinyan 2021-ci ilin iyununda yenidən səslərin əksəriyyətini toplayaraq baş nazir seçildi. Həmin seçkilərin nəticəsi erməni cəmiyyətinin hakim partiyanın sülhlə bağlı çağırışlarını dəstəklədiyinin göstəricisi oldu. İndi isə söhbət yeni konstitusiyanın qəbul edilməsindən gedir. Çünki konstitusiya dəyişikliyi əsas qanunun preambulasını dəyişə bilməz. Preambula toxunulmazdır. Bu halda konstitusiya dəyişikliyi deyil, yeni əsas qanunun qəbulundan danışmaq daha doğru olardı.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan məhkəməsi bəşəri normalara sadiqdir

**Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam etdirilir. Cinayət işində 15 nəfər ittiham olunur və onlar 2023-cü il sentyabrın 19-da keçirilən antiterror tədbirlərindən sonra həbs ediliblər. Aralarında Qarabağda yaradılmış qeyri-qanuni qurumun “prezidenti” və “naziri” vəzifələrində çalışmış şəxslər var. Bu şəxslərin bir çoxu Ermənistan vətəndaşları olsalar da, cinayətlər Azərbaycan torpaqlarında baş verib.**



Məhkəmə 1389 iş üzrə aparılır və beynəlxalq hüquqa uyğun keçirilir. Təqsirləndirilən şəxslər vəkillə təmin edilib. Həm ibtidai istintaqın gedişində, həm də sonra təqsirləndirilən şəxslər tərəfindən verilmiş vəsatət və şikayətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib. İş üzrə təqsirləndirilən şəxslərə və cinayət prosesinin digər iştirakçılarına ibtidai istintaqın qurtarması barədə məlumat verilib. Onlar cinayət işinin bütün materialları ilə tanış edilib.

Eyni zamanda, çoxsaylı cinayətlər törətməkdə ittiham olunan digər şəxslər barəsində cinayət işi ayrıca icraata götürülərək ibtidai istintaq davam etdirilir.



Azərbaycan Respublikasının Baş Prokurorluğu bu istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şahid qismində bir çox şəxslərin Ermənistan Respublikasının ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Hayastanın aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edib.

Onu da qeyd edək ki, cinayətdə ittiham olunan şəxslərin ailələri ilə telefon əlaqələri qurması üçün şərait də yaradılıb. Bütün bunlar onu göstərir ki, Azərbaycan Respublikası haqq-ədalətə, beynəlxalq hüquqa sadiqdir. Amma bunlar Hayastanın Qərb havadarlarını qıcıqlandırır. Onlar məhkəmə prosesini gözdən salmaq üçün müxtəlif açıqlamalar verirlər. Sonuncu belə açıqlamalardan biri İsveç parlamentinin üzvü Erik Helsborndan gəlib. O saxtakarcasına iddia edib ki, Azərbaycanda qanunun aliliyi yoxdur, ölkədə heç bir məhkəmə prosesi azad və ədalətli deyil. Bununla da, E.Helsborn reallığı təhrif edərək erməni separatçılarının və müharibə canilərinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətləri təmizə çıxarmağa çalışır. Hətta Azərbaycanı beynəlxalq hüquq normaları və beynəlxalq strukturlar çərçivəsində üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq ermənilərin məhkəməsini dayandırmağa və onları azad etməyə çağırıb.

İsveçli parlamentari martın 10-da Azərbaycan parlamentinin yeddi deputatının imzaladığı “Azərbaycan və İsveç arasında parlamentlərarası əlaqələr üzrə işçi qrupu”ndan elektron məktub aldığını da bildirib: “Bu, İsveç–Ermənistan dostluq qrupunun mənim və digər 5 parlament üzvü tərəfindən imzalanmış erməni hərbi əsirlər və Bakı rejiminin onlara qarşı apardığı məhkəmələrlə bağlı bəyanatına cavab idi. Elektron poçtu onlayn oxumaq olar, mən onu burada təkrar çap etməyəcəyəm. Sadəcə, onların bizə ünvanladığı tənqidlərin mahiyyəti ilə bağlı bir sətri paylaşacağam: “Azərbaycan məhkəmə sistemi tam beynəlxalq standartlara uyğun fəaliyyət göstərir və bunun əksi ilə bağlı istənilən iddia böhtandan başqa bir şey deyil”.

Əslində, E. Helsborn yenə də üstüörtülü məhkəmə sistemimizə şübhə ilə yanaşır. Amma məhkəməmizin ədalətinə kimsə şübhə edə bilməz. Artıq E. Helsborn kimi saxtakarlar bunu başa düşməlidir. Onun kimilər Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisinin Ermənistan tərəfindən 30 illik işğalının, dinc azərbaycanlı sakinlərə qarşı saysız-hesabsız hərbi cinayətlərin, etnik təmizləmələrin və insan hüquqlarının kütləvi surətdə kobudcasına pozulmasının üstündən sükutla keçə bilməyəcəklər. Ortada konkret cinayətlər var. İnanırıq ki, məhkəmə bu cinayətləri bir-bir üzə çıxaracaq. Məktubda deyilir: “Heç bir xarici təhdid və müdaxilə bizim qanunun aliliyini qorumaq və ölkəmizə qarşı törədilmiş cinayətlərə görə məsuliyyəti təmin etmək əzmimizə xələl gətirə bilməz. Hər kəs bu reallığı qəbul etməlidir ki, Azərbaycan öz xalqını və ərazisini qanunsuz işğaldan və separatizmdən qorumaq üçün suveren hüquqları daxilində hərəkət etmişdir və hərəkət edir”.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin üzvü Cavid Vəliyev** XQ-yə bildirdi ki, bu şəxslərin qanunsuz hərəkətləri nəticəsində Azərbaycana 100 milyard dollardan çox ziyan dəyib, on minlərlə mülki şəxs və hərbçi həyatını itirib, ətraf mühitə ciddi zərər dəyib. Bu cinayətlərdə Ermənistan da məsuliyyət daşıyır: “Məhkəmə işini əhəmiyyətli edən, cinayət törətməkdə ittiham olunanların ayrı-ayrı cinayətlərinin araşdırılması ilə yanaşı, Ermənistan dövlətini məsuliyyətə cəlb edə biləcək mümkün nəticələrin olmasıdır. Azərbaycan Baş Prokurorluğu proseslə bağlı ilkin bəyanatında bildirib: “Ermənistan Respublikasının birbaşa və tam dəstəyi ilə Azərbaycan Respublikası ərazisində yaradılmış saxta “Dağlıq Qarabağ Respublikası” və onun qanunsuz qüvvələrinin Azərbaycana qarşı qanunsuz fəaliyyəti ilə bağlı material məhkəməyə göndərilib”.

Bu bəyanat o deməkdir ki, Azərbaycan Baş Prokurorluğu təkcə həbs edilmiş şəxslərin deyil, həm də Ermənistan Respublikasının rəhbərləri hərəkətlərinə görə birbaşa məsuliyyət daşıdığını irəli sürür. Azərbaycanda məhkəmə prosesi davam etdiyi zamanda Ermənistan parlamentinin spikeri Alen Simonyanın verdiyi “Qarabağ erməniləri Ermənistan Respublikasının verdiyi silahlarla döyüşmək əvəzinə, bölgəni tərk etdilər” açıqlaması Ermənistan dövlətinin bu cinayət işində iştirakını və məsuliyyətini bir daha sübut edir.

Alen Simonyanın bəyanatı bu səpkidə ilk açıqlama deyil. Ondan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanın və digər Ermənistan rəsmilərinin bəyanatlarında da bununla bağlı əsaslı sübutlar səsləndirilmişdir. Qarabağ işğaldan azad edildikdən sonra Azərbaycan həmin ərazilərdəki qondarma struktura Ermənistanın birbaşa rəhbərlik etdiyi və göstərişlərin İrəvandan gəldiyinə dair kifayət qədər sübut toplayıb.

İkinci Qarabağ müharibəsi zamanı mülki insanların həlak olması ilə nəticələnən Bərdə və Gəncəyə raket hücumlarının sifarişçisi də Ermənistandır. Həbs edilən şəxslərdən Arayik Arutyunyan məhkəməyə ifadəsində bu sözləri deyib: "Azərbaycan xalqı arasında belə bir fikir var ki, bu əmri mən vermişəm. Bu qərarı mən verməmişəm... Mənim buna səlahiyyətim yox idi". Təbii ki, Arutyunyanın açıqlaması Gəncə və Bərdəyə, əslində, kimin raket zərbələri endirmək əmrini verməsi ilə bağlı suallar yaratdı.

Hərbi ekspertlərin fikrincə, İkinci Qarabağ müharibəsi zamanı Gəncə və Bərdə şəhərlərinə buraxılan “Skud”, “Toçka-U” və “Smerç” də daxil olmaqla ballistik raketlər yalnız erməni baş komandanının icazəsi ilə buraxıla bilərdi. Mətbuatda gedən xəbərlərdə deyilir ki, müharibə zamanı işğal olunmuş ərazilərdə Azərbaycan Silahlı Qüvvələri tərəfindən 5 ədəd “Smerç” raket kompleksi vurulub və bu raketlər ancaq Ermənistanın baş komandanının razılığı ilə Azərbaycan sərhədlərini keçə bilərdi. Bundan əlavə, Azərbaycan Ordusu bu raketlərin bir qismini Ermənistan sərhədləri daxilində məhv edərək, bu raketlərin Ermənistan ərazisindən buraxıldığını beynəlxalq ictimaiyyətə nümayiş etdirən videogörüntülər yayıb. Hətta Şuşanın azad edilməsi zamanı Azərbaycan əsgərlərini kütləvi şəkildə tələf etmək məqsədilə şəhərə “İsgəndər-E” raketi atılıb, lakin uğursuz yekunlaşıb.

Məhkəmə prosesi isə şəffaf gedir. Təqsirləndirilən şəxslərin ifadəsi və təqdim edilən sübutlardan məlum olur ki, Azərbaycanın 20 faiz ərazisinin işğalı Ermənistanın rəhbərliyi tərəfindən planlı şəkildə həyata keçirilib. Tezliklə cinayət törətməkdə ittiham olunan şəxslər öz cəzalarını alacaqlar.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Rövşən Behcət – 80

# “Göygöl”dən ucalan səda

**Mənası şadlıq, sevinc, gözəllik anlamına gələn “Behcət” soyadlı Rövşən (işıqlı, aydın) özünün səs möcüzələri ilə könüllərə işıq salan, sevinc bəxş edən sənətkar olub. Səhnəni vaxtsız tərk etsə də, 14 ildən bəri aramızda olmasa da, yaddaşlarda özünə “taxt-tac” quranlardandır.**



Əslən Güney Azərbaycan kökənli Rövşən Behcətin atasıgil 1938-ci ilə qədər Gəncədə yaşayıb. Amansız repressiya ucbatından Təbrizə köçmək zorunda qalıblar və Rövşən də 1945-ci il martın 13-də orada anadan olub. Ailə bir də 23 illik ayrılıqdan sonra, onun 16 yaşı olanda Gəncəyə köçə bilib. Dayıları, bibiləri burada yaşadıqları üçün köçkünlük əziyyəti çəkənlərə həyan olublar. Rövşən gündüzlər alüminium zavodunda fəhlə işləyib, orta təhsilini isə axşam məktəbində alıb. Bir gün gənclərin yığışdığı məclisdə o zamanın məşhur mahnılarından olan “Ya Mustafa”nı oxuyub və zavodun bədii özfəaliyyət kollektivinə üzv qəbul edilib.

Rövşənin burada bənzərsiz ifaları bütün şəhərə səs salıb. Sonra Gəncədə yaranan “Göy göl” mahnı və rəqs ansamblının solisti olub. 25 ilə qədər bu kollektivlə çalışıb. Təsadüfi deyil ki, Rövşən Behcət deyəndə dərhal bəstəkar Fikrət Əmirovun adını daşıyan “Göy göl” ansamblı, “Göy göl” deyəndə isə onun yaradıcısı, Əməkdar artist Fikrət Verdiyevlə bərabər, Rövşən Behcət yada düşür. Özünəməxsus səs tembri olan müğənninin ifasında bir çox mahnılar, muğamlar, təsniflər və s. “Qızıl fond”da saxlanılır.

İlk konsertində səhnəyə çıxınca tamaşa salonunun bütünlüklə dolu olduğunu, tanınmış müğənnilərin də onu maraqla süzdüyünü görərək çaşıb. Amma özünü tez toparlayıb və səsi ilə, zəngulələri ilə, eləcə də yaraşıqlı görkəmi ilə heyranlıq yaradıb. Tezliklə daha bir konsert anşlaqla keçib, ardınca 3 gün dalbadal onun ifaları “Göy göl”ü alqış dalğalarına qərq edib. 1968-ci ildə Rövşən Behcət Ümumdünya Gənclər Festivalının ilk onluğuna düşüb.

Görkəmli bəstəkar Cahangir Cahangirov məxsusi onun üçün “Göygöl” mahnısını yazıb. Bu mahnıya, eləcə də “Çahargah” və “Dəşti”yə özünəməxsus ifa tərzini, “Gəl, inad etmə”, “O yana döndər məni”, “Dözə bilmirəm”, “Cavab gözləyirəm”, “Hacıkəndə gedən yollar”, “Dalğalar”, “Vətən qızları” mahnılarına şirin səsini, xoş avazını qatan sənətçini xiridarlar ürəkdən təqdir ediblər. Tez bir zamanda sorağı aləmə yayılıb. Bu məşhurluqdan istifadə edib asanlıqla Bakıya gələ, böyük şəhərin zəngin mədəni həyatında özünə yer tapa bilərdi. Amma “Göy göl”ü, şöhrət tapdığı, ailə qurub xoşbəxtliyə qovuşduğu Gəncəni, qayğıkeşi Fikrət müəllimi tərk etməyib. Doğma ansamblla dəfələrlə xarici qastrollarda olub, rövnəqləndirdiyi məclislər, konsertlər ara verməyib.

***Ey gül sənə dünyada bərabər yenə varmı,***
***Səndən də gözəl sevgili-dilbər yenə varmı?..***

Necə deyərlər, gözünü yumub səsini “dara çəkməsi”, özəl zəngulələri, zil-bəm qalxıb-enmələri, təsnifə özünəxas keçidi ifa boyunca dönə-dönə alqışlandığı xatirimizdədir. O oxuduqca salondan izləyən Dədə Süleyman, Niyaməddin Musayev və Tələt Qasımov bir-birinin üzünə baxıb “Gör, neylədi!”, “Halal olsun!” deməkdən özlərini saxlaya bilmirdilər.

Rövşən Behcət dəvət olunduğu el məclislərindən də imtina etməyib. Toyları qonaqların ayaq üstə dinlədiyi konsertlərə çevirməyi çox olub. Ömrünün son dövrlərində də ifaları ilə heyrət doğurub.

***Bilirsənmi heç necə,***
***Qəmim dönüb sevincə.***
***Yuxumdasan hər gecə***
***Mən gecələr yatanda.***

Musiqisi Şahid Əbdülkərimova, sözləri Ofelya Hacıyevaya məxsus olan, İslam Rzayevin və Səxavət Məmmədovun möhürünü vurduğu “Şirin yuxun olaydım” mahnısını Rövşən Behcət 3-cü möhürlə daha da şərəfləndirib. Səsindəki Təbrizdən gəlmə izaholunmaz yanğı, qeyri-adi boğazlar, xalq ruhunda şirinlik ona əl çalanların ovuclarının içini qıpqırmızı qızardıb. Məşhur qarmon ifaçısı Xanlar Cəfərov oğlunun toyunda həmin mahnını oxumuş müğənniyə ünvanlanan sürəkli alqışlar səngiyincə fəxrlə deyib ki, görürsünüzmü, Rövşən həmin Rövşəndir!

Gözəl sənətçinin öz nəvəsinin toyu da elə konsertə dönüb. Həmin məclisə çox sayda musiqiçilər təşrif buyuraraq, baba sevincinə ürəkdən şərik olublar. Rövşən Behcət özü isə toyu “Ana Kür”lə elə başlayıb, sənətçi dostları üçün elə müqəddimə edib ki, əsl möcüzə yaradıb .

Təəssüf ki, “Xatirəsən, yar” adlı məşhur mahnısında oxuduğu kimi, Behcət özü də çox erkən xatirəyə dönür. Xəstəlik üzündən cəh-cəhini dayandırmalı olur. Bu yerdə “Sən saydığını say…” məsəli yada düşür. 1993-cü ildə ünlü sənətçi iflic keçirir və məcburən sənət fəaliyyətini dayandırmalı olur. Vaxtilə televiziyada birgə çalışdığım rejissor Miri Rzayev şair-jurnalist Camal Yusifzadənin ssenarisi ilə onun həyat və yaradıcılığından bəhs edən “Yorulmamışam” adlı təsirli bir film ekranlaşdırıb – baxanda kövrəlməmək olmur.

Bir ara Bakıda “Neftçi” adlı ansamblda çalışsa da, can ağrısı müğənnidən əl çəkməyib və Rövşən Behcət uzun sürən xəstəlikdən sonra 2011-ci il avqustun 19-da dünyasını dəyişib. Gəncədəki “İmamzadə” qəbiristanlığında torpağa tapşırılıb.

***Ə.DOSTƏLİ***
***XQ***

# Suverenliyimizin tam bərpası müstəqilliyimizin təntənəsidir

**Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Gənclər Evində “Konstitusiya və Suverenlik İli” münasibəti ilə keçirilən dəyirmi masada Azərbaycanın dövlət suverenliyinin konstitusiya əsasları və ölkəmizdə demokratik-hüquqi dövlət quruculuğunun uğurları diqqət mərkəzində olub.**



Məclisdə əvvəlcə suverenliyimizin konstitusiya təminatı ilə bağlı keçilən yoldan bəhs edən film nümayiş etdirilib.

Müzakirəni giriş sözü ilə açan İcra Hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, bu ilin noyabrında Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 ili, Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü tamam olur. Prezident İlham Əliyev bu münasibətlə 2025-ci ili ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edib. Mingəçevir ŞİH-in əlamətdar illə bağlı tədbirlər planında şəhərdə silsilə konfranslar, forumlar, dəyirmi masalar, seminarlar, müsabiqələr, mədəni-kütləvi toplantılar keçirilməsi nəzərdə tutulub.

Dəyirmi masada şəhər prokurorunun müavini Balahüseyn Şabanovun, YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayevin, Mingəçevir Dövlət Universitetinin hüquqşünası Polad Atayevin, orta məktəbin tarix müəllimi Afaq Mustafayevanın konstitusiya və suverenlik mövzusunda məruzələri dinlənilib. Bildirilib ki, dövlət başçısının “Konstitusiya və Suverenlik İli” barədə sərəncamında qeyd edildiyi kimi, əsrlər boyu milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış xalqımız XX əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa edib.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış, 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan dövlətinin ilk konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edib. 2020-ci ilin payızında aparılmış 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində isə Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş ərazilərdə də bərqərar olub.

Natiqlər vurğulayıblar ki, suverenliyimizin tam bərpası müstəqilliyimizin tarixi təntənəsi olub. Bu münasibətlə dövlət başçısı 20 sentyabrı Dövlət Suverenliyi Günü elan edib. Bütün bunlar Azərbaycanı dünyada yeni reallıqların müəllifi kimi tanıdıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Gəncə Teatrının ahısxa aktyoru

**Respublikanın Əməkdar artisti Əlican Əzizov tipik, xarakterik rolları ilə tanınan, realist yaradıcılıq üslublu sənət məktəbi keçmiş, eyni zamanda, romantikaya meyilli aktyorlarımızdandır.**



Əlican Süleyman oğlu Əzizov 1952-ci ildə Özbəkistanın Fərqanə vilayətinin Vadil rayonunda ahısxalı türk ailəsində dünyaya gəlib. 1959-cu ildə onlar Azərbaycana köçüblər. Əlican orta təhsilini Gəncədə alıb. Sonra İncəsənət İnstitutunun “dram və kino aktyorluğu” fakültəsini bitirib. 1975–1998-ci illərdə Gəncə Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərib, paralel olaraq, 2008-ci ilədək Dövlət Nizami Poeziya Teatrında çalışıb. Daha sonra bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olub.

O, 1978-ci ildə “Yaradıcı gənclərə baxış” müsabiqəsinin qalibi, 1985-ci ildə isə respublikada “Ən yaxşı kişi rolunun ifaçısı” olaraq tanınıb. 2000-ci ildə “Respublikanın Əməkdar artisti” fəxri adına, 2006-cı ildə isə Prezident mükafatına layiq görülüb.

Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində A.Şaiqin “Gözəl bahar”ında Külək, C.Cabbarlının “1905-ci ildə” pyesində Volodin, “Almaz”da prokuror, H.Cavidin “Maral”ında Arslan bəy, S.Vurğunun “Vaqif”ində Vidadi, “Fərhad və Şirin”də Azər baba kimi obrazları ustalıqla yaradıb. Bu sıraya Z.Xəlilin “Şairin yuxusu”nda Xaqani, B.Vahabzadənin “Yağışdan sonra”sında Rüstəm, İ.Coşqunun “Komsomol poeması” pyesində Bəxtiyar, M.İbrahimovun “Həyat”ında Akif, Y.Əzimzadənin “Anacan”ında komissar, A.Məmmədovun “Ulduzlar görüşəndə” əsərində Mövlanə Cəlaləddin, “Bəraət”də Temraz, “Kişilər”də Cəlilzadə, “Dəli Domrul”da Dondar, İ.Şıxlının “Dəli Kür”ündə Çernyayevski, N.Həsənzadənin “Atabəylər”ində Qızıl Arslan, Ə.Hacızadənin “İtkin gəlin”ində Yusif, İ.Əfəndiyevin “Üçatılan”ında Alış, Ə.Səmədlinin “Ölüm hökmü”ndə kişi surətləri də aiddir. İstər klassik, istərsə də müasir dövr dramaturqlarının pyeslərində onun rolları maraqla qarşılanıb.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artist Xəzər Gəncəli onun haqqında deyir: “Bildiyiniz kimi, Səməd Vurğunun “İnsan” pyesi müəllifin sağlığında, həm də onun haqq dünyasına qovuşmasından sonra bir neçə dəfə tamaşaya qoyulub. 1973-cü ildə bu pyesə görkəmli rejissorumuz, Xalq artisti Mehdi Məmmədov Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində yenidən müraciət etdi. Biz aşağı kurs tələbələri də bu tamaşada kütləvi səhnələrdə oynamaq üçün məşq proseslərinə cəlb edildik. Bizdən yuxarı kursda oxuyan Əlican Əzizovla ilk tanışlığım məhz o zaman başladı. O, həddən artıq təvazökar, səmimi və çox istedadlı bir gənc idi. Səhnələrdə bizimlə birlikdə iştirak edər, təcrübəsini həvəslə paylaşardı. Onun istiqanlılığını və xüsusi özünəxas olan insani keyfiyyətlərini heç zaman unuda bilmərəm”.

Əlican Əzizovun əcnəbi müəlliflərin əsərlərində ifa etdiyi maraqlı surətlər silsiləsi də fərqli idi. Məhz bu obrazlarda aktyorun özünəməxsus cəhətlərindən biri də hadisələrin yüksək psixoloji dramatik məqamlarında daxili ehtirasını səfərbər etməklə obrazların mənəvi gərginliyini üz cizgilərində qabarıq formada canlandırması, mürəkkəb vəziyyətləri mənalı pauzalarla oynamağa üstünlük verməsi idi. Əlican Əzizov məhz səhnə əsərinin məzmunundan çıxış edərək obrazın fəlsəfi-psixoloji mahiyyətinə uyğun, tamaşanın janrı ilə həmahəng səsləşən forma qurmağı səhnədə ustalıqla bacarırdı.

Əlican Əzizov Gəncə Dövlət Nizami Poeziya Teatrının səhnəsində də maraqlı obrazları ilə diqqət mərkəzində olmağı bacarıb. “Şeyx Şamil”də İmam Şamil, “Memarın məhəbbəti”ndə aparıcı və Qızıl Arslan, “Gəncə qartalı”nda Axistan, “Şəbi-hicran”da Füzuli, “Fərhad və Şirin”də Xosrov, “Sevgi dastanı”nda Fərhad, “Ədalət sorağında”da İsgəndər, “Xəmsə”də Fərhad obrazları gurultulu alqışlarla qarşılanıb. Aktyor, həmçinin bu teatrın səhnəsində yaradıcılıq imkanlarını quruluşçu rejissor kimi də sınayaraq bir neçə səhnə əsərini uğurla tamaşaya hazırlayıb.

Bu gün Əlican Əzizov Azərbaycanfilmin istehsalı olan “Süd dişinin ağrısı” (1987), “Dairə” (1989), “Şahid qız” (1990), “Aşiqlər” (2008), “Cavad xan” (2009), “Fədakar” (2015) filmlərində də maraqlı obrazları ilə yaddaşlarda yaşayır.

Respublikanın Əməkdar artisti Əlican Əzizov 2021-ci il fevralın 9-da 68 yaşında Türkiyə Cümhuriyyətinin Bursa şəhərində vəfat edib.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

# “Sabahın alimləri”nin ilk axtarışları



**Elm və təhsil sahəsində istedadlı şagirdlərin üzə çıxarılmasını hədəfləyən müsabiqənin rəsmi açılış mərasimi dünən Bakı Ali Neft Məktəbində keçirilib. Mərasimdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev, elm və təhsil sektoru nümayəndələri, deputatlar, jurnalistlər iştirak ediblər.**

Fuad Qarayev çıxışında müsabiqənin builki final mərhələsində əvvəlki illərə nisbətdə daha çox layihənin yarışacağını bildirdi. Onun sözlərinə görə, müsabiqəyə şagirdlər tərəfindən 654 layihə təqdim edilib, lakin onlardan 138-i finala vəsiqə qazanıb: “Finalda 110 layihə qrupla, 28 layihə isə fərdi şəkildə iştirak edir. Müsabiqədə şagirdlər riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri, robototexnika və süni intellekt üzrə elmi-tədqiqat işləri hazırlayırlar. Hər istiqamət üzrə ən az 6 layihə qalib elan ediləcək. Martın 14-ü qaliblər təltif olunacaqlar”.

Firudin Qurbanov dedi ki, bizi gələcəkdə hansı texnoloji inqilabların gözlədiyini demək çətindir, amma sivilizasiya olduqca, həmin şəraitə uyğunlaşmaq lazımdır: “Mütləq robotlaşma özünü açıq şəkildə büruzə verəcək. İnsan zəkası bütün problemlərin fövqündə dayanır. Gələcəkdə elmin inkişafı da insan zəkasından asılı olacaq. Müasir dövrdə yaşayıb yaratmağa hazır olmaq lazımdır. O insanlar ki, gələcəkdə seçdiyi sahədə peşəkar olacaq, onlar zamanın çağırışlarına davam gətirə və ölkənin inkişafına dəstək ola bilərlər”.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qeyd etdi ki, bu müsabiqə şagirdlərə elmi-tədqiqat işlərində bacarıqlarını nümayiş etdirmək imkanı yaradır və gələcəkdə onların beynəlxalq səviyyədə uğur qazanmasına təkan verir. Rektor “Sabahın alimləri” müsabiqəsinə qatılanların arasında qızların sayının ildən-ilə artmasının sevindirici hal olduğunu vurğuladı. O, müsabiqənin 14 ildən bəri keçirilməsini üstünlük kimi qiymətləndirdi.

“Biz gənc nəsli elmə yönləndirmək üçün addımlar atmalıyıq. Şagirdlərdə təfəkkür, təhlil və araşdırma qabiliyyətini artırmaq lazımdır. “Sabahın alimləri” kimi müsabiqələrin keçirilməsi gənclərdə rəqabət ruhunu və potensiallarını ortaya qoyur. Bəzən gənclər çox potensiallı olsalar da, özlərini ifadə edə bilmirlər. Gənclərin bacarıqlarının ortaya çıxarılması üçün bu cür müsabiqələr vacibdir”. – Bu fikirləri isə Milli Məclisin deputatı Ceyhun Bayramov səsləndirdi.

Tədbirdə INTEL ISEF beynəlxalq layihə müsabiqəsinin bürünc medal mükafatçısı İbrahim Allahverdiyev öz təcrübələrini bölüşdü. Çıxışlar yekunlaşdıqdan sonra elmi-tədqiqat institutlarının əməkdaşları, məktəb direktorları, doktorantlar, tələbələr və şagirdlər üçün xüsusi sərgi təqdim olundu. Müsabiqənin üç gün davam edəcəyi nəzərdə tutulub.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Beynəlxalq aləm

# ABŞ və Ukrayna atəşkəsə razılaşdı

## Bəs Rusiya?



**Martın 11-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində Amerika və Ukrayna nümayəndə heyətlərinin görüşü keçirildi və bu görüşdə Kiyevin amerikalılara hansı güzəştlərə getməyə hazır olduğu sualına cavab verilməli idi. İlkin fərqli mövqelərini nəzərə alsaq, belə görünürdü ki, görüş heç də tərəfləri razı salacaq nəticə ilə bitməyəcək. Bununla belə, martın 11-də təxminən doqquz saat davam edən danışıqlardan sonra məlum oldu ki, görüş nəticəsiz yekunlaşmadı. Ukrayna 30 günlük atəşkəsə razılaşdı, bunun müqabilində ABŞ silah təchizatını bərpa edəcəyinə söz verdi. İndi tərəflər Rusiyadan cavab gözləyirlər.**

Ciddədəki görüşdə ABŞ tərəfdən Dövlət katibi Marko Rubio, milli təhlükəsizlik müşaviri Mayk Vals və ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff iştirak etdi. Ukrayna nümayəndə heyətinə isə prezident aparatının rəhbəri Andrey Yermak, xarici işlər naziri Andriy Sıbiqa və müdafiə naziri Rustem Umerov daxil idi. Görüş öncəsi Dövlət katibi Marko Rubio təyyarədə jurnalistlərə bildirmişdi ki, Vaşinqton Ukraynanın mövqeyini anlamaq və Kiyevin hansı güzəştlərə getməyə hazır olduğu barədə ümumi təsəvvürə malik olmaq istəyir: "Çünki hər iki tərəf güzəştə getməyincə siz atəşkəsə və bu müharibənin bitməsinə nail olmayacaqsınız". Cənab Rubio daha sonra Amerika tərəfinin Ukraynadan hansı güzəştlər gözlədiyinə eyham vuraraq qeyd etmişdi ki, Kiyevin 2014-cü ildən bəri itirdiyi bütün əraziləri qaytarması çətin görünür.



Bəs Ukrayna ABŞ-dan nə istəyirdi? Andrey Yermak danışıqlar ərəfəsində demişdi ki, Kiyev üçün təhlükəsizlik təminatı əsas məsələ olaraq qalır. Düzdür, o, etiraf etmişdi ki, iclasda bu məsələyə yalnız ilkin əsaslarla baxıla bilər: "Ən vacibi bu prosesi necə başlamaqdır və biz müzakirələrə hazırıq". Lakin sonradan məlum oldu ki, həmin gün danışıqların ikinci raundunda təhlükəsizlik təminatlarına diqqət yetirildi.

Bundan əlavə, bir sıra Avropa KİV-in məlumatına görə, ukraynalılar Ciddəyə Fransa-Britaniya tandeminin ötən həftə təklif etdiyi planı xatırladan bir təkliflə gəlmişdilər. Həmin plan dron zərbələri və uzaqmənzilli raketləri, eləcə də Qara dənizdə hərbi əməliyyatları dayandırmaqla "qismən atəşkəs" elan edilməsini nəzərdə tuturdu. Bunun müqabilində Kiyev Vaşinqtondan ukraynalılarla kəşfiyyat məlumatlarının mübadiləsini və silah tədarükünü dayandırmaq qərarına yenidən baxacağını gözləyirdi. Danışıqlardan əvvəl Marko Rubio məsələnin müzakirə ediləcəyini, lakin onun nəticəsinin danışıqların səmərəlilik dərəcəsindən asılı olacağını açıq bildirmişdi.

Mövqelərin fərqləndiyini nəzərə alan siyasi müşahidəçilər danışıqlarda konkret irəliləyişə nail olunacağına şübhə ilə yanaşırdılar. Bununla belə, Dövlət Departamentinin sözçüsü Temmi Bryus ABŞ-ın nikbin olduğunu və "bəşəriyyət üçün fantastik xəbərin" ortaya çıxmasını gözlədiyini vurğuladı. Nəhayət, danışıqlar gecə saatlarında başa çatdıqdan dərhal sonra Ağ ev müzakirələrin "məhsuldar" olduğunu və Donald Trampın onlardan "müsbət xəbərlər" aldığını bildirdi. Tezliklə tərəflər birgə bəyanat yayaraq, Ukraynanın ABŞ-ın 30 günlük atəşkəs rejiminin tətbiqi təklifini qəbul etməyə hazır olduğunu açıqladılar. Bundan sonra ABŞ Kiyevlə kəşfiyyat məlumatlarının mübadiləsində fasiləni dərhal aradan qaldıracağını və Ukraynaya təhlükəsizlik yardımını bərpa edəcəyini bildirdi. Polşanın Milli Müdafiə Nazirliyi Ukraynaya silah tədarükünün bərpasını təsdiqlədi. Nəhayət, Marko Rubio yekunda dedi ki, Kiyev Moskva ilə "dərhal danışıqlara" razılıq verdi. Dövlət katibi əlavə etdi ki, ABŞ hazırda atəşkəs təklifinə Rusiya Federasiyasından müsbət cavab gözləyir.

Ukrayna prezidenti Vladimir Zelenski X sosial şəbəkəsində razılaşmanı şərh edərkən bildirdi ki, 30 günlük tam müvəqqəti atəşkəs təkcə Qara dənizdə deyil, həm də bütün cəbhə xətti boyunca raket, dron və bomba hücumlarına son qoyulması deməkdir: "Ukrayna bu təklifi qəbul etməyə hazırdır, biz bunu müsbət addım kimi qəbul edirik və qəbul etməyə hazırıq. İndi ABŞ Rusiyanı da buna inandırmalıdır".

ABŞ prezidenti Donald Tramp isə öz növbəsində planı Vladimir Putinlə müzakirə etməyi planlaşdırdığını dedi: "Tanqo üçün iki nəfər lazımdır".

Avropa da Ukraynanın ABŞ-ın cəbhədə 30 günlük atəşkəs tətbiq etmək təklifi ilə razılaşmaq qərarını alqışladı. Fransa prezidenti Emmanuel Makron "X" mikrobloqunda yazdı ki, "top" indi aydın şəkildə Rusiya tərəfdədir.

Böyük Britaniyanın Baş naziri Kir Starmer də Ukrayna və ABŞ prezidentlərini "gözəl sıçrayış" münasibətilə təbrik etdi. Onun fikrincə, bu, Ukraynada sülh üçün vacib məqamdır: "İndi hamımız mümkün qədər tez davamlı və təhlükəsiz sülhə nail olmaq üçün səylərimizi ikiqat artırmalıyıq".

İtaliyanın Baş naziri Giorgia Meloni danışıqların nəticələrini alqışlayıb: "İtaliya ABŞ prezidenti Trampın rəhbərliyi altında Ukraynanın uzunmüddətli təhlükəsizliyini təmin edəcək ədalətli sülhün əldə edilməsinə yönəlmiş səylərini tam dəstəkləyir. İndi qərar Rusiyadan asılıdır".

Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen də ukraynalılar və amerikalılar arasında görüşü və yardımın bərpasını alqışlayıb. Onun sözlərinə görə, bu, hərtərəfli, ədalətli və davamlı sülhə doğru bir addım ola bilər.

Rusiyadan isə hələlik konkret açıqlama yoxdur. Kremlin sözçüsü Dmitri Peskov bildirir ki, Rusiya tələsmir: "Bir az tələsirsiniz. Biz tələsmək istəmirik. ABŞ dövlət katibi Marko Rubio və ölkə Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts bu məsələ ilə bağlı bizə məlumat verəcəklərini bildirirlər. Şərh verməzdən əvvəl ABŞ tərəfini dinləməliyik, onlarla görüşə ehtiyac yaranarsa, çox tez təşkil olunacaq. Amerika ilə əlaqə üçün mövcud kanallar bunu kifayət qədər qısa müddətdə etməyə imkan verir".

Bəs Moskvanın mövqeyi necə ola bilər? Bu barədə müxtəlif ehtimallar irəli sürülür. Məsələn, "The Telegraph" qəzeti yazır ki, Rusiya lideri Vladimir Putin ABŞ-ın dəstəklədiyi Ukrayna ilə atəşkəsə razılaşmaqda çətinlik çəkəcək, xüsusən də Rusiya qoşunları cəbhə xəttində irəliləməyə davam edir. Qəzet qeyd edir ki, Rusiya Ukraynada atəşkəs təklifini rədd edərsə, ABŞ-ın bir açıq variantı olacaq - Ukraynaya daha da hərbi dəstək verməklə Kremlə təzyiq göstərmək. Ümumi hücuma baxmayaraq, əsas döyüşlərin cəmləşdiyi Ukraynanın şərqində Rusiyanın irəliləmə tempinin son həftələrdə bir qədər azaldığı vurğulanır. Bununla yanaşı, qəzet rusiyalı yüksək vəzifəli mənbələrə istinadən yazır ki, Kreml atəşkəs təklifinə ehtiyatla yanaşır. Çünki aydın təminat və vədlər olmadan Vladimir Putin üçün müharibəni rəsmi şəkildə dayandırmaq çətin olacaq.

CNN isə iddia edir ki, Rusiya Prezidenti Vladimir Putin, ola bilsin, sülhü hansısa formada qəbul edəcək və bu, atəşkəsin nə qədər davam edəcəyi müharibənin nəticəsini və Ukraynanın sağ qalmasını müəyyənləşdirəcək. Amerikalı ekspertlər ehtimal edirlər ki, Moskva dərhal atəşkəsi qəbul etməyə bilər, ən azından ona görə ki, Vladimir Putin ilk hərbi məqsədlərə yaxın olduğu bir zamanda, yəni Ukraynanın avqust ayından bəri nəzarətində saxladığı Kursk bölgəsindən çıxmadığı vaxtda təkliflə razılaşmanı təxirə sala bilər. CNN bildirir ki, 30 günlük atəşkəs ilk baxışdan əlbəttə, yaxşı xəbərdir. Eyni zamanda, analitik məqalədə qeyd olunur ki, atəşkəs on ildir davam edən bu münaqişənin "ən mürəkkəb və qüsurlu ideyası"dır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Millimiz Avropa zirvəsində

## *Güləşçilərimiz mübarizəni davam etdirirlər*

**Azərbaycan pəhləvanlıq məktəbi dünya güləşinin inkişafına böyük töhfələr verməkdə davam edir. Albaniyanın Tirana şəhərində keçirilən qitə çempionatında böyük güc, yüksək texnika nümayiş etdirərək 4-cü dəfə Avropa çempionluğunu qazanan millimiz yenilməzlik statusu ilə şöhrətini daha da artırdı.**




Millinin böyük məşqçisi Cəbrayıl Həsənov "Xalq qəzeti"nə açıqlamasında Avropanın ən güclülərinin yarışında yığmamızın ilk dəfə 10 çəkidən 9-da mükafat qazanmağa müvəffəq olduğunu bildirdi. O qeyd etdi ki, ilk dəfə sərbəst güləşçilərimizdən 5-i qitə birinciliyinin finalında mübarizə apardı. Bundan başqa, 169 xal toplayan millimiz yeni rekord müəyyənləşdirdi. Bu nəticə ilə yığmamız 2-ci yerin sahibi Türkiyəni 52, 3-cü yeri tutan Ukraynanı 104 xalla üstələdi.

***Cəbrayıl Həsənov millinin yarışa yaxşı hazırlaşdığını, onlardan bu qələbəni gözlədiklərini bildirdi:***

– Millimizin Avropa çempionatına yüksək səviyyədə hazırlığı üçün Güləş Federasiyası tərəfindən hər bir şərait yaradılmışdı. Qitə çempionatında komandamızın yüksək nəticəsi aylarla çəkilən zəhmətin bəhrəsidir. Güləşçilərimizin hər biri öz gücündən maksimum yararlanmaq üçün böyük səy göstərdi. Qarşıda bizi daha böyük hədəflər gözləyir. Onlara çatmaq üçün əlimizdən gələni edəcəyik.

Avropa çempionatında yeganə qızıl medalın sahibi Arseniy Djioyev (86 kq) qalib adını qazandığı üçün məmnun olduğunu dedi. O, yarışdan sonra Qubada təlim-məşq toplanışı keçəcəklərini, daha sonra böyüklərin Avropa çempionatına yollanaclarını vurğuladı.

***Avropa çempionatının bürünc mükafatçısı Murad Haqverdiyev (65 kq) əslində Tiranaya qızıl medal üçün getdiyini bildirdi:***

– Yarışda rəqabət çox yüksək idi. Ötən il çiynimdən ağır əməliyyat olunmuşdum. Yarış ərəfəsində təlim–məşq toplanışlarında yenidən çiynim zədələndi. Çətin olsa da, bu zədə ilə güləşdim. Əsas odur ki, mükafatsız qalmadım. Qarşıdakı yarışlara daha yaxşı hazırlaşıb, çempionluq uğrunda mübarizə aparacağam.

***Komandanın digər bürünc medalçısı Rəhman İmanov (57 kq) növbəti yarışlarda daha yüksək nəticələr üçün mübarizə aparacağını dedi:***

– Avropa çempionatında ilk görüşdə Rusiya güləşçisinə məğlub oldum. O finala yüksəldiyi üçün təsəlliverici görüşə çıxdım. Növbəti mərhələdə Şimali Makedoniya güləşçisinə böyük hesabla qalib gəldim və bürünc medal görüşünə vəsiqə qazandım. Həlledici mərhələdə ukraynalı rəqibimi 8:6 hesabıyla məğlub etdim. İndi əsas hədəf dünya çempionatıdır. Yarışa yaxşı hazırlaşıb, çempionluq uğrunda mübarizə aparacağam.

Qitə çempionatında qadın güləşçilərimiz də böyük uğurlar qazanıblar. Onlardan biri – Günay Qurbanova bütün rəqiblərini məğlub edərək Avropa çempionu olub. ***Güləş üzrə mütəxəssis Yaqub Məmmədov Günay Qurbanovanın Olimpiya ümidlərimizdən biri olduğunu qeyd etdi:***

– Günay gələcəkdə Olimpiya çəkisində – 57 və yaxud 62 kiloqram çəkidə yarışlara qatılıb, böyük nailiyyətlər qazana və Olimpiadada iştirak edə bilər. Bədən quruluşu güləşə uyğundur. Texnikasını daha da artırmalı və öz üzərində çalışmalıdır.

***Yarışın həyəcanından hələ də ayrıla bilməyən G.Qurbanova qəzetimizə maraqlı açıqlama verdi:***

– İnam qələbənin yarısıdır. Məhz bu inam sayəsində Avropa çempionluğunu qazandım. Startda görüşdüyüm belaruslu idmançı əsas və güclü rəqiblərdən olsa da, məsuliyyət baxımından final qarşılaşması daha gərgin və həyəcanlı oldu.

Qarşıda hədəflər coxdur. Var gücümlə çalışacağam ki, uğurlarımla məşqçimi və xalqımı sevindirim.

***Məşqçi Solmaz Adilova Günayın Tiranadakı qələbəsini belə şərh etdi:***

– Günayın güclü potensialı var. Finalda rəqibi gənclər arasında Dünya, Avropa çempionu, Paris olimpiadasının iştirakçısı idi. Günayın yaşını, təcrübəsini nəzərə nəzərə alıb, düşüncələrimizdə 2-ci yerlə razılaşmışdıq. Amma o, çempionluğa köklənmişdi. Yarımfinal görüşündə qələbədən sonra otelə qayıdanda yolboyu "Mən çempion olacağam", – deyirdi. Düşdüyü qrup da asan deyildi. Belaruslu rəqibi gənclər arasında son dünya çempionatının bürünc medalçısı idi. Həmin yarışda Günay 5-ci olmuşdu. Onun şəxsi məşqçisi, Olimpiya çempionu Toğrul Əsgərov Günayın böyüklər arasında yarışlarda daha tez, yəni vaxtından əvvəl iştirak etməsini istəmir. Bundan əvvəl onun bacısı gənc güləşçi Leyla Qurbanova vaxtından əvvəl böyüklərdə güləşib, ciddi zədə aldı. Günayın ən yaxşı xüsusiyyətlərindən biri, məşqçisinə qulaq asması və tapşırıqlara əməl etməsidir. Ən böyük arzusu isə şəxsi məşqçisi kimi yüksək nailiyyətlər qazanmaqdır.

***Solmaz Adilova komandanın digər üzvlərinin də çıxışına toxundu:***

– Qitə çempionatında daha bir güləşçi Elnurə Məmmədova (53 kq) finala yüksəldi. Komandamızın digər üzvü Ruzanna Məmmədovanın (65 kq) da finala çıxmasını gözləyirdik. O, öz çəkisinin dünyada liderini – rusiyalı idmançını məğlub etdi. Son illər gələcəyi düşünüb, Ruzannanın çəkisində dəyişikliklər edirik. Son dəfə 59 kiloqram çəkidə güləşməyinə baxmayaraq, bu dəfə 65 kiloqram çəki dərəcəsində mübarizə apardı. O, yarımfinalda qalib gələ bilərdi. Özünün etdiyi kiçik bir səhv ucbatından uduzdu.

Qeyd edək ki, qadın güləşçimiz Əsmər Cankurtaran (50 kq) bürünc medal qazanıb. Dünən gecə seansında Elnura Məmmədova isə qızıl, Gültəkin Şirinova (57 kq), Ruzanna Məmmədova bürünc medal uğrunda mübarizə aparıblar.

Qitə çempionatının son günlərində yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. Baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Elvin Mürsəliyevin rəhbərlik etdiyi komandada Elmir Əliyev (55 kq), Hüseyn Qəribov (60 kq), Ziya Babaşov (63 kq), Fərid Xəlilov (67 kq), Ruslan Nurullayev (72 kq), Xasay Həsənli (77 kq), Elmin Əliyev (82 kq), Cocu Səmədov (87 kq), Aqil Musayev (97 kq) və Ayxan Mərdanov (130 kq) yer alıb.

***Leyla QURBANOVA***
***XQ***

# Ankarada dostluq görüşləri

**Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdində fəaliyyət göstərən Mədəniyyət Mərkəzində Ankara Atatürk Liseyinin müdiri Adil Yaman ilə görüş olub.**



Toplantıda Türkiyə və Azərbaycanın orta ümumtəhsil məktəblərində tariximiz, ədəbiyyatımız, Türk dünyasının qəhrəmanları və tarixi şəxsiyyətləri ilə bağlı birgə layihələr, mədəniyyət günlərinin keçirilməsi, ayrıca Azərbaycan-Türkiyə qardaşlığına aid xüsusi proqramların təşkili və s. məsələlər müzakirə olunub.

Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Samir Abbasovun sözlərinə görə, mərasimin sonunda iştirakçılara Azərbaycan haqqında əyani vəsaitlərdən təşkil olunmuş videolar, kitablar təqdim edilib. Toplantıya Azərbaycan səfirliyinin birinci katibi İslam Quliyev də qatılıb.

Yeri gəlmişkən, Mədəniyyət Mərkəzinin rəhbərliyinin təşəbbüsü ilə digər bir görüş isə Ankara Etnoqrafiya Muzeyinin müdiri Veysi Gül ilə keçirilib. Burada qardaş ölkələr arasında sərgilərin təşkil olunması, ortaq layihələrin hazırlanması və həyata keçirilməsi barədə müzakirələr aparılıb.

Görüşün sonunda azərbaycanlı qonaqlara Ankara Etnoqrafiya Muzeyinin bölmələri, sərgi salonları haqqında ətraflı məlumat verilib.

***Kəmalə ABDİNOVA***
***XQ***

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyi
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**
*aşağıda qeyd olunan vakant vəzifələri tutmaq üçün*
MÜSABİQƏ ELAN EDİR

Riyazi analiz kafedrasının müdiri.
Cəbr və həndəsə kafedrasının müdiri.
Riyaziyyat və onun tədrisi texnologiyası kafedrasının müdiri.
Ümumi kimya və kimyanın tədrisi texnologiyası kafedrasının müdiri.
Biologiya və onun tədrisi texnologiyası kafedrasının müdiri.
Analitik və üzvi kimya kafedrasının müdiri.
Fiziologiya kafedrasının müdiri.

Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə uyğun bu elan qəzetdə və www.adpu.edu.az saytında dərc olunan gündən bir ay müddətində saat 9.00-dan 17.00-a qədər rektorun adına yazılan ərizə ilə birlikdə ADPU-nun insan resursları şöbəsində qəbul edilir.

**Əlaqə telefonu – (012) 498-08-16.**
**Ünvan – AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.**
**E-poçt: insan.resurslari@adpu.edu.az**
**www.adpu.edu.az**

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 55 (30749) 13 mart 2025-ci il, cümə axşamı

# Anadolunun qızıl qazları...

*Şərqi Aralıq dənizi bölgəsində flaminqoların sayı 1 ildə 2 dəfə artıb*

**Qardaş Türkiyənin təbiəti, flora və faunası çox gözəl, əsrarəngiz və bənzərsizdir. Ölkə əhalisi isə canlı aləmə, çeşidli bitki, heyvan və quşlara xüsusi diqqət və qayğısı ilə seçilir. Sakinlərin qızıl qazlara, elmi ədəbiyyatda flaminqo kimi tanınan nadir quşlara da saygısı dünyada rəğbətlə qarşılanır.**



Qeyd etmək lazımdır ki, Şərqi Aralıq dənizi bölgəsində flaminqolar üçün əhəmiyyətli su-bataqlıq ərazilər çoxdur. Bu son dərəcə gözəl məkanlara flaminqolar "ev sahibliyi" edirlər. Xoşbəxtlikdən onların sayı son illər azalmır, əksinə, çoxalır. Məsələn, təkcə son bir ildə qızıl qazların sayı ərazidə 2 dəfə artaraq 23 min 303-ə çatıb.

"Anadolu" agentliyinin müxbiri yazır ki, Adana, Mersin, Hatay, Osmaniyə ellərində aparılan quşortası sayımın nəticələrinə görə, bu ərazilərdə 70 növdə 311 min 945 flaminqo aşkar edilib.

Düzdür, bu sahədə dəqiq rəqəm söyləmək çətindir, amma hesablamalar kifayət qədər dürüst və mötəbərdir. Qızıl qazların baş sayı Türkiyənin 7-ci Təbiəti Mühafizə və Milli Parklar Region Müdirliyi adından Təbiət Araşdırmaları Dərnəyinin əməkdaşları tərəfindən aparılıb.

Təbiəti Mühafizə və Milli Parklar 7-ci Region Müdirliyinin müdir müavini Hilmi Çatal bildirib ki, Şərqi Aralıq dənizində su quşlarının siyahıyaalınması yanvarın 17-də başlayıb və 22-də başa çatıb. Onun sözlərinə görə, ornitoloqlar Adana, Mersin, Hatay və Osmaniyədə, ümumilikdə, 311 min 945 su quşu qeydə alıblar.

Hilmi Çatal agentliyin yazarına Çukurova deltasında aparılan işlərdən də danışıb. O, populyasiyanın artmasına ən mühüm səbəb kimi bu növlərin mühafizəsi və yaşayış mühitinin yaxşılaşdırılmasını göstərib. Bundan başqa, brakonyerliyə qarşı mübarizə də gücləndirilib.

Qızıl qazlar nadir, sayı azalmaqda olan, qışlayan və köçəri quş növüdür. Afrikadan tutmuş, Orta Şərq, Qafqaz, Avropanın Aralıq dənizi sahillərində yayılmışlar. Xəzərdə və bütün iri daxili su hövzələrində qışlayırlar. Ən stabil qışlama yerlərinə ölkəmizin ərazisindəki Qızılağac körfəzi, Abşeron yarımadasındakı Şıx sahilləri, Dəvəçi limanı, Ağgöl, Sarısu və Kür-Araz düzənliyinin digər iri göllərini aid etmək olar.

Məlumat üçün bildirək ki, qızıl qazların yuvaları vulkan şəklindədir. Yuva quran qızılqazlar palçıq, kiçik daş parçaları və tökülmüş lələklərdən istifadə edirlər. Maraqlısı odur ki, quşun istifadə etdiyi bu qarışıq çox tez quruyur. Yuva 30 santimetr hündürlüyündə olur. Yuvanın hündür olmasının xeyri odur ki, su yüksələrkən yumurta sudan qorunur. Bu məqamda deməmək olmur: Quşların başı yaxşı işləyir!

Yeri gəlmişkən, qızıl qazların pərdəli ayaqları üzmələrini asanlaşdırır. Ayaqların yastı və geniş olması sayəsində qızıl qazlar yumşaq palçıq üzərində belə batmadan asanlıqla gəzirlər.

Yəqin ki, fotolarda təkayaqlı qızılqazlara rast gəlmisiniz. Alimlərin qənaətinə görə, qızıl qazların təkayaqlı duruşu onlara daha az güc sərf etməyə imkan verir. Belə ki, təkayaqlı duruş zamanı quşun sərf etdiyi enerji ikiayaqlı duruşa sərf edilən enerjidən daha azdır.

ABŞ ornitoloqlar qrupunun gəldiyi nəticəyə əsasən, tək ayaq üstə duran qızıl qazın əzələləri, demək olar ki, heç bir gərginliyə düşmür – əksinə, quşun əzələləri dincəlir. Bu səbəbdən qızılqazlar tək ayaq üstündə durarkən, hətta mürgüləyə də bilirlər. Digər elmi qrupların fərziyyələrinə görə isə, təkayaqlı duruş quşlara bədən temperaturunu qoruyub saxlamağa imkan verir.

Bir sözlə, Allah Yer üzünü insanlara onun əzəli və əbədi gözəlliklərindən zövq almaq üçün yaradıb. Biz insanlar isə bu qənirsiz və əvəzsiz sərvətin qədrini bilməliyik.

***Məsaim ABDULLAYEV***
***XQ***

İdman

## Taekvondoçumuz dünya reytinqini qoruyub

**Dünya Taekvondosunun 2025-ci ilin mart ayı üçün reytinq siyahısı müəyyənləşib.**



"Paris-2024" Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı olan Azərbaycan təmsilçisi Qaşım Maqomedovun mövqeyində dəyişiklik olmayıb.

Avropa çempionu 124.32 xalla dünya reytinqinin ikinci pilləsində qərarlaşıb. İlk sırada isə Paris Olimpiadasının finalında idmançımızı məğlub edən Cənubi Koreya təmsilçisi Park Te Cun yer alıb.

## İAA-nin yeni loqosu




**Azərbaycan İdman Akademiyasının (AİA) yeni loqosunun təqdimat mərasimi keçirilib.**

Akademiyanın təsis olunduğu gündən indiyədək gördüyü işlərdən bəhs edən videoçarx nümayiş olunduqdan sonra yeni loqo ictimaiyyətə təqdim olunub.

Yeni loqonun dizayn qrupunun rəhbəri Şamil Ramazanov yaşıl rəngdə olan loqonun müasir standartlara cavab verdiyini, daha dinamik təsir bağışladığını söyləyib. O, loqodakı yaşıl xətlərin qaçış zolaqlarını əks etdirdiyini vurğulayıb.

Tədbirin sonunda AİA-nın rektoru Fuad Hacıyev akademiyanın fəaliyyətindən, tələbələrin beynəlxalq arenalarda əldə etdiyi nailiyyətlərdən danışıb. O, akademiyada təhsil alanların sayının ildən-ilə artmasını Azərbaycan gənclərinin idmana olan həvəsinin yüksək səviyyədə olması ilə əlaqələndirib.

***L.AZAD***
***XQ***

Sağlamlıq

## İtburnu – necə dəmləyək onu?



**İtburnu fitoterapevtik təsir edən bitkidir, onun meyvələri zəngin biokimyəvi tərkibi ilə seçilir. Meyvədə polifenolik birləşmələr, karotenoidlər, yüksək konsentrasiyalı askorbin turşusu, E vtamini, üzvi turşular və mineral komponentlər var.**

İtburnu çiçəyi ekstraktı metabolik prosesləri aktivləşdirir, mədə-bağırsaq traktının işini optimallaşdırır, öd ifrazını stimullaşdırır və qaraciyərin detoksikasiya funksiyasını artırır. Dəmləməsinin tərkibində maqnezium və kaliumun olması səbəbindən qan təzyiqini normallaşdırır, kardioprotektiv təsir göstərir və qanın reoloji xüsusiyyətlərini yaxşılaşdırır. Klinik müşahidələr onun ürək-damar xəstəliklərinin müalicəsində təsirli olduğunu təsdiqləyir.

İçkisini hazırlamaq üçün həm təzə, həm də qurudulmuş meyvələrdən istifadə edilir. Bəs itburnunu nədə və necə dəmləmək məsləhət görülür?

Termosda dəmləmənin üstünlüyü odur ki, istiliyi uzun müddət saxlayır və bununla da meyvədən qida maddələri tam çıxır. Bunun üçün əzilmiş itburnu termosa yığılır, üstünə qaynar su tökülüb 6–12 saat saxlanır.

Qazanda dəmləmə daha çox vaxt tələb etsə də, zəngin dad və ətirli içki alınır. Həlimi qazanda hazırlamağın əsas üstünlüyü odur ki, həm bütöv, həm də doğranmış itburnu istifadə etmək olar. Məlhəm qaynamamalıdır.

Çaydanda əzilmiş itburnu bir neçə dəqiqə dəmlənir. Amma bu üsulda termos və ya qazanda dəmləndiyi kimi itburnudakı faydalı maddələr tam çıxmır.

Faydalı içki əldə etmək istəyən itburnunu termosda və ya qazanda dəmləsin.

***Z.HÜSEYNLİ***
***XQ***

## Cəbrayılda oftalmoloji aksiya

**Səhiyyə Nazirliyinin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası tərəfindən Cəbrayıl şəhərində əhali üçün oftalmoloji tibbi müayinələr aparılır. Müayinələr martın 12-də başlayıb və bu gün bitəcək.**



Tibbi aksiyanın ilk günündə 100-ə yaxın sakin oftalmoloji müayinədən keçib. Müayinələr əsasında vətəndaşlarda quru göz sindromu, allergik konyunktivit, refraksiya patologiyası, miopik astiqmatizm və digər xəstəliklər aşkarlanıb. Eyni zamanda, göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılıb və əldə edilən nəticələr müzakirə olunub. Həmçinin ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb. Ümumilikdə, ikigünlük oftalmoloji aksiya çərçivəsində 190-a yaxın vətəndaşın müayinədən keçməsi nəzərdə tutulub.

Aksiya zamanı məlumat verilib ki, bəzən göz xəstəliklərinin simptomları diqqətdən kənarda qala bilər. İlkin mərhələdə göz patologiyasını müəyyən etmək üçün sakinlərə mütəmadi olaraq ümumi oftalmoloji müayinələrdən keçmələri tövsiyə edilib. Daha sonra aksiya iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***XQ***

HAVA

# Ay duman, gəl get Bakıdan...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən,martın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 3-7°, gündüz 13-18° isti olacaq.Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət gecə 70-80 , gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9° , gündüz 20-25° , dağlarda gecə 2-7° , gündüz 12-17° isti olacaq.

***Q.QASIMOV***
***XQ***



## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri Xudayət Həsənliyə atası

**İSKƏNDƏR HƏSƏNLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Namiq Babayev, Çingiz Xəlilov, Vəfadar Misirov və Mikayıl Nuriyev Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri Xudayət Həsənliyə atası

**İSKƏNDƏR HƏSƏNLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Bakı Hərbi Məhkəməsinin hakimi

**ASLAN KALBALIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3373
SİFARİŞ 483
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00